RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 235 (9690) 25 oktyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzidir

Azərbaycan Prezidentinin Rusiyaya səfəri




## Prezident İlham Əliyev Kazanda XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında iştirak edib

**Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gəldi. Əvvəlcə XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının nümayəndə heyətləri başçıları - iştirakçılar birgə foto çəkdirdilər.

Rusiya Prezidenti Vladimir Putin çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

→ 2

## Azərbaycanın uğurlu "yaşıl enerji" siyasəti

Azərbaycanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına iki dövr üzrə sədrlik etməsi, həmçinin Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalaması ölkəmizə göstərilən böyük etimad və uğurla qurulmuş əməkdaşlıq münasibətlərinin nəticəsidir. Bütün bu uğurların əsas müəllifi müasir geosiyasi proseslər kontekstində beynəlxalq güc mərkəzləri və tərəfdaşlarla dəqiq, balanslaşdırılmış, düşünülmüş, sağlam diplomatik münasibətlər qurmağı bacaran və əksər dünya liderləri tərəfindən hörmət və ehtiramla qarşılanan cənab Prezident İlham Əliyevdir. 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində




əsası qoyulan "Tərəflər Konfransı" kimi nəhəng, 198 üzv dövləti özündə birləşdirən COP29-un ölkəmizdə keçirilməsi qərarı da məhz cənab Prezidentin müstəsna xidmətlərinin nəticəsidir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb.

Ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq tədbir hesab edilən COP29-a evsahibliyi etmək Azərbaycana beynəlxalq münasibətlər müstəvisində bir neçə istiqamətdə əlavə üstünlüklər qazandıra bilər. Belə ki, ümumilikdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, hər şeydən öncə, insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədi daşıyır.

→ 4

## Zəfərin Qubadlı səhifəsi

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qubadlıya ilk səfəri 2020-ci il dekabrın 23-də oldu. Dövlət başçısı rayonda Azərbaycan bayrağını qaldıraraq Qubadlının işğaldan azad edilməsinin tarixi hadisə olduğunu vurğuladı.

Qubadlı rayonunun və şəhərinin azad edilməsinin böyük strateji üstünlük təmin etdiyini deyən Prezident, Qubadlıdan sonra növbəti istiqamətin Laçın rayonu olduğunu xatırlatdı: "...Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna ge-




dən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir".

Qubadlının işğaldan azad olunmasının birinci ildönümündə Qubadlıya səfər edən dövlət başçısı Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak etdi. İşğaldan azad edilmiş digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerji sistemi şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

→ 7

## Qərbin niyyəti Gürcüstanda sabitliyi pozmaqdır

Gürcüstanda keçirilən seçkilər Azərbaycanda da yaxından izlənilməkdədir. Çünki bu ölkə Azərbaycanın yaxın qonşusu olmaqla bərabər, həm də yaxın dostudur. Gürcüstan Azərbaycanın təşəbbüsləri ilə reallaşan enerji layihələrinin iştirakçısıdır. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" kimi Xəzərin karbohdirogen ehtiyatlarını dünya bazarlarına çıxaran kəmərlər məhz Gürcüstan ərazisindən keçir.

O cümlədən hər iki dövlət son dövrlərdə daha aktuallıq kəsb edən Orta dəhlizin inkişaf etdirilməsi yönündə səmərəli əməkdaşlıq edirlər. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ikitərəfli əlaqələri daha da dərinləşdirib. Azərbaycan həm də Gürcüstana ən çox sərmayə yatıran ölkələr sırasında yer alıb. SOCAR-ın xətti ilə Gürcüstanda görülən işlər bu ölkənin iqtisadiyyatının inkişafına, dövlət büdcəsinin formalaşmasına böyük töhfələr verir.

Ümumiyyətlə, Azərbaycan Gürcüstana qarşı hər zaman əsl dost münasibəti göstərib. Bu ölkənin çətin dönəmlərində Bakı Tbilisiyə kömək əlini uzadıb. Bu gün də Azərbaycan və Gürcüstan arasında hər iki dövlətin maraqlarına xidmət edən sıx münasibətlər var. Ona görə də Gürcüstandakı parlament seçkilərinin nəticəsi, mövcud siyasi kursun davam etdirilməsi, "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının qələbə qazanması, siyasi sabitliyin qorunub saxlanılması Azərbaycanın maraqlarına uyğundur.

→ 10

Felyeton

## İkinci dəfə eyni palçıqda batmaq istəyi

Dünyada hamının nədənsə rəğbət bəsləmədiyi dilsiz-ağızsız bir heyvan var.

Onu bir neçə adla çağırırlar.

Bu fağır uzunqulaq nə qədər işlək, yükgötürən və üzüyola olsa da, insanlar arasında hörmət qazana bilməyib ki, bilməyib.

Bu heyvanın "ağıllı" bir tərsliyi də var:

Nə illah eləsən də, bir dəfə palçığa batdığı yerə ikinci dəfə girmir.

Döyməyin, toqqaşdamağın, noxtasından tutub dartmağın da faydası olmur.

Dörd ayağını yerə dirəyərək sonacan tərslik edir.

Bu "hörmətsiz", amma "ağıllı" heyvanın düzgün hərəkətini anlamayanlar, doğru nəticə çıxarmayanlar, onun höcətliyindən öyrənməyənlər də mövcuddur.

Belələri bir dəfə palçığa batdıqları yerə ikinci dəfə girənlərdir.

Yaxud girməyə hazırlaşanlardır.

Bəli, söhbət məhz Ermənistandan gedir.

→ 5

## Ermənipərəst Qərb məyusdur

### Çünki Azərbaycan onun bütün məkr və avantüralarını iflasa uğradır

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın qazandığı Qarabağ zəfəri sözün əsl mənasında regionu müharibə meydanına çevirmək niyyəti güdən Qərbin əl-qolunu bağladı. Onilliklər boyu Ermənistanın işğal faktına qarşı susan, Qarabağda separatizmin kök atmasına birbaşa şərait yaradan və bu qanunsuzluqlardan yararlanan məkrli Qərbə Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar qətiyyən sərf etmir. Buna görə də sülh pərdəsi altında müharibə planları cızır. Ermənistanı silahlandırır, iki ölkə arasında normallaşmaya nail olunmaması üçün bütün mümkün çirkin variantlara əl atır. Amma məhz Bakının sülh təşəbbüsləri sayəsində bu vaxta qədər Ermənistan ilə Azərbaycan arasında ikitərəfli danışıqlar aparılıb, sərhədlərin delimitasiya və demarkasiya prosesinə start verilib.

Daim regionda barışı təşviq edən Azərbaycan hərtərəfli cəhətdən sürətlə inkişaf edir. Dünyanın nəqliyyat, enerji qovşağına çevrilən respublikamızın siyasi, iqtisadi, hərbi qüdrəti gündən-günə artır, beynəlxalq nüfuzu yüksəlir. Qlobalmiqyaslı problemlərin yoluna qoyulmasında yaxından iştirak edən və dünya ictimaiyyətini narahat edən məsələlərin həlli ilə bağlı daim mühüm çağırışlar irəli sürən Azərbaycanın yekdil qərarla COP29-a ev sahibi seçilməsi də təsadüfi deyil.

→ 5

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

# Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzidir

## Prezident İlham Əliyevin çıxışı




- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

Hər şeydən əvvəl dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim.

Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Vladimir Putin** dedi: Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm. Çox sağ olun.

❖ ❖ ❖

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

# Rusiyanın Kazan şəhərində Prezident İlham Əliyevin Ermənistanın baş naziri ilə görüşü olub







**Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.



# Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Cevdet Yılmaza başsağlığı verib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 24-də Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaza başsağlığı məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ə.Əsədov Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insan tələfatı və yaralananlar barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirib.

Azərbaycanın Baş naziri bu ağır faciə ilə əlaqədar Türkiyənin vitse-prezidentinə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, bütün yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib. Başsağlığında deyilir: "Qardaş Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbərini böyük kədər hissi ilə qarşıladıq.

Bu qəddar cinayətin arxasında dayanan və onu törədənləri şiddətlə qınayır, terroru lənətləyir, həlak olanların ailələrinə, yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirik.

Gündən-günə güclənən, beynəlxalq aləmdə söz və nüfuz sahibi olan Türkiyə dövlətinə qarşı yönələn bütün xain planlar və təxribat cəhdləri iflasa məhkumdur. Biz hər zaman dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk".

*"Azərbaycan"*

# Avropa Parlamentinin 2024-cü il 24 oktyabr tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi ilə tanış olduq. Özünü Avropa parlamentarizminin siması kimi təqdim edən bu təsisat qoca qitənin bütün problemlərini bir kənara qoyaraq, yenidən ölkəmizə qarşı hücuma keçib.**



Avropa Parlamentinin Azərbaycan xalqının haqlı gözləntilərinə münasibətdə etinasızlığına artıq alışmışıq. Nəticə etibarilə, Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalı, şəhər və kəndlərimizin yer üzündən silinməsi, işğal olunmuş torpaqlarımızda və Ermənistan ərazisində xalqımızın tarixi, dini və mədəni irsinin kütləvi şəkildə dağıdılması və mənimsənilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq soydaşımızın hüquqlarının tapdanması, onların uzun illər ərzində çəkdikləri iztirablar avropalı parlamentariləri heç vaxt maraqlandırmayıb. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş anti-terror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına icra etməsi ilə də barışa bilməyiblər.

Lakin indi məlum olur ki, Avropa Parlamenti artıq öz anti-Azərbaycan xislətini bütün rəngarəngliyi ilə nümayiş etdirməyə qərar verib. Qətnamənin mətnindən də göründüyü kimi, ölkəmizə qarşı fəaliyyət göstərən müxtəlif maraq qruplarının istifadə etdikləri ayrı-ayrı mövzuların, təzyiq alətlərinin toplanaraq, bir sənəd formasında tərtib olunması məhz bunu deməyə əsas verir.

Bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür. Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə açıq şəkildə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Eyni zamanda Ermənistana xüsusi nəvaziş nümayiş etdirilir, onun silahlandırılması təşviq olunur, bununla da həmin ölkədə revanşist meyllərin gücləndirilməsinə və regionda yenidən münaqişənin alovlandırılmasına ciddi təşəbbüs göstərilir.

Qətnamədə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtması, Qərbi azərbaycanlıların haqlı tələbləri, ərazilərimizin Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minalardan təmizlənməsi, itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyi haqda bir ifadə belə yoxdur. Bu da həmin sənədin nə dərəcədə qərəzli və birtərəfli olmasını bariz şəkildə göstərir. Əlləri Azərbaycan xalqının qanına bulaşmış, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin hərbi əsir kimi qələmə verilməsi isə sadəcə, hiddət doğurur.

Ölkəmizin qlobal və regional səviyyədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunması naminə irəli sürdüyü təşəbbüslərə, göstərdiyi səylərə qərəzli münasibət də diqqətdən yayınmır. Təəssüf ki, avropalı parlamentarilər hətta iqlim dəyişmələri kimi mühüm bir məsələni siyasiləşdirərək, Azərbaycana qarşı ittiham aləti kimi istifadə etməkdən belə çəkinmirlər.

Bütövlükdə, qəbul edilən qətnamə Azərbaycanofob, türkofob və islamofob qüvvələrin həqiqi mahiyyətinin başa düşülməsi baxımından maraq doğurur: öz çirkin niyyətlərinin reallaşması naminə hamılıqla qəbul edilən dəyərlərin və prinsiplərin, haqq-ədalət anlayışının üzərindən asanlıqla xətt çəkmək, onları öz maraqlarına uyğun şərh etmək qəbuledilməndir.

Bu qətnaməni Avropa Parlamentində dərin kök salmış korrupsiyanın və rüşvətxorluğun ağır fəsadları kimi qiymətləndirsək, hər halda, yanılmarıq. Fransanın, Ermənistanın və erməni lobbisinin yalan narrativləri üzərində qurulmuş bu qətnamə əslində əldə olunmuş maddi mənfəətin bir qarşılığıdır.

Digər düşündürücü məqam isə Avropa Parlamentində şovinist, irqçi və müstəmləkəçi təfəkkürün nə dərəcədə geniş miqyas almasıdır. Müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqları irredentist qruplar adlandıran avropalı parlamentarilər Fransanın müstəmləkəçilik siyasətinə haqq qazandıraraq, bunu Avropa siyasəti kimi qələmə verirlər. Hesab etmək olar ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqlar onların azadlıq və müstəqillik arzularının qarşısını kimlərin əngəllədiyi barədə daha aydın təsəvvürə malik olacaqlar.

Avropa Parlamentinin ölkəmiz əleyhinə yönəlmiş bu qətnaməsindən yalnız bir nəticə çıxarmaq olar: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən, ölkəmizin milli, suveren maraqlarına xidmət edən müstəqil siyasət kimlərisə ciddi narahat edir. Lakin onlar unudurlar ki, Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin reallıqları təhrif edən, qeyri-obyektiv və birtərəfli qətnaməsini qəti şəkildə rədd edir. Bildiririk ki, parlamentimiz ölkəmizin və xalqımızın mənafelərinin müdafiəsi naminə aparılan bu siyasəti birmənalı şəkildə dəstəkləyir və onun reallaşması üçün bütün qüvvəsini bundan sonra da səfərbər edəcəkdir.

# COP29 üçün rəqəmsal nəqliyyat xəritəsi istifadəyə verilib

Bu ilin noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 konfransına müxtəlif ölkələrdən minlərlə ziyarətçinin səfər edəcəyi nəzərə alınaraq, COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən rəqəmsal nəqliyyat xəritəsi istifadəyə verilib.




Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən bildirilib.

COP29 zamanı nəqliyyat məsələlərinin idarə edilməsini ziyarətçilər üçün asanlaşdırılmasına xidmət edən bu onlayn resurs əlverişli mövqelərdə yerləşən nəqliyyat qovşaqları, eləcə də tədbir və qonaqlama məkanları ilə bağlı əsas məlumatları ehtiva edir.

Nəqliyyat qovşaqları şəbəkəsi şəhərin əlverişli ərazilərini əhatə etməklə yanaşı, bir sıra marşrutları, eləcə də nəqliyyat sxemlərini özündə birləşdirir. Qovşaqlar nümayəndə heyətlərinin və ziyarətçilərin yaşayış yerlərindən Bakı Stadionuna getmələri, habelə marşrut avtobusları, metro xətləri/metro stansiyaları və taksilər də daxil olmaqla, bir sıra multimodal nəqliyyat vasitələrindən asan istifadə imkanını təmin edir.

Yeni istifadəyə verilmiş və COP29 veb-saytında yerləşdirilmiş (transportmap.cop29.az) rəqəmsal nəqliyyat xəritəsi istifadəçilərə əsas nəqliyyat qovşaqlarının mövqelərini göstərmək üçün nəzərdə tutulub. Bu nəqliyyat qovşaqları COP29 müddətində nümayəndə heyətlərinin gediş-gəlişini optimallaşdırmaq və asanlaşdırmaq məqsədilə hazırlanıb və nəqliyyat qovşaqları, tədbir məkanı, o cümlədən qonaqlama məntəqələri arasında nəqliyyat hərəkətlərini effektiv şəkildə özündə birləşdirir.

İstifadəsi rahat olan bu elektron resurs COP29-un nəqliyyat qovşaqları şəbəkəsi, müvafiq marşrut avtobusu xətləri və "Aero Ekspress" avtobusları ilə sərnişindaşıma xidmətləri ilə yanaşı, Bakı Stadionu, o cümlədən Mavi və Yaşıl zonalar, Heydər Əliyev Beynəlxalq Aeroportu, əsas hotellər və yaşayış kompleksləri arasında istiqamətləndirməni təmin edir. Buraya parklanma yerləri və avtobus dayanacaqları, eləcə də minmə və enmə nöqtələri haqqında məlumatlar da daxildir. İstifadəçilər rəqəmsal nəqliyyat xəritəsində müvafiq sahələri qeyd edərək təyinat nöqtələri arasında nəqliyyatla və ya piyada hərəkət üçün ən uyğun marşrutları seçə bilərlər.

Rəqəmsal nəqliyyat xəritəsi COP29 Azərbaycan Əməliyyat Şirkətinin konfrans zamanı ziyarətçi axınını effektiv şəkildə idarə etmək üçün həyata keçirdiyi bir sıra tədbirlərdən biridir və COP29 müddətində həm qonaqlar, həm də şəhər sakinləri üçün rahat və komfortlu hərəkəti təmin edir. Sərnişindaşıma xidmətlərinin etibarlı şəkildə icrasını təmin etmək üçün həyata keçirilən digər tədbirlərə ekspres ictimai avtobuslar, konfrans üçün ayrılmış xüsusi marşrut avtobusları və hava limanına/hava limanından transfer xidmətləri də daxil olmaqla, yüzlərlə taksinin və 400-ə yaxın avtobusun istifadəyə verilməsi daxildir.

Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti noyabrın 11-dən 22-dək keçiriləcək konfrans zamanı akkreditə olunmuş iştirakçılara şəhər və aeroport avtobuslarından, eləcə də ictimai nəqliyyatdan ödənişsiz istifadə imkanı təqdim edir. Nümayəndə heyətləri üçün ödənişsiz marşrut avtobusu xidmətləri ilə yanaşı, ictimai nəqliyyatdan da pulsuz istifadə imkanı UNFCCC tələblərində nəzərdə tutulmasa da, tədbirə evsahibliyi edən Azərbaycanın üstün səylərini bir daha nümayiş etdirir və COP29 zamanı nümayəndə heyətlərinin Bakıda bir neçə nəqliyyat növündən ödənişsiz istifadə etmələrinə şərait yaradır. Marşrut avtobusu xidmətləri və ictimai nəqliyyatdan (metropoliten, qatarlar və müntəzəm avtobuslar) ödənişsiz istifadə etmək üçün nümayəndələr UNFCCC-nin akkreditasiya və ya təsdiq məktubunu təqdim etməlidirlər. Konfransın nəqliyyat xidmətlərindən istifadə ilə bağlı bütün məlumatlar COP29-un rəsmi veb-saytında yerləşdirilib.

# "Nazione" partiyası Korsikanın BMT-nin özünüidarə etməyən ərazilər siyahısına daxil olunmasını tələb edir

"Fransa Konstitusiyasının bizə rəva bilmədiyini beynəlxalq hüquqda və Birləşmiş Millətlər Təşkilatında axtarmaq niyyətindəyik".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Nazione" partiyası adından Petr'Anto Tomasi Ayaççoda keçirdiyi mətbuat konfransında səsləndirdiyi bəyanatında deyib.

P.Tomasi bəyanatı Korsika Assambleyası tərəfindən bu adanın özünüidarə etməyən ərazilər siyahısına (müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər) daxil olunmasını tələb edən vəsatətin araşdırılmasından bir gün əvvəl verib. Bu vəsatət cari ilin yanvarında Korsika Assambleyasının deputatı Jozefa Ciakometti-Piredda tərəfindən irəli sürülüb. O bildirib ki, institusional ardıcıllıq Korsika xalqının gələcəyi və torpaqlarında yaşamaq hüququ üçün həlledici elementdir. Bununla o, vətənpərvərlərin onilliklər boyu davam edən mübarizə ilə ödədikləri ağır nəticələri, hətta Aleria Edmond Simeoninin sözlərini xatırladaraq, özlərini millətin bir hissəsi olduqlarını iddia edən bütün seçilmiş rəsmiləri bu yanaşmaya sahib çıxmağa, Birləşmiş Millətlər Təşkilatı qarşısında tutduğu yolu davam etdirməsinə səs verməklə onu dəstəkləmələrini istəyib.

"Nazione" partiyasına görə, Korsikanın BMT-nin müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər siyahısına daxil olunmasını hazırda davam edən muxtariyyət prosesi ilə müqayisə etmək əbəsdir.



Jozefa Ciakometti-Pireddanın fikrincə, Korsikanın müstəmləkə olduğunu və beləliklə, dekolonizasiya edilməli olduğunu söyləmək suverenliyə və müstəqilliyə dair qərar vermək hüququ baxımından dövlətlə müzakirə üçün vacib amildir.

Korsika BMT-nin özünüidarə etməyən ərazilər siyahısına daxil olmaq üçün bütün hüquqi və siyasi tələblərə cavab verir. Aralıq dənizində yerləşən Malta da İkinci dünya müharibəsinin sonundan 1964-cü ilədək, yəni müstəqillik əldə edənə qədər bunu yaşayıb. Birləşmiş Millətlər Təşkilatı "bütün insanlar özünüidarə hüququna malikdir" prinsipini təsbit edib və bu hüquq çərçivəsində onlar öz siyasi statuslarını azad şəkildə müəyyənləşdirir, iqtisadi, sosial və mədəni sahələrdə inkişaflarını sərbəst həyata keçirirlər.

Beləliklə, Korsika ilə münasibətdə bu onun tətbiqini həyata keçirən beynəlxalq ictimaiyyətin əlavə üstünlüklə "öz müqəddəratını təyinetmə hüququ" deməkdir.

"Nazione" partiyası adanın "müstəmləkəsizləşdiriləcək ərazi" olmasına səs vermək üçün Korsika Assambleyasına çağırış edib.

# Bakıda "İqlim dəyişiklikləri və enerji hüququ" mövzusunda beynəlxalq konfrans işə başlayıb

Oktyabrın 24-də Bakı Konqres Mərkəzində dünyanın müxtəlif ölkələrindən gələn 50-dən çox beynəlxalq hüquqşünasın iştirakı ilə "ICE Baku 2024: İqlim dəyişiklikləri və enerji hüququ" mövzusunda beynəlxalq konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, üçgünlük konfrans Gənclər Fondunun maliyyə dəstəyi, COP29 Azərbaycan Əməliyyat Şirkəti, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi, Bakı Ali Neft Məktəbi və Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) tərəfdaşlığı ilə keçirilir.



Açılış mərasimində Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Vəkillər Kollegiyasının sədr müavini, Hüquqi Yardım Mərkəzinin direktoru Şahmar Məmmədov, ədliyyə nazirinin müşaviri Seyfəlpaşa Əliyev, COP29-un Gənc İqlim Çempionu Leyla Həsənova, "ELSA Azərbaycan"ın prezidenti Nazim Çələbiyev, Seminarlar və Konfranslar üzrə vitse-prezident Tünzalə Mustafazadə çıxış ediblər.

Tədbir zamanı COP29-a Azərbaycanın evsahibliyi etməsinin əhəmiyyəti, beynəlxalq miqyasda iqlim siyasətinin inkişafında ölkəmizin rolu xüsusi diqqət mərkəzində olub. İştirakçılar gənclərin və gənclər təşkilatlarının iqlim dəyişikliyinə qarşı mübarizədə fəal iştirakının vacibliyini vurğulayıblar. Gənclərin müasir problemlərə yanaşma tərzinin dəyişdiyi və bu mübarizədə onların səsinin artırılmasının zəruriliyi diqqətə çatdırılıb.

"ICE Baku 2024" iqlim dəyişiklikləri və enerji hüququ sahəsində beynəlxalq müzakirələri genişləndirmək və bu sahədəki qanunvericilik yeniliklərinə diqqət çəkmək məqsədi daşıyır.

# Özbəkistanlı jurnalistlər işğaldan azad olunmuş ərazilərimizdə səfərdədirlər

Azərbaycanın Özbəkistandakı səfirliyi, onun nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə oktyabrın 21-dən 25-dək özbəkistanlı jurnalistlərin ölkəmizə mediaturu təşkil olunub.

Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, mediatur iştirakçıları Bakı, Füzuli, Şuşa, Ağdam, Laçın və Zəngilan rayonlarında olub, həmin ərazilərdən materiallar, məqalələr və videoreportajlar hazırlayıblar.

Mediatur Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" və ICESCO təşkilatı tərəfindən Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar təşkil olunub.

Mediatura Özbəkistanın Dövlət Milli Teleradio Kompaniyasının "Özbəkistan tarixi", "Ikbol TV" telekanallarının təmsilçiləri, bu ölkənin kun.uz və anıq.uz internet saytlarının müxbirləri qatılıblar.

Tədbirin təşkilində əsas məqsəd Azərbaycanın qazandığı nailiyyətlər, mədəniyyət və turizm sahələri, Ermənistanın işğalçılıq siyasəti, işğaldan azad edilən bölgələrimizdə törətdiyi dağıdıcılıq və vandalizm aktları, şəhər-kəndlərimizin, milli mədəni irsimizin dağıdılması, bu ərazilərdə dövlətimiz tərəfindən aparılan tikinti-bərpa işləri, tarixi abidələr ilə tanış olmaq, minatəmizləmə əməliyyatı barədə Özbəkistan və Mərkəzi Asiya ictimaiyyətini məlumatlandırmaqdır. Mediatur zamanı jurnalistlər Minatəmizləmə Agentliyinin (ANAMA) Ağdam rayonundakı fəaliyyəti ilə tanış olub, Ağdam İmarət Kompleksini, Füzuli rayonunda Özbəkistan tərəfindən tikilmiş Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbi ziyarət ediblər.

Bundan başqa, səfər çərçivəsində media nümayəndələri Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi ilə tanış olublar. Həmçinin əsrarəngiz gözəlliyə, zəngin təbii sərvətlərə və böyük turizm potensialına malik Laçın rayonunda, habelə Şuşa şəhərində Cıdır düzündə, Molla Pənah Vaqif məqbərəsində və Şuşa qalasında çəkilişlər aparılıb.






# Azərbaycanın uğurlu "yaşıl enerji" siyasəti

## COP29 iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışların effektiv platforması olacaq

**Son 20 ildə Azərbaycanda həyata keçirilən praqmatik xarici siyasət təkcə Vətən müharibəsində möhtəşəm zəfər, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə nəticələnmədi, həm də ölkəmizin beynəlxalq nüfuzunun artmasına, regionda söz sahibi olan ölkə kimi mövqelərinin möhkəmləndirilməsinə mühüm zəmin yaratdı. Prezident İlham Əliyev istər xarici ölkələrdə keçirilən, istərsə də ölkəmizin evsahibliyi etdiyi nüfuzlu tədbirlərin tribunasından Azərbaycanın dövlətçilik maraqlarını qorumaqla yanaşı, XXI əsr insanını düşündürən bir sıra qlobal çağırışlar və təşəbbüslərlə çıxış edir.**

Azərbaycanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına iki dövr üzrə sədrlik etməsi, həmçinin Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalaması ölkəmizə göstərilən böyük etimad və uğurla qurulmuş əməkdaşlıq münasibətlərinin nəticəsidir. Bütün bu uğurların əsas müəllifi müasir geosiyasi proseslər kontekstində beynəlxalq güc mərkəzləri və tərəfdaşlarla dəqiq, balanslaşdırılmış, düşünülmüş, sağlam diplomatik münasibətlər qurmağı bacaran və əksər dünya liderləri tərəfindən hörmət və ehtiramla qarşılanan cənab Prezident İlham Əliyevdir. 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində əsası qoyulan "Tərəflər Konfransı" kimi nəhəng, 198 üzv dövləti özündə birləşdirən COP29-un ölkəmizdə keçirilməsi qərarı da məhz cənab Prezidentin müstəsna xidmətlərinin nəticəsidir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb.

Ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq tədbir hesab edilən COP29-a evsahibliyi etmək Azərbaycana beynəlxalq münasibətlər müstəvisində bir neçə istiqamətdə əlavə üstünlüklər qazandıra bilər. Belə ki, ümumilikdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, hər şeydən öncə, insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədi daşıyır. Azərbaycan hər zaman qlobal çağırışlara çevik reaksiya verən və özü də təşəbbüslərlə çıxış edən ölkələr sırasında mühüm yer tutub. Bu səbəbdən COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ölkəmizin dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçılarından biri kimi tanınması və "yaşıl gələcək"lə bağlı hədəflərinin məntiqi davamıdır. Bu həm də 278 illik ənənəvi (sənaye) üsulla neft (karbohidrogen) istehsalından yeni enerji istehsalına keçid deməkdir. 1846-cı ildən bu yana ölkəmizdə çıxarılan neftin ümumi miqdarı 1971-ci ildə 1 milyard ton, 2017-ci ildə 2 miliyard ton olub. Lakin ilin bütün fəsillərində göydə Günəşi və küləyi görən azərbaycanlılar bu tükənməz sərvətdən gərəyincə istifadə edə bilməyiblər.

Azərbaycanın alternativ və bərpaolunan enerji potensialı yüksəkdir. Son illər Azərbaycan "yaşıl enerji"nin inkişaf etdirilməsi istiqamətində bir-birinin ardınca önəmli addımlar atıb. Belə ki, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. 2021-ci ildə cənab Prezidentin müvafiq sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəd təsdiq edilib. Milli prioritetlərə uyğun olaraq növbəti onillik üçün hədəf kimi ölkənin sosial-iqtisadi inkişafının 5 əsas prioriteti təsdiq edilib. Həmin prioritetlərdən biri isə Azərbaycanın "təmiz ətraf mühitə və "yaşıl inkişaf"a malik ölkə" kimi müəyyənləşdirilməsidir. Bu istiqamətdə bir sıra zəruri tədbirlər həyata keçirilir: ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlərə başlanılıb. 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını baza ili (1990-cı il) ilə müqayisədə 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq qarşıya əsas məqsəd kimi qoyulub.

Bundan başqa, Azərbaycanın digər əraziləri kimi işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da "yaşıl enerji" ehtiyatının zənginliyi ilə diqqət cəlb edir. "Yaşıl enerji zonası" elan edilən bu ərazilərin genişmiqyaslı bərpası və yenidən qurulması prosesində ətraf mühitin mühafizəsi də diqqətdə saxlanılır. Bu ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqinə üstünlük verilir, ekosistemin bərpası ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirilir.

Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Prezidentin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə COP29-a evsahibliyi edəcək Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Ölkəmiz indi "yaşıl enerji" istehsalını artırmağı və "yaşıl enerji"ni dünya bazarlarına çıxarmağı hədəfləyib. 2023-cü il aprelin 25-də Bolqarıstana səfəri zamanı bir daha Qərblə enerji əməkdaşlığını diqqətə çəkən Prezident "yaşıl enerji" ixracının əsas istiqamətini də qeyd etmişdir: "Azərbaycanın "yaşıl enerji" ixracının əsas istiqaməti Avropadır. Alternativ enerji sahəsində aparıcı beynəlxalq şirkətlər 25 qiqavatdan çox alternativ enerji istehsalı üçün Azərbaycanla müqavilələr və anlaşma memorandumları imzalayıb".

Artıq bu istiqamətdə ciddi addımlar atılır, bir sıra ölkələrlə əməkdaşlıq əlaqələri yaradılıb, yeni günəş və küləkelektrik stansiyaları qurulur, hətta bəziləri istismara verilib. Məsələn, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin istifadəyə verdiyi "Qaradağ" Günəş-Elektrik Stansiyasını, Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin 2025-ci ilin birinci rübündə işə salmağı planlaşdırdığı 240 meqavatlıq "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasını, BP şirkətinin Cəbrayıl rayonunda tikintisinə başlayacağı 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasını, həmçinin "Nobel Energy" şirkətinin bu rayonda inşasını planlaşdırdığı günəş-elektrik stansiyasını, "Masdar" şirkəti tərəfindən Naxçıvanda 50 meqavatlıq, Biləsuvarda, Neftçalanın Bankə qəsəbəsində və Bakı ətrafında, Abşeronda 1000 meqavatlıq günəş-elektrik stansiyalarının tikintisini qeyd edə bilərik. Beləliklə, Azərbaycan 2030-cu ilə qədər elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı qarşıya məqsəd qoyub. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 26-da 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının rəsmi açılış mərasimində demişdir: "Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin - Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır".

Bu, Azərbaycanın enerji strategiyasında yeni eranın başlanğıcı deməkdir. Beləliklə, yeni dövrün yeni hədəflərindən və çağırışlarından biri də "yaşıl Azərbaycan"dır. Vaxtilə Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzaladısa, bu gün Prezident İlham Əliyev yeni yüz ilin "Yaşıl enerji müqavilələri"nı həyata keçirir. Bu istiqamətdə hər birimizin üzərinə böyük məsuliyyət düşür. İlk növbədə ekologiyanın qorunması üçün ən vacib məsələlərdən biri ekoloji şüurun, təbiəti sevən düşüncə ekosisteminin formalaşmasıdır. Bu işdə vətəndaş cəmiyyətinin rolunun artırılması zəruridir.

COP29-un ölkəmizdə keçirilməsinin mühüm üstünlüklərindən biri də postmüharibə dövründə ölkəmizə qarşı müxtəlif platformalarda aparılan və onun sülhpərvər imicinə zərər vuran siyasətin neytrallaşdırılması üçün şəraitin yaradılmasıdır. Belə ki, bu genişmiqyaslı tədbirin keçirildiyi günlərdə ölkəmizə səfərə gələn qonaqların işğaldan azad edilmiş ərazilərə ənənəvi səfərlərinin təşkil edilməsi ilə onlara həqiqətləri - ermənilərin "ekofaşist" siyasətinin nəticələrini öz gözləri ilə görmək imkanı yaradılır. 30 il ərzində erməni işğalı nəticəsində həmin ərazilər dağıntılara, işğala, ekoloji soyqırımına, işgəncələrə məruz qalıb, "boz zona"ya çevrilib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində həmin ərazilərin flora və faunası məhv edilib, Azərbaycanın mədəni irsi, abidələri, şəhər, qəsəbə, kəndləri dağıdılıb, kənd təsərrüfatı ciddi ziyan görüb. 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz "boz zona"nın "yaşıl zona"ya çevrilməsinə imkan yaradıb. İndi Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri həmin torpaqların həqiqi sahiblərinə qovuşmasının bariz sübutudur. Məhz həmin ərazilərə səfərlər zamanı qonaqlar kimin bu ərazilərin həqiqi sahibi olduğunu öz gözləri ilə görürlər. Bu həm də Azərbaycanın regiona sülh, əməkdaşlıq və inkişaf gətirmək niyyətinin bariz nümunəsidir. Dövlət başçımızın qeyd etdiyi kimi: "COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliləyə aparılması kontekstində əldə edilib və bu da, ümumiyyətlə, COP-un tarixində yeni bir inkişafdır. Azərbaycan regionda sabitlik və dayanıqlı inkişaf naminə sülh istəyir".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Bakı şəhərində keçirilməsi ilə iqlim dəyişikliyi mövzusunda qlobal həmrəyliyin gücləndirilməsinə doğru qətiyyətli addım atılacaq və Azərbaycanın yeni qlobal mühitə inteqrasiyasını sürətləndirəcək. Azərbaycan Prezidenti İlham Əliyevin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda Antiqua və Barbudada keçirilən 4-cü beynəlxalq konfransının iştirakçılarına müraciətində qeyd olunduğu kimi: "Bakıdakı COP üçün seçdiyimiz "Yaşıl dünya naminə həmrəy olaq" şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir. Hamımız birlikdə bu vəziyyətlə üzləşdiyimiz üçün bütün ölkələri planetimizi xilas etmək naminə həmrəylik nümayiş etdirməyə çağırıram. Bu məqsədə çatmaq üçün bizə siyasi iradə və Azərbaycanın daim müdafiə etdiyi çoxtərəflilik lazımdır".

*Araz XUDADANOV,*
*Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının sədri*

# "Yaşıl dalğa" nümunə göstərir

Yeniyetmələrin və gənc nəslin tərbiyəsini şərtləndirən amillərdən biri də ekoloji tərbiyədir. Bunun üçün məktəblilərdə öncə ekoloji dünyagörüşü formalaşdırılmalıdır. Bəs ekoloji dünyagörüşü nədir? Bu, təbiətə qayğı göstərmək, onun qorunması və çoxaldılması istiqamətində fəaliyyət göstərmək, təbii sərvətlərə sevgi ilə yanaşmaq, ekoloji şüura və əqidəyə malik olmaqdır.

Azərbaycan məktəblərində bu sadalananlar şagirdlərə hələ ibtidai siniflərdən öyrədilir. Uşaqlar təbiət gözəlliyini dərk etməklə yanaşı, ətraf mühiti, yəni torpağı, suyu, atmosferi, flora və faunanı mühafizə etmək istiqamətində formalaşırlar. Doğma torpaq, yurd, el-oba, vətən haqqında öyrənir, onları qorumağın hər bir azərbaycanlının borcu olduğunu dərk edirlər. Bu, çox vacibdir. Çünki bu, elə ətraf mühitin mühafizəsi deməkdir. Məhz bu zaman məktəblilər iqlim dəyişmələrinin fəsadları ilə də tanış olur, onu aradan qaldırmağın elmi və praktiki yollarına nəzər salırlar.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi məktəblilərin də ətraf mühitin qorunması, iqlim dəyişmələri ilə mübarizə üsullarının öyrənilməsi istiqamətində bilgilərinin artırılmasına təkan verəcək. Qeyd edək ki, qlobal sessiyanın Azərbaycanda keçirilməsi haqqında qərardan sonra məktəblilərin bu sahəyə marağı artıb. Şagirdlər artıq bir neçə aydır müntəzəm olaraq ekoloji proseslərdə iqlim dəyişmələrini əks etdirən tədbirlərdə iştirak edir, maariflənir, ekoloji tarazlığın pozulmasında çox böyük rol oynayan və iqlim dəyişmələrini özündə ehtiva edən "istixana effekti", "karbon emissiyaları", "parnik qazları" kimi terminlərin elmi cəhətdən öyrənilməsi istiqamətində əldə olunan nəticələrlə tanış olurlar.

Bu məsələdə şagirdlərlə daha çox işləyən tərəf olaraq müəllimlərin boynuna böyük məsuliyyət düşür. Məsələn, ədəbiyyat müəllimləri yazıçı və şairlərin "yaşıl"la bağlı fikirlərini şagirdlərlə bölüşürlər ki, bu da "Yaşıl dünya naminə həmrəylik ili"nin nə olduğunu anlamaqda onların əlindən tutmuş olur. Coğrafiya dərslərində şagirdlərə planetin ekosistemi öyrədilir, təkcə Azərbaycanın deyil, dünyanın ekosistemində ətraf mühitin qorunması istiqamətində həyata keçirilən tədbirlərin müsbət nəticələri əyani şəkildə göstərilir.

Ətraf mühit, ekosistem, iqlim dəyişmələri insanın yaşamında hər dəqiqə, hər an hiss olunur və bunlar orta məktəbdə tədris edilən bütün dərsliklərdə birbaşa, yaxud da dolayısı ilə əks olunub. COP29-un məqsədi və məramının nə olduğunu anlamaqda Azərbaycan məktəbliləri çətinlik çəkmirlər. Sağlam yaşamaq üçün dünyanın "yaşıllaşmağa" möhtac olduğunu dərk etdikləri üçün "şorbada onların da duzu olsun" deyə bu istiqamətdə tədbirlər hazırlayırlar.



Əslində, Bakı məktəbliləri ekoloji addımları indi atmırlar. Hələ 2018-ci il oktyabrın 6-da Dənizkənarı Milli Parkda Bakı Avropa Liseyinin təşəbbüsü və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Botanika İnstitutunun, Mərkəzi Nəbatat Bağının və Dənizkənarı Bulvar İdarəsinin dəstəyi ilə Dünya Yaşayış Məskənlərinin Müdafiəsi Gününə həsr olunmuş "Yaşıl dalğa" ekoloji hərəkatının ilk aksiyası baş tutmuşdur. Tədbirin məqsədi bəşəriyyətin diqqətini planetin flora və faunasının qorunması probleminə cəlb etmək olmuşdu. O zamandan hər il "yaşıl dalğa" dalğalanmaqda davam edir.

Bu günlər - COP29 ərəfəsində növbəti "Yaşıl dalğa" ekoloji hərəkatının VI aksiyası keçirildi. Aksiya həm ənənəvi mövzu - endemik bitkilərin qorunmasına xidmət edən, bəşəriyyətin gələcək inkişafının qayğısına qalmaq və qlobal ekosistemin tarazlaşdırılmasının bərpası estafetini qəbul edəcək gənc nəslin diqqətini ətraf aləmin bugünkü problemlərinə yönəltmək, həm də COP29 iqlim konfransına diqqət çəkmək idi. Bakı Avropa Liseyinin və onun nəzdində olan "Sərhədsiz Diplomatiya" Beynəlxalq Uşaq Diplomatiyası Mərkəzinin təşəbbüsü ilə paytaxtdakı "Dəniz Mall" ərazisində keçirilən aksiyanın istiqamətverici motivi belə idi: "Qarabağ dünya ekosisteminin zəngin diyarıdır". Tədbirdə məktəblilərə Qarabağın flora və faunası haqqında, Azərbaycanın və dünyanın təbiət xəzinəsi və ermənilərin törətdiyi ekoloji terror haqqında məlumat verildi. Aksiya zamanı şagirdlər bulvar mütəxəssislərinin köməyi ilə Dənizkənarı Bulvar İdarəsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu aksiyaya ayrılmış Azərbaycanın endemik bitkilərinin tinglərini əkdilər. Yeri gəlmişkən, qeyd edək ki, 2018-ci ildən başlanmış "Yaşıl dalğa" aksiyaları nəticəsində 100-dən çox ağac artıq böyümüşdür. İkinci xiyabanda keçən il əkilmiş 50 ağacın yanına budəfəki aksiyada 40 ağac da əlavə olundu. Bununla da Avropa Liseyinin şagirdləri COP29 tədbirinə öz töhfələrini verdilər. Və təbiətin qorunması, tarazlığın saxlanılması üçün öz qüvvələri daxilində iş görən yeniyetmə məktəblilər atdıqları addımla bəşəriyyəti fəlakətə sürükləyən iqlim dəyişmələrinin fəsadlarına laqeyd münasibət göstərən insanlara nümunə oldular.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# "İqlim fəaliyyəti fotoobyektivdə" adlı beynəlxalq fotomüsabiqənin qalibləri açıqlanıb

COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən iqlim dəyişmələri mövzusunda məlumatlılığın artırılması, eləcə də ətraf mühitin mühafizəsi sahəsində maarifləndirmə məsələlərinə töhfə vermək məqsədilə həyata keçirilən "İqlim fəaliyyəti fotoobyektivdə" adlı beynəlxalq fotomüsabiqənin qalibləri açıqlanıb.

AZƏRTAC xəbər verir ki, layihəyə ümumilikdə 20-yə yaxın müxtəlif ölkədən fotoqraflar öz orijinal işləri ilə qoşularaq, iqlim dəyişmələrinin həyatımızın müxtəlif sahələrinə təsirlərini fərqli yanaşmalarla təsvir etməyə çalışıblar.

Azərbaycanlı fotoqraflarla yanaşı, layihədə ABŞ, Almaniya, İspaniya, İtaliya, Polşa, Macarıstan, Rusiya, Hindistan, Argentina, Myanma, Nigeriya, Tacikistan, Nepal, İraq, Əfqanıstan kimi ölkələrdən olan istedadlı fotoqraflar iştirak ediblər.

Peşəkar münsiflər heyəti tərəfindən müsabiqənin qaydaları və meyarlarına əsasən bir sıra müxtəlif kriteriyalar üzrə aparılan qiymətləndirmə prosesi nəticəsində layihənin qalibləri müəyyən olunub. Beləliklə, myanmalı fotoqraf So Pyay Lynn "Çətin həyat" adlı fotosu ilə birinci, macarıstanlı fotoqraf Adam Fath "Quruyan gölün çiçəkləri" fotosu ilə ikinci, nigeriyalı fotoqraf Adebote Mayova isə "Makoko" əsəri ilə üçüncü yerə layiq görülüblər. Sözügedən fotoşəkillər iqlim dəyişmələrinin qlobal təsirlərini əks etdirməklə bu ortaq problemin həlli yolları üzərində düşünməyə, onu daha dərindən dərk etməyə dəvət edir.

Qeyd edək ki, müsabiqənin şərtlərinə əsasən, noyabr ayının 20-sində layihənin seçilmiş fotoşəkillərindən ibarət sərgi COP29 konfransı çərçivəsində "yaşıl zona"da yerləşəcək Azərbaycan pavilyonunda təşkil ediləcək. İqlim fəaliyyətinin dinamik mərkəzi olacaq COP29-un "yaşıl zona"sında bu ekspozisiyanın təşkili müsabiqə iştirakçıları və qaliblərinə öz əsərləri ilə ünvanlamaq istədikləri çağırışların qlobal auditoriyaya çatdırılması, eləcə də qarşılıqlı əlaqələrin qurulması və beynəlxalq səviyyədə tanıdılmasına xidmət edəcək.

Xatırladaq ki, avqust ayının 1-də COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən dünya fotoqraflarını iqlim dəyişmələri ilə bağlı vizual hekayələr vasitəsilə qlobal dialoqa qoşulmağa dəvət etmək, aktual iqlim problemlərinə ictimaiyyətin diqqətini yönəltmək və aktiv maarifləndirməni dəstəkləmək məqsədilə elan edilən "İqlim fəaliyyəti fotoobyektivdə" adlı beynəlxalq fotomüsabiqə elan edilmişdi.

# İkinci dəfə eyni palçıqda batmaq istəyi

Felyeton

Dünyada hamının nədənsə rəğbət bəsləmədiyi dilsiz-ağızsız bir heyvan var.

Onu bir neçə adla çağırırlar.

*Bu fağır uzunqulaq nə qədər işlək, yükgötürən və üzüyola olsa da, insanlar arasında hörmət qazana bilməyib ki, bilməyib.*

Bu heyvanın "ağıllı" bir tərsliyi də var:

**Nə illah eləsən də, bir dəfə palçığa batdığı yerə ikinci dəfə girmir.**

**Döyməyin, toqqaşdamağın, noxtasından tutub dartmağın da faydası olmur.**

Dörd ayağını yerə dirəyərək sonacan tərslik edir.

*Bu "hörmətsiz", amma "ağıllı" heyvanın düzgün hərəkətini anlamayanlar, doğru nəticə çıxarmayanlar, onun höcətliyindən öyrənməyənlər də mövcuddur.*

Belələri bir dəfə palçığa batdıqları yerə ikinci dəfə girənlərdir.

Yaxud girməyə hazırlaşanlardır.

**Bəli, söhbət məhz Ermənistandan gedir.**

❖❖❖

Ermənistan parlamentinin sədri Alen Simonyan bu yaxınlarda xarici səfərdə olarkən "Azadlıq" radiosunun erməni xidmətinə ("Azatutyun") müsahibəsində maraqlı fikirlər səsləndirib.

Onlardan biri də budur ki, "Azərbaycanın Qarabağdakı əməliyyatı legitim idi".

Bu fikrin arxasında böyük həqiqətlər, həm də hayların yol verdikləri böyük səhvlər, böyük ağılsızlıqlar dayanır.

Hələ də davam edən və belə gedərsə, davam edəcək ağılsızlıqlar...

**Ermənistandakılar "Böyük Ermənistan" xülyasına uyaraq Azərbaycana məxsus Qarabağ torpaqlarına göz dikdilər.**

O torpaqlara ki orada onsuz da geninəboluna rahat yaşayırdılar.

*Kimsə də onlara dəyib-dolaşmırdı.*

**Sonradan kimlərinsə feilinə düşərək qudurdular, cızıqlarından çıxdılar.**

**Əvvəlcə başladılar ki, Qarabağ iqtisadi cəhətdən Azərbaycanın digər bölgələrindən geri qalır.**

*Qorbaçov başlarını sığallayaraq Sov.İKP MK və SSRİ Nazirlər Soveti adından onlara bir "kömək qərarı" verdi.*

**Sonra dedilər ki, biz Azərbaycandan ayrılmaq istəyirik.**

*Bu dəfə Moskvadakılar "xüsusi idarəetmə komitəsi" yaradaraq keçmiş DQMV-ni ona tabe etdilər.*

Əslində isə, separatizm yolu tutan bu qurumu Azərbaycanın tərkibindən çıxardılar.

**Daha sonra lap quduraraq Qarabağı Ermənistana birləşdirəcəklərini bəyan etdilər.**

*Hətta qondarma parlamentlərində belə bir sarsaq qərar da çıxardılar.*

Azərbaycan bütün bunlara etiraz edəndə isə qeyzə gələrək silahlandılar və "müstəqil respublika yaratmaq" uğrunda müharibəyə başladılar:

- Dinc azərbaycanlıları zorakılıqla doğma el-obalarından qovdular;
- Mülki azərbaycanlıları girov götürərək başlarına müsibətlər gətirdilər, öldürərək gizli yerlərdə kütləvi şəkildə basdırdılar;
- Xocalı, Qaradağlı, Başlıbel və digər soyqırımlarını törətdilər;
- Evlərimizi, kənd və şəhərlərimizi, mədəni və dini abidələrimizi, qəbiristanlıqlarımızı dağıtdılar, məscidlərimizdə mal-qara, donuz saxladılar;
- Meyvə bağlarını, meşələri qırdılar, təbii sərvətlərimizi oğurlayaraq daşıdılar, çaylarımızı, göllərimizi zəhərlədilər;
- Keçmiş DQMV ilə bərabər, daha yeddi rayonumuzu tutaraq "bunlar da bizimdir" dedilər.

*Alen Simonyanın dilə gətirmədiyi digər həqiqətlər də var:*

- Ermənistan otuz il sülhə gəlmədi, ATƏT-in Minsk qrupunun riyakarlığından istifadə edərək danışıqlar imitasiyası yaratdı;
- Azərbaycandan öz razılığı ilə yeni ərazilər qoparmaqdan ötrü bütün vasitələrə əl atdı;



- Daim bizə hədə-qorxu gəldilər, yeni müharibə başlayacağı halda yeni ərazilərə sahiblənəcəkləri ilə hədələdilər;
- Özlərinə yox, arxalarında duranlara, müdafiə edənlərə güvəndiklərindən ipə-sapa yatmadılar.

**Bu ağılla da yeni müharibəyə başladılar.**

Amma gözlədikləri və istədikləri kimi olmadı.

*Heç kim əvvəlkitək köməklərinə gələrək onların yerinə döyüşmədi.*

**44 gün ərzində yerlə yeksan edilərək zəlil günə qoyuldular!**

*Bu dəfə özləri başladıqları müharibənin dayandırılması üçün ona-buna yalvarmağa, üstümüzə çoxsaylı minnətçilər və xahişçilər göndərməyə başladılar.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev alicənablıq göstərərək onlara "qələt eləmişəm" dedirtdikdən sonra müharibəni dayandırdı.**

Bütün şərt və tələblərimiz yazılan üçtərəfli Bəyanatı imzalatdırdı.

*Müharibədən sonra tam ağıllanmayanları ağıla gətirmək üçün daha iki dəfə möhtəşəm əməliyyat keçirərək, xoşluqla etmək istəmədiklərini də "dəmir yumruğ"un gücü sayəsində etdirdik!*

❖❖❖

**"Dəmir yumruğ"un ermənilərə çox böyük faydası da dəydi, onları bir qədər ağıllandırdı.**

*Əvvəla,* başa düşdülər ki, Azərbaycan onlardan qat-qat güclüdür;

*İkincisi,* anladılar ki, daha Ermənistan pasportu ilə Azərbaycan ərazisində yaşamaq, separatçılıq etmək mümkün olmayacaq;

*Ən əsası* da bu oldu: baş nazir Paşinyan "mifik" Ermənistanla "real" Ermənistan" arasındakı fərqi "gördü" və bunları öz təbəələrinə də izah etdi.

*Amma deyəsən tamam ağıllanmayıblar.*

- Yenə də kimlərəsə arxalanırlar, təkrarən özgə ağzı ilə hürmək istəyirlər;
- Yenə sülh danışıqlarını uzadır, üçtərəfli Bəyanatın bütün bəndlərinə əməl etmirlər;
- Yenə də silahlanırlar, hərbi təlimlər keçərək yenidən müharibəyə hazırlaşırlar;
- Yenə də qisasçılıq hissi ilə yaşayır, kimlərinsə fitvasına gedirlər.

**Bir dəfə palçığa batdıqları yerə təkrarən girmək istəyirlər.**

*Yalnız haylar kimi axmaqlar inanarlar ki:*

- Yenidən müharibə edib Azərbaycana qalib gəlmək olar...
- Azərbaycan nədənsə çəkinərək indi Bakıda "çay içən" 23 separatçını, terrorçunu, cinayətkarı onlara qaytaracaq...
- Dövlətimizin başçısının irəli sürdüyü şərtlər yerinə yetirilməyənədək yarımçıq sülh müqaviləsi imzalanacaq...
- Yaxud ABŞ-dən, Fransadan, Avropa İttifaqından qorxaraq onlara güzəştə gedəcək və beləliklə, "Qarabağ problemi"nin yenidən dirçəldilməsinə imkan yaradacağıq!..

**Amma bu yazıqlar hələ də anlamayıblar ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə bugünkü və sabahkı addımlarını deyil, on il, yüz il bundan sonra da edəcəklərini indidən dəqiq müəyyənləşdirib.**

❖❖❖

Möcüzə bir dəfə olur!

Onu da Baş Sərkərdəmiz göstərərək 44 gündə otuzillik işğala, ikiəsrlik münaqişəyə birdəfəlik son qoydu!

Cənablar, özünüzdən ağıllıdan öyrənsəniz yaxşıdır, yoxsa bir dəfə palçığa batdığınız yerə yenə də girsəniz, nə əhaliniz qalacaq, nə də dövlətiniz olacaq!

**Bəxtiyar SADIQOV**

# Ermənipərəst Qərb məyusdur

## Çünki Azərbaycan onun bütün məkr və avantüralarını iflasa uğradır

Qərəzli Qərb təsisatlarının təkcə oktyabr ayı ərzində təşkilatlanmış şəkildə ölkəmizə qarşı həyata keçirdiyi ardıcıl siyasi hücumların fonunda da aydın görmək olur ki, anti-Azərbaycançı şəbəkə xeyli aktivləşib.



Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu beynəlxalq tədbirin keçiriləcəyi ərəfəni Azərbaycana təzyiq göstərmək üçün fürsət kimi dəyərləndirən Qərbin ermənipərəst ölkə və təşkilatları tərəfindən respublikamızı hədəf alan kampaniyalar başladılıb.

### Çirkin planlar pozuldu

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın qazandığı Qarabağ zəfəri sözün əsl mənasında regionu müharibə meydanına çevirmək niyyəti güdən Qərbin əl-qolunu bağladı. Onilliklər boyu Ermənistanın işğal faktına qarşı susan, Qarabağda separatizmin kök atmasına birbaşa şərait yaradan və bu qanunsuzluqlardan yararlanan məkrli Qərbə Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar qətiyyən sərf etmir. Buna görə də sülh pərdəsi altında müharibə planları cızır. Ermənistanı silahlandırır, iki ölkə arasında normallaşmaya nail olunmaması üçün bütün mümkün çirkin variantlara əl atır. Amma məhz Bakının sülh təşəbbüsləri sayəsində bu vaxta qədər Ermənistan ilə Azərbaycan arasında ikitərəfli danışıqlar aparılıb, sərhədlərin delimitasiya və demarkasiya prosesinə start verilib.

Daim regionda barışı təşviq edən Azərbaycan hərtərəfli cəhətdən sürətlə inkişaf edir. Dünyanın nəqliyyat, enerji qovşağına çevrilən respublikamızın siyasi, iqtisadi, hərbi qüdrəti gündən-günə artır, beynəlxalq nüfuzu yüksəlir. Qlobalmiqyaslı problemlərin yoluna qoyulmasında yaxından iştirak edən və dünya ictimaiyyətini narahat edən məsələlərin həlli ilə bağlı daim mühüm çağırışlar irəli sürən Azərbaycanın yekdil qərarla COP29-a ev sahibi seçilməsi də təsadüfi deyil.

### Qərəz silsiləsi

O da təsadüfi deyil ki, sözügedən beynəlxalq tədbirin keçiriləcəyinə çox az zamanın qaldığı vaxtda Azərbaycanın düşmənləri də xeyli fəallaşıblar.

Erməni lobbisinin əsirinə çevrilən ABŞ, Fransa, Niderland... Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti kimi ikilistandartlı ölkə və təşkilatlar Azərbaycana qarşı qərəz kampaniyasını intensivləşdiriblər.

Yuxarıda vurğuladığımız kimi, təkcə oktyabr ayında demək olar ki, məkrli Qərb təsisatlarının Azərbaycan əleyhinə günaşırı qəbul etdikləri əsassız və qərəzli qətnamələrlə, verdikləri absurd bəyanatlarla, heç bir həqiqəti əks etdirməyən fikirlərlə qarşılaşırıq.

Cari ayda Litvanın xarici işlər naziri Qabrielius Landsberqis Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycana qarşı əsassız və qərəzli fikirlər səsləndirdi, Niderland parlamentinin nümayəndələr palatası Azərbaycan əleyhinə iki qətnamə qəbul etdi, Niderlandın xarici işlər naziri Kaspar Veldkamp çıxışı zamanı bu qərəzli qətnamələrə dəstək ifadə etdi, Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baron "France Inter" kanalına müsahibəsi zamanı "Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququ pozduğu"nu bildirdi.

### Avropa siyasətçilərinin real siması

Azərbaycana qarşı sonuncu belə qərəzli bəyanatı Avropa Parlamentində müzakirələr zamanı İş yerləri və sosial hüquqlar üzrə Avropa komissarı Nikolas Şmit səsləndirib. Ancaq onun Avropa Xarici Fəaliyyət Xidməti tərəfindən hazırlanan bu bəyanatı reallıqdan tamamilə uzaqdır.

Azərbaycan Xarici İşlər Nazirliyindən də bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını iqlim dəyişikliyinin cavablandırılması işinin mahiyyətinə uyğun olmayan siyasi motivli məsələlərlə əlaqələndirmək cəhdləri bəzi Avropa siyasətçilərinin real simasını bir daha nümayiş etdirir: "Biz Avropa Parlamentini və ümumilikdə Aİ tərəfini regionda sülh və sabitliyə zidd olan birtərəfli mövqedən əl çəkməyə şiddətlə çağırırıq".

Bütün bunların Azərbaycanın qlobal miqyaslı tədbirə evsahibliyi edəcəyi və dünyanın gözünün respublikamıza yönəldiyi bir zamanda həyata keçirilməsi isə, şübhəsiz, ölkəmizin imicini zədələmək məqsədi güdür. Amma ağ qara ləkə götürmədiyi kimi, çirkin iftiralar da Azərbaycana yapışmır. Milli maraqlarını qətiyyətlə təmin edən qalib ölkəmiz tutduğu haqlı yolla daim uğur zirvəsinə doğru addımlayaraq düşmənlərini məyus edəcək.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# 56 faiz "hə" deyir

## Ermənistanda xalq xilas formulunu sülh müqaviləsinin imzalanmasında görür

**İkinci Qarabağ müharibəsinin qalib və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində delimitasiya və demarkasiya proseslərinə start verilməsi görülən işlərin başlanğıcı hesab edilə bilər.**

Ermənistan tərəfi gec də olsa, anlayır ki, ölkənin xilas formulu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsini imzalamaqdadır.

Məğlub ölkədə artıq bunu etiraf etməyə başlayıblar. Belə ki, ABŞ-nin Beynəlxalq Respublika İnstitutu (International Republican Institute) tərəfindən Ermənistanda keçirilmiş sorğuya əsasən, iştirakçıların 56 faizi Azərbaycanla sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Respondentlərin 31 faizi bu ideyanı tam dəstəkləyir, 25 faizi isə qismən dəstək verir. İştirakçıların 38 faizi Azərbaycanla sülhün arzuolunan, lakin əlçatmaz bir məqsəd olduğunu düşünür, 33 faizi isə bunu nə arzuolunan, nə də əlçatmaz hesab edir. Qeyd edilir ki, əlaqələrin normallaşdırılmasını dəstəkləyən Ermənistan vətəndaşlarının böyük bir hissəsi (40 faiz) ölkənin konstitusiyasının dəyişdirilməsinə qarşı çıxıblar və bəyan ediblər ki, "Konstitusiyanın dəyişdirilməsi Ermənistanın daxili məsələsidir".

IRI tərəfindən keçirilən sorğunun nəticələrinə görə, respondentlərin 76 faizi Ermənistan-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini çox pis qiymətləndirir.

Bu arada "Hraparak" nəşri yazıb ki, Ermənistanda yenidən növbədənkənar seçkilərlə bağlı söhbətlər gündəmdədir. Qeyd edilib ki, Nikol Paşinyanın son həftələrdəki hərəkətləri, vilayətlərə səfərləri, onun və həyat yoldaşının ictimai fəallığı siyasi sahədə digər oyunçularda Paşinyanın növbədənkənar parlament seçkilərinə hazırlaşdığına dair ciddi şübhələr yaradıb. Bu şübhələr daha çox Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə bağlı Azərbaycanın son həftələrdə durmadan səslənən tələbləri ilə əsaslandırılır. Bu yaxınlarda İrəvan və Bakı bir tərəfdən sülh müqaviləsinin mətninin 80 faizini artıq razılaşdırdıqlarını bəyan edir, digər tərəfdən konkret olaraq hansı müddəalar ətrafında razılaşmaların əldə edilmədiyini açıqlamırlar.

Qeyd edək ki, Ermənistan parlamenti Ədliyyə Nazirliyinin Seçki Məcəlləsinə təklif etdiyi və fövqəladə və ya hərbi vəziyyət elan olunduğu halda yeni seçkilərin keçirilməsinə imkan verəcək dəyişiklikləri birinci oxunuşda təsdiq edib. 65 deputat dəyişikliklərin "lehinə", 28 deputat isə "əleyhinə" səs verib. Düzəlişlərə əsasən, səslərin hesablanması və nəticələrin protokolda qeyd olunması başa çatana qədər fövqəladə və ya hərbi vəziyyət elan edilərsə, seçki prosesi dayandırılacaq və onun bərpası üçün yeni səsvermə təşkil edilməlidir.

Ümumiyyətlə, real mənzərə göstərir ki, müharibədəki məğlubiyyətdən sonra sülh müqaviləsinin imzalanmasının yubadılması Ermənistanda yaşanan tənəzzülün daha da sürətlənməsi ilə xarakterizə olunub və qarşıdakı dövrün də bundan nəyə görəsə fərqlənməsi gözlənilmir. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşayır. Azərbaycan dövlətinin müharibə və postmüharibə dönəmində Ermənistana verdiyi tarixi dərs bu ölkəni dərin fəlakətə sürükləyib.

*Elçin CƏFƏROV, "Azərbaycan"*



# Uğurlu sosial siyasətin mühüm töhfəsi

## AHİK-in "Buzovna" Fizioterapiya Mərkəzi fəaliyyətə başlayıb











**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən "Buzovna" Fizioterapiya Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar tədbir keçirilib.**




Tədbirdə hökumət nümayəndələri, Milli Məclisin deputatları, AHİK-in və üzv təşkilatların rəhbərləri iştirak ediblər.

Öncə fizioterapiya mərkəzinə baxış olub. Məlumat verilib ki, mərkəzdə 90 nəfərlik 2 dördmərtəbəli yataq korpusu var. Bütün otaqlar zəruri məişət avadanlıqları ilə təchiz edilib. Eləcə də burada insanların rahat dincəlməsi üçün istirahət guşələri yaradılıb. Mərkəzin ərazisindəki ikimərtəbəli müalicə korpusunun birinci mərtəbəsində yeməkxana zalı, ikinci mərtəbəsində müalicə və müayinə kabinetləri, masaj otaqları yerləşir. Qapalı hovuz da müalicə olunanların istifadəsindədir. Mərkəzin ərazisində geniş yaşıllaşdırma işləri aparılıb, gül-çiçək, dekorativ kol və ağaclar əkilib. İştirakçılar yaşayış otaqlarına, müalicə və müayinə kabinetlərinə baxıblar, müalicə üçün yaradılmış şəraitlə tanış olublar.

Fizioterapiya mərkəzi ilə tanışlıqdan sonra tədbir keçirilib. Tədbirdə çıxış edən AHİK sədri Sahib Məmmədov dövlət başçısı cənab İlham Əliyevin genişmiqyaslı və məqsədyönlü fəaliyyətindən, son illərdə bütün sahələr üzrə ölkəmizin qazandığı nailiyyətlərdən söz açıb, vətəndaşlarımızın rifahının yüksəldilməsi, sağlamlıqlarının qorunması, həmçinin ölkəmizdə səhiyyə sahəsində görülən işlərdən danışıb.

Bildirib ki, cənab Prezident İlham Əliyevin fəaliyyətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və xalqımız şanlı tarixinin ən parlaq dövrünü yaşayır: "Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyəti də hər zaman möhtərəm Prezidentimizin diqqətindədir. Bizə davamlı olaraq dəstək göstərilir. Bu da səylə çalışmağımıza, uğurlu nəticələr əldə etməyimizə, ümumilikdə həmkarlar ittifaqlarının inkişafına rəvac verir. Eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun humanist fəaliyyətini, reallaşdırdığı xeyirxah sosial layihələri xüsusilə qeyd etmək istərdim. Bu nəcib missiyalar bütün ictimai təşkilatlar, o cümlədən həmkarlar ittifaqları üçün də böyük örnəkdir".

AHİK sədri işçilərin istirahəti və müalicəsinin təşkilinin, məzuniyyət dövrünün daha səmərəli keçirilməsi üçün şəraitin yaradılmasının həmkarlar ittifaqlarının daim diqqət mərkəzində olduğunu bildirib. Onun sözlərinə görə, hazırda konfederasiya tərəfindən ittifaq üzvlərinin rahat istirahəti üçün müasir və effektiv beynəlxalq təcrübənin tətbiqi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir.

Sahib Məmmədov deyib ki, ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğu bir vaxtda həmkarlar ittifaqları da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün hədəflərini müəyyənləşdirir, yeni layihələr üzərində işləyir.

Gənclər və gender məsələləri ilə bağlı yeni layihələrdən danışan Sahib Məmmədov "AHİK Könüllüləri" proqramına artıq start verildiyini, "Layiqli Əmək Səfirləri" layihəsinin isə yaxın vaxtlarda təqdim olunacağını diqqətə çatdırıb.

İşin keyfiyyətinin artırılması istiqamətində həmkarlar ittifaqları sistemində struktur dəyişikliklərinin aparıldığını qeyd edən AHİK sədri vurğulayıb ki, əlçatanlıq, heç kimin kənarda qalmaması, inklüzivlik, bərabər imkanlar, fəaliyyətin qiymətləndirilməsi yeni mərhələdə bizim əsas prinsiplərimizdir: "Bir sözlə, möhtərəm Prezidentimiz İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, biz dövlət orqanları və işəgötürənlərlə birgə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması və cəmiyyətin ahəngdar inkişafı naminə səylərimizi bundan sonra da davam etdirəcəyik".

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov çıxışında dövlətimiz tərəfindən rayon ərazisində həyata keçirilən layihələrdən, aparılan abadlıq-quruculuq işlərindən bəhs edib. Fizioterapiya mərkəzinin ən müasir standartlara cavab verdiyini qeyd edən Elşən Salahov burada müalicə alacaq vətəndaşlarımızın şəraitdən məmnun qalacaqlarına əminliyini ifadə edib.

Səhiyyə nazirinin müavini Rasim İsmayılov isə bildirib ki, cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkə səhiyyəsi davamlı olaraq inkişaf edir, tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilir, yeni tibbi texnologiyalar tətbiq olunur. O həmçinin həmkarlar ittifaqlarının fəaliyyətinə toxunub, təşkilatın əmək hüquqlarının qorunması istiqamətində gördüyü işlərdən bəhs edib və fizioterapiya mərkəzinin fəaliyyətə başlamasını Azərbaycan səhiyyəsinin inkişafına mühüm töhfə kimi qiymətləndirib.

Fizioterapiya mərkəzinin fəaliyyətinə uğurlar arzulayan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev burada yaradılmış şəraitin və həkimlərin peşəkarlığının effektiv müalicəyə təminat verdiyini bildirib. Komitə sədri yeni inkişaf mərhələsində də həmkarlar ittifaqlarının səmərəli iş aparacağını, üzvlərinin hüquqlarını etibarlı şəkildə müdafiə edəcəyini və əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atacağını diqqətə çatdırıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov isə sağlamlığa xidmət edən bu cür mərkəzlərin yaradılmasının vətəndaşlarımıza olan qayğının, ölkəmizin inkişafının təcəssümü olduğunu bildirib. Qeyd edib ki, həmkarlar ittifaqları digər funksiyaları kimi, üzvlərinin istirahətinin təşkilinə və sağlamlığının qorunmasına da həssaslıqla yanaşır.

Xəzər rayonundan Milli Məclisə deputat seçilən Soltan Məmmədov rayon ərazisində görülən işlərdən, sakinlərin məşğulluğunun təmin olunması istiqamətində atılan addımlardan və Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrdən bəhs edib, fizioterapiya mərkəzinin fəaliyyətə başlamasını isə böyük uğur olaraq dəyərləndirib.

Tibb elmləri doktoru, professor Nailə Məmmədova da fizioterapiya mərkəzinin insanların sağlamlığına xidmət etməklə ölkəmizin tibb sahəsinin inkişafına dəstək olacağını vurğulayıb. O bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə səhiyyə sistemində bir sıra mühüm layihələrin uğurla həyata keçirilməsi ölkədə əhalinin sağlamlığının qorunmasına diqqət və qayğının parlaq təzahürüdür.

Sonda AHİK sədri Sahib Məmmədov fizioterapiya mərkəzinin rəhbərliyinə və həkimlərinə tövsiyələrini verib və fəaliyyətlərində uğurlar arzulayıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin növbəti təlim toplanışı davam edir

Bu ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb olunduğu növbəti təlim toplanışı davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ehtiyatdan çağırılan hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunurlar.



Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılır, onlara təhlükəsizlik qaydaları çatdırılır, eləcə də sıra hazırlığı üzrə məşğələlər keçirilir.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, təlim sahəsində praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra olunacaq.

## 25 oktyabr 2020-ci il — ZƏFƏR gündəliyi

# İlham ƏLİYEV: "Qubadlı şəhəri işğalçılardan azad edilib!"

*Oktyabrın 25-də cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndiriblər.*

*Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə atəşlə ciddi zərbə vurub onun müqavimətini zəiflədərək müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.*

### Ordumuz yüksəkdəqiqlikli silah növünü tətbiq edib

Azərbaycan Ordusu düşmənə qarşı yüksəkdəqiqlikli silah növünü tətbiq edib.

Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə ordumuzun bölmələri üstünlüyünü qoruyub.

Aparılan uğurlu döyüş əməliyyatları zamanı düşmənin 2 artilleriya qurğusu, 2 BM-21 "Qrad", 1 komanda qərargah maşını, 1 komanda idarəetmə məntəqəsi, 2 yük maşını, 1 tank və bir neçə atəş nöqtəsi məhv edilib.

### Qubadlıda düşmənin 50 nəfərədək canlı qüvvəsi məhv edilib

Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən



qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilib.

Ələ keçirilən hərbi qənimətlərin görüntüləri təqdim edilib.

### İlham ƏLİYEV: "Azərbaycan bu haqq savaşında istəyinə nail olmadan dayanmayacaq"

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox-News" televiziya kanalına müsahibə verərək bir daha Azərbaycanın savaşı dayandırmağa hazır olduğunu bildirib: "Biz bu gün atəşkəsi razılaşdırmağa hazırıq. Lakin eyni zamanda Ermənistan, onun baş naziri deməlidir ki, onlar Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış əsas prinsiplərə sadiqdir. İki gün bundan əvvəl Ermənistanın baş naziri dedi ki, Dağlıq Qarabağ münaqişəsinin diplomatik həlli yoxdur. Biz atəşkəs istəyirik, biz torpaqlarımızın qaytarılmağını istəyirik. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi sülh planına uyğun olaraq torpaqları boşaldacağına dair öhdəlik götürməlidir. Lakin o, bunu demir".

Prezident bir daha həqiqətləri açıqlayıb, bəzi iftiralara aydınlıq gətirib və qətiyyətlə vurğulayıb ki, Azərbaycan bu haqq savaşında istəyinə nail olmadan dayanmayacaq.

Həmin gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib.

Bir aya yaxın davam edən müharibədə Azərbaycan Ordusunun döyüş meydanında böyük uğurlar əldə etdiyini söyləyən Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən yaxşı xəbərlər gəldiyini deyib. Eyni zamanda diqqətə çatdırıb ki, vəziyyət tam nəzarət altındadır.



İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilib, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan təmizlənib. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı dalğalanır: "Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib, artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını dəstəkləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir".

Ali Baş Komandan bir daha Azərbaycan xalqını əmin edib ki, bundan sonra da haqq yolundan dönməyəcək, düşmən sona qədər qovulacaq, ərazi bütövlüyümüz bərpa ediləcək.

### Düşmənin 6 D-30, 1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası məhv edilib

Günün ikinci yarısında cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənə dəqiq zərbələr endiriblər.



Zərbələr nəticəsində düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilib.

### Prezident xalqa daha bir xoş xəbər verib

Axşam saatlarında Prezident xalqa daha bir xoş xəbər verib. Dövlət başçısı "X" səhifəsində paylaşım edərək yazıb: "Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!"

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



Azadlığın təntənə günü



**Bu gün Qubadlının azadlığından dörd il ötür. Artıq dörd ildir ki, işğaldan azad olunmuş Qubadlı da dirçəliş yolundadır. Prezidentin ötən il imzaladığı sərəncama əsasən, bu gün Qubadlı Şəhəri Günüdür. Böyük qayıdış çərçivəsində mərhələli şəkildə yurdlarına qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra şəhər gününü öz ata-baba yerlərində, təmtəraqla, qürurla qeyd edəcəklər.**

# Zəfərin Qubadlı səhifəsi

## Dörd il öncə rayonun azadlığı ilə Laçın dəhlizi və Gorus-Qafan yolu Azərbaycan Ordusunun nəzarətinə keçdi

Vətən müharibəsində Zəngilanın işğaldan azad olunması ilə Qubadlıya gedən yollar da açılırdı. Rəşadətli ordumuz Qubadlı istiqamətində döyüşlərə də xüsusi hazırlaşır, tapşırıqları uğurla icra edirdi. İlk növbədə şəhərə hakim olan yüksəkliklər nəzarətə götürülərək ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq, Padar, Sarıyataq və strateji yüksəkliklər azad edildi.

Oktyabrın 25-də isə 44 günlük müharibənin gedişatında əhəmiyyətli dönüş nöqtəsi oldu. Qubadlının işğalçılardan xilas edilməsi üçün döyüş əməliyyatları bir neçə gün davam etdi. Bu şəhərdə də güclü düşmən istehkamları, müdafiə sədləri var idi.

Qubadlının Zilanlı, Kürd Mahruzlu, Muğanlı, Alaqurşaq kəndləri oktyabrın 23-də düşməndən təmizlənmişdi. Oktyabrın 25-də isə rayonun 8 kəndi ilə bərabər, Qubadlı şəhəri də işğaldan azad edildi. Qubadlı şəhərinin azad edilməsi qələbəmizi daha da yaxınlaşdırdı. Bu müjdəli xəbəri də Prezident İlham Əliyev xalqa çatdırdı. Noyabrın 9-dək Qubadlı şəhəri və rayonun 41 kəndi düşmən tapdağından xilas edildi.

*Tarixə nəzər: Qubadlı və onun ətrafında yerləşən kəndlər hələ XVIII əsrdə Qarabağ inzibati ərazisinə daxil idi. 1868-ci ildə Yelizavetpol quberniyası yaranandan sonra bu rayon Zəngəzurun tərkibinə daxil edilib. Rayonun əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olub. Qubadlı rayonu 1933-cü ildə yaradılıb. Həmin vaxt rayonda 1 şəhər və 93 kənd olub. Bərgüşad çayının hər iki sahilində yerləşən Qubadlı şəhərinin əhalisi 5604 nəfər olub.1988-ci ildən başlayaraq Ermənistan və Dağlıq Qarabağla sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlayıb, dinc əhaliyə qarşı terror aktları törədilib. 31 avqust 1993-cü ildə isə Ermənistan silahlı birləşmələri tərəfindən rayon işğal olunub.*

### Böyük qayıdışa hazırlıq

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qubadlıya ilk səfəri 2020-ci il dekabrın 23-də oldu. Dövlət başçısı rayonda Azərbaycan bayrağını qaldıraraq Qubadlının işğaldan azad edilməsinin tarixi hadisə olduğunu vurğuladı.

Qubadlı rayonunun və şəhərinin azad edilməsinin böyük strateji üstünlük təmin etdiyini deyən Prezident Qubadlıdan sonra növbəti istiqamətin Laçın rayonu olduğunu xatırlatdı: "...Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir".

Qubadlının işğaldan azad olunmasının birinci ildönümündə Qubadlıya səfər edən dövlət başçısı Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak etdi. İşğaldan azad edilmiş digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerji sistemi şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Səfər çərçivəsində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən İlham Əliyev qeyd etdi ki, Qubadlı şəhəri demək olar ki, yerlə yeksan edilib, bir salamat bina yoxdur, sadəcə olaraq, erməni hərbçiləri öz məqsədləri üçün bir neçə binadan istifadə etmişlər, onlar da bərbad vəziyyətdədir: "...biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma eyni zamanda artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır".

Prezidentin 2021-ci il oktyabrın 25-də imzaladığı "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" sərəncamına əsasən, bu gün Qubadlıda da quruculuq işləri geniş vüsət alıb.

### Qubadlı şəhəri yenidən qurulur

Qubadlı şəhəri beynəlxalq hava limanlarının yerləşdiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) arasında xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Dövlət başçısı ötən ilin may ayında da Qubadlıda olub. Ölkə rəhbəri Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməlini qoyub.

Ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması nəzərdə tutulur.

Əsası qoyulan Xanlıq kəndi Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi kəndin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur. Birinci mərhələdə kənddə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin məskunlaşdırılması planlaşdırılıb. Mahruzlu kəndində isə 2700-dən çox sakinin yaşaması nəzərdə tutulub. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır.

Zilanlıda isə birinci mərhələdə 159 evin tikintisi və 772 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Gələcəkdə bu kənddə 2520 nəfər yaşayacaq. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Seləli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib.

Qubadlıda yaradılacaq İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək.

Qubadlı İşğal Muzeyinin interyeri binanın spiralvari forması ilə səciyyələnir. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaq. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Zəfərə, o cümlədən "Dəmir yumruq" əməliyyatına həsr olunacaq. Görülən bərpa, quruculuq işləri nəticəsində bu ilin sonunadək Qubadlının iki kəndinə keçmiş məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulur. Beləliklə, illərlə həsrətində olduqları Qubadlıya da əzəli sakinlərinin qayıdışı baş tutacaq. Onlar doğma yurdlarına köçərək bu diyarı da cənnətə çevirəcəklər, Qubadlıya da həyat qayıdacaq.

### Qubadlı igidləri

Qubadlıda da düşmən istehkamları möhkəm idi. Qubadlı şəhərinin azad olunması əməliyyatı bir neçə gün çəkdi. Düşmən bu şəhərin də əlindən çıxmaması üçün çalışırdı. Bununla belə qüdrətli ordumuz bu döyüş tapşırığını da uğurla yerinə yetirdi. Qubadlını düşmən tapdağından xilas etdilər. Canları, qanları bahasına Qubadlını işğaldan azad edənlər də Ali Baş Komandan tərəfindən mükafatlandırıldılar. Prezident İlham Əliyevin sərəncamına əsasən, Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrin 15212 hərbi qulluqçusu "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

### Qubadlı azad olunandan sonra Şuşaya yol açıldı

Hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Zəngilan rayonunun işğaldan azad edilməsi Azərbaycan Ordusuna Qubadlı istiqamətində əks-hücumları uğurla davam etdirməyə geniş və əlverişli imkanlar yaratdı. Qubadlının kəndlərinin azad edilməsinə oktyabrın 23-dən başlanıldı. Artıq oktyabrın 25-də Qubadlı şəhəri və 10-a yaxın kənd düşmən qüvvələrindən tamamilə təmizləndi. "Qubadlının azad edilməsi Azərbaycan Ordusuna Laçın dəhlizi istiqamətində düşmənin əsas təminat yolunu bağlamaq üçün imkanlar açdı. Digər tərəfdən isə Azərbaycanın Şərqi Zəngəzurda kifayət qədər böyük əhəmiyyət kəsb edən, Ermənistan üçün əsas magistrallardan biri olan Gorus-Qafan yoluna nəzarəti ələ almasına şərait yarandı. Qubadlının inzibati hüdudlarına qədər irəliləyən ordumuz ilk növbədə Qubadlı şəhəri ətrafında yerləşən hakim və strateji yüksəklikləri azad etdi, daha sonra isə həmin mövqelərdən şəhərin azad edilməsi istiqamətində əməliyyatlara başladı", - deyə o əlavə edib.

Ekspert qeyd edib ki, Qubadlının azad olunması Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsinin ordumuzun nəzarətinə keçməsinə gətirib çıxardı. Əməliyyatlar məhz Qarabağı Ermənistanla bağlayan, o zaman Laçın dəhlizi adlanan yolun nəzarətə götürülməsi, Ermənistandan gələn təminat və təchizatın qarşısının alınması, sonda Şuşanın azad edilməsi ilə nəticələndi. Bu da Ermənistanın kapitulyasiyasına səbəb oldu.

Ə.Verdiyevin sözlərinə görə, Qubadlının azad edilməsi Şərqi Zəngəzurun qərb ərazilərinin tamamilə Azərbaycanın nəzarətinə keçməsi ilə nəticələnib: "Bu da erməni ordusunun mənəvi və psixoloji vəziyyətinə kifayət qədər ciddi və əhəmiyyətli zərbələr vurdu. Düşmən Qubadlı istiqamətində böyük sayda itkilər verdi. Bu itkilər həm şəxsi heyətə, həm də silah-sursat, texnika, vasitə və avadanlıqlara aid idi. Qubadlının azad edilməsindən sonra Ermənistan ordusunda fərarilərin sayı 5 mini keçdi. Bu isə ondan xəbər verirdi ki, ermənilər yaxın zamanda Azərbaycana müqavimət göstərə bilməyəcəklər. Ermənistan ordusunun itkiləri getdikcə artacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qubadlının işğalından 31 il ötmür, Zəfərindən 4 il keçir

Zəfər tariximizin 29-cu günü Qubadlı şəhəri düşməndən azad olundu. Qəhrəman əsgərlərimiz ilk növbədə ermənilərin müntəzəm olaraq hərbçilərimizə atəş açdıqları yüksəklikləri götürdülər.




Düşmən həmin yüksəklikdə illərlə mövqe tutmuşdu. Təbii ki, onların bu mövqedən atdığı atəşlər Azərbaycan Ordusunun irəliləməsinə mane ola bilməzdi. Əksinə, erməni əsgərləri qorxubilməz hərbçilərimizin gücü qarşısında geri çəkilməyə məcbur oldular.

Xüsusi peşəkarlıq və fədakarlıq tələb edən hərbi əməliyyat nəticəsində Qubadlı cəmi bir neçə günə işğalçılardan təmizləndi. Azərbaycan Ordusu 2020-ci il oktyabrın 25-də Qubadlı şəhərini düşmənin əlindən aldı, onları qaçmağa, diz çökməyə məcbur etdi. O günədək şəhid olanların, əsir götürülənlərin, uzun illər həsrət içində yaşayan məcburi köçkünlərin, bütövlükdə Aərbaycan xalqının qisası alındı və bu azadlıq böyük Zəfəri bir addım da yaxınlaşdırdı.

Qubadlı rayonu inzibati ərazi kimi 1933-cü ildə eyniadlı kəndin əsasında yaradılıb. 1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan ilə birləşdirilib. 1964-cü ildə isə yenidən ayrıca rayon olub. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid olan rayonun səthi əsasən dağlıq, iqlimi mülayim isti və quru subtropikdir. Bərgüşad, Həkəri, Kiçik Həkəri, Meydandərəsi çayları və çoxlu bulaqlar rayonun əsas su mənbəyidir. Bu çaylar suvarma və su-elektrik stansiyası üçün əlverişlidir.

Qubadlı rayonu Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il avqustun 31-də işğal olunmuşdu. İşğal nəticəsində rayondan 30 min məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirilmişdi. İşğal dövründə 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekt, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və ya yararsız vəziyyətə salınmışdı. 1080 kənd təsərrüfatı obyekti, 650 kilometr avtomobil yolu, 2 su anbarı, 150 kilometr magistral su xətti, 4830 kilometr elektrik xətti, 165 kilometr magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 dəyirman, 4 su-nasos stansiyası, 120 elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılmışdı.

Qubadlı kənd təsərrüfatı rayonudur. Burada işğala qədər taxıl, üzüm, tütün, bostan məhsulları becərilir, heyvandarlıqla məşğul olunurdu. Rayonun Yazı düzü, Gəyən və Məzrə adlanan düzləri bolməhsullu torpaqlar idi. Tütünçülük rayonun iqtisadiyyatında mühüm yerlərdən birini tuturdu. Əsas əkin sahələri Gəyən və Yazı düzlərində, dağətəyi meşə zonasında, Bərgüşad və Həkəri çaylarının vadisində yerləşirdi.

İşğaladək rayon ərazisində müxtəlif növ ağaclardan ibarət 13 min 160 hektar dövlət meşə fondu mövcud idi. Qubadlıda nadir növlərdən ibarət 10-dan artıq iridiametrli ağaclar təbiət abidəsi kimi qorunurdu. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən və sahəsi 20 min hektar olan, zəngin flora və faunaya malik Qubadlı Dövlət Təbiət Yasaqlığında nəsli kəsilməkdə olan bir çox heyvan və quş növləri mühafizə olunurdu. Amma erməni işğalçıları tərəfindən bütün bunlar da məhv edildi, vəhşicəsinə istismar olundu. Bunlar çox ağrılıdır.

2020-ci il oktyabrın 25-də Prezident İlham Əliyev özünün tvitter ("X") hesabında yaydığı Qubadlının azad olunması xəbəri ilə bu ağrılara məlhəm çəkilmiş oldu. Dövlət başçısı bir gün sonra xalqa müraciətində bir aya yaxın davam edən Vətən müharibəsində düşmənin məhv edilmiş və qənimət götürülmüş silah və texnikasının sayını açıqladı, eyni zamanda Azərbaycan Ordusunun Qubadlı şəhəri ilə yanaşı, rayonun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan, Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu və Çələbilər kəndlərinin işğalına son qoyulduğunu bəyan etdi.

Bu gün Qubadlı azaddır və rayonda böyük quruculuq işləri həyata keçirilir. Qubadlı şəhəri və işğaldan azad edilən kəndlər yenidən qurulur. Bütün yaşayış məntəqələri müasir dövrün tələbləri əsasında inşa edilir. Çox keçməz ki, kəndlərin, Qubadlı şəhərinin yeni görkəmi göz oxşayacaq. Çünki qələbədən sonra rayonda aparılan tikinti-abadlıq işləri hazırlanmış baş plan əsasında ən müasir normalara uyğundur, rayonun təbiəti və tarixi keçmişi nəzərə alınır. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Zəfərdən sonra Prezident İlham Əliyev Qubadlıya 4 dəfə səfər edib. İlk səfəri 2020-ci il dekabrın 23-də oldu. Müzəffər Ali Baş Komandan və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Xanlıq kəndində hərbçilərlə görüşdülər. Dövlət başçısının ikinci səfəri 2021-ci il oktyabrın 25-nə təsadüf etdi. Həmin gün Qubadlının azad olunmasının birinci ildönümü kimi qeyd olunurdu. Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak edən Prezident bir il sonra - oktyabrın 19-da yenidən Qubadlıya səfər etdi. Bu dəfə dövlət başçısı "Bərgüşadçay" və "Zabuxçay" su anbarlarının layihələri ilə tanış oldu, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoydu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlıda "İşğal" və "Zəfər" muzeylərinin təməlqoyma mərasimlərində də iştirak etdilər. 2023-cü il may ayının 4-də Qubadlı rayonuna növbəti səfəri zamanı Prezident Zilanlı və Mahruzlu kəndlərinin, eyni zamanda Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının, 600 şagirdlik tam orta məktəb binasının, həmçinin Qubadlı şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimlərinə qatıldı. Səfər zamanı dövlət başçısı ümumi sahəsi 2,6 hektara yaxın olan və ümumilikdə 156 mənzilin tikintisi nəzərdə tutulan ilk yaşayış məhəlləsinin də təməlini qoydu.

Hazırda Mahruzlu və Zilanlı kəndlərində tikinti və yenidənqurma işləri aparılır. Zilanlı kəndi rayon mərkəzindən 20 kilometr məsafədə yerləşir. Kəndin 43,5 hektar ərazisində birinci mərhələdə görülən işlər - 193 ev, məktəb binası, uşaq bağçası, Ailə-sağlamlıq mərkəzi, inzibati bina, klub-icma və İdman mərkəzi 926 nəfərin məskunlaşması ilə nəticələnəcək. Zilanlı və Mahruzluda tikilən evlər 2,3,4 və 5 otaqlıdır. Kəndlərin birinci faza üzrə nəzərdə tutulan inşaat işlərinin bu ilin sonunadək yekunlaşdırılması və tikilən evlərə əhalinin ilk köçü planlaşdırılır. İlkin olaraq Zilanlı kəndinə 134, Mahruzluya isə 93 ailənin köçürülməsi nəzərdə tutulur.

Azərbaycan bu dilbər guşəsini 31 il əvvəl itirmişdi. İllərlə xalqımızın qəlbində gəzdirdiyi bu itkidən yaranmış ağır yara 2020-ci il oktyabrın 25-də sağaldı. Bu gün şəhərin işğaldan azad edilməsinin dördüncü ilidir. Və biz indi böyük qürur və fəxarət hissi ilə deyirik: Qubadlının işğalından 31 il ötmür, Zəfərindən 4 il keçir!

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2024-cü ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 27 (Bakı şəhəri) | Rəşadət Xalıqov<br>+99450 263 5318<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>16 (Naxçıvan MR, Şərur rayonu)<br>23 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova<br>+99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07 (Yardımlı rayonu)<br>27 (Masallı rayonu) | Adil Mustafayev<br>+99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08 (Hacıqabul rayonu)<br>22 (Kürdəmir rayonu) | Ceyhun Ağayev<br>+99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 04 (Bakı şəhəri)<br>28 (Ağcabədi rayonu) | Ceyhun Rüstəmov<br>+99450 212 6641<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 16 (Salyan rayonu)<br>23 (Biləsuvar rayonu)<br>30 (Neftçala rayonu) | Pərviz Mirizadə<br>+99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 03, 24 (Tovuz rayonu)<br>04, 25 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva<br>+99451 340 3070 / +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 07, 30 (Kürdəmir rayonu) | Namiq Ağayev<br>+99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 11, 21 (Sumqayıt şəhəri) | Tayfun Hacılı<br>+99470 220 0577<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 09, 23 (Ağdaş rayonu) | Rəhman Rəhmanov<br>+99450 277 0984<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 16, 30 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev<br>+99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Arpadarai Nigar Cavid qızı** | 02, 29 (Bakı şəhəri) | Bəhruz Teymurov<br>+99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 13. | **Aslanov Novruzəli Davud oğlu** | 08, 14, 21, 24 (İsmayıllı rayonu) | Kamran Xanlarlı<br>+99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 14. | **Badamov Azər Camal oğlu** | 11, 25 (Qusar rayonu) | General Sadulov<br>+99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 15. | **Bayramov Kamran Fərhad oğlu** | 16 (Göygöl rayonu)<br>30 (Daşkəsən rayonu) | Məmməd Məmmədli<br>+99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Vüqar İbad oğlu** | 04, 21 (Füzuli rayonu) | Eltun Ağakişiyev<br>99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 17. | **Bədəlov Bədəl Şamil oğlu** | 08 (Goranboy rayonu)<br>23 (Naftalan şəhəri) | Mahyəddin Mazanov<br>+99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 18. | **Cəfərov Kamal Xaqani oğlu** | 23, 30 (Sabirabad rayonu) | Azad Əhmədbəyli<br>+99455 222 2588<br>68sayli_sd@meclis.gov.az |
| 19. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 16 (Gəncə şəhəri)<br>17,30 (Goranboy rayonu) | Sahib Əmiraslanov<br>+99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərova Tamam Şaməmməd qızı** | 06, 27 (Şamaxı rayonu) | Aytəkin Quliyeva<br>+99451 466 0090<br>88sayli_sd@meclis.gov.az |
| 21. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 23 (Göyçay rayonu) 30 (Ağdaş rayonu) | Murad Abdullayev<br>+99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 22. | **Əfəndiyeva Günay Elçin qızı** | 16, 23 (Bakı şəhəri) | Məhsəti Qarayeva<br>+99455 235 1575<br>14sayli_sd@meclis.gov.az |
| 23. | **Ələkbərov Əziz Yusif oğlu** | 09, 23 (Saatlı rayonu) | Samir Nəsirov<br>+99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 24. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 16, 30 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov<br>+99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 25. | **Əliyeva Jalə Fazil qızı** | 06 (Zərdab rayonu) 25 (Ucar rayonu) | Firdovsi Eyvazov<br>+99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 26. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 02, 16, 30 (Bakı şəhəri) | Yəhya Həsənov<br>+99455 814 0555 / +99450 3155842<br>27sayli_sd@meclis.gov.az |
| 27. | **Əmiraslanov Azər Kamal oğlu** | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 29 (Ağstafa rayonu) | Əlövsət Allahyarov<br>+99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 28. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>23, 30 (Sabirabad rayonu) | Raqif Xəlilov<br>+99451 926 1088<br>67sayli_sd@meclis.gov.az |
| 29. | **Əsədov Heydər Xanış oğlu** | 07, 28 (Şirvan şəhəri) | Zahir Qəhramanov<br>+99450 216 0470<br>51sayli_sd@meclis.gov.az |
| 30. | **Əsgərov Asif Yunis oğlu** | 09, 16 (Zaqatala rayonu) | Elbrus Məmmədov<br>+99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 31. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 09, 23 (Şəki şəhəri) | Turan Salamov<br>+99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 32. | **Fətəliyeva Sevinc Həbib qızı** | 04, 25 (Bakı şəhəri) | Eldar Qurbanov<br>+99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 33. | **Fətiyev Xanlar Nuru oğlu** | 02, 30 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə<br>+99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 34. | **Gəncəliyev Tural Babaşah oğlu** | 06, 27 (Bakı şəhəri) | Xatirə Əliyeva<br>+99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 35. | **Hacıyev Sabir Kamal oğlu** | 06, 21 (Göyçay rayonu) | Əli Qafarov<br>+99450 200 2209<br>91sayli_sd@meclis.gov.az |
| 36. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 06, 30 (Gəncə şəhəri) | Sərxan İmanov<br>+99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 37. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 09 (Naxçıvan MR, Babək rayonu)<br>23 (Naxçıvan MR, Culfa rayonu) | Araz Xudiyev<br>+99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 38. | **Həsən Ramil Sahib oğlu** | 07, 28 (Ucar rayonu) | Fuad Bəbirxanov<br>+99450 255 1376<br>94sayli_sd@meclis.gov.az |
| 39. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 16, 23 (Bakı şəhəri) | Hüseyn Müzəfferli<br>+99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 40. | **Həsənov Malik Əvəz oğlu** | 11, 23 (Cəlilabad rayonu) | Ələddin Əliyev<br>+99450 277 0467<br>71sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Nurlan Urfan oğlu** | 08, 22 (Şəmkir rayonu) | Anar Quliyev<br>+99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənova Afət Əbil qızı** | 06, 20 (Bakı şəhəri) | Namiq Mustafayev<br>+99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 43. | **Hüseynli Əli Məhəmməd oğlu** | 01 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09 (Yevlax şəhəri)<br>23 (Mingəçevir şəhəri) | Bayram Yusifov<br>+99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynov Aydın Nəsir oğlu** | 14, 28 (Bakı şəhəri) | Vüsal Yusifov<br>+99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynova Hicran Kamran qızı** | 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 27 (Sumqayıt şəhəri) | Elçin Kərimov<br>+99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 02, 30 (Gədəbəy rayonu)<br>26 (Bakı şəhəri) | Elxan İsmayılov<br>+99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 47. | **Xasayeva Səbinə Səməd qızı** | 06, 25 (Bakı şəhəri) | Bayram Məmmədov<br>+99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 48. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 07, 28 (Bakı şəhəri) | Xətai Məmmədli<br>+99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimli Fəzail Feyruz oğlu** | 07, 28 (Masallı rayonu) | Faiq Ağayev<br>+99450 201 5670 / +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimov Eldar Rza oğlu** | 08, 11 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov<br>+99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 51. | **İsgəndərov Anar Camal oğlu** | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 23 (Lənkəran şəhəri) | Valeh Mikayılov<br>+99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 52. | **İskəndərov Vüqar Yapon oğlu** | 09, 23 (Şəki şəhəri) | Anar Nağıyev<br>+99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 53. | **İsmayılov İmamverdi İbiş oğlu** | 09, 23 (Sumqayıt şəhəri) | Məlahət Əzizova<br>+99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov Şahin Əmir oğlu** | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 23 (Beyləqan rayonu) | Çingiz Səfərov<br>+99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılzadə Fariz Akif oğlu** | 09, 30 (Lənkəran şəhəri) | Ülviyyə Əliyeva<br>+99455 718 7872<br>77sayli_sd@meclis.gov.az |
| 56. | **Kərimli Azər Şəmşid oğlu** | 01 (Balakən rayonu)<br>03, 23 (Zaqatala rayonu) | Həbibullah Əfəndi<br>+99477 510 5015<br>111sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimzadə Pərvin Orxan qızı** | 06, 20 (Gəncə şəhəri) | Hicran Məmmədova<br>+99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 58. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 06, 27 (Bakı şəhəri) | Nazim Cəfərov<br>+99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Vasif Vaqif oğlu** | 13 (Lerik rayonu)<br>20 (Astara rayonu) | Pərviz Ağaxanlı<br>+99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 60. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 02 (Bərdə rayonu)<br>09 (Yevlax şəhəri) | Anar Çıraqov<br>+99499 309 1131<br>123sayli_sd@meclis.gov.az |
| 61. | **Qədirli Erkin Toğrul oğlu** | 04, 25 (Bakı şəhəri) | Fariz Zöhrabov<br>+99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 62. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 02, 28 (Bakı şəhəri) | Rəhim Qədirov<br>+99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 63. | **Quliyev Azay Əjdər oğlu** | 06, 27 (Bakı şəhəri) | Asəf Vəliyev<br>+99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Eldar Allahyar oğlu** | 03, 10 (Bakı şəhəri) | Yaşar Məmmədov<br>+99450 983 9310<br>28sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Musa İsa oğlu** | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 30 (Gəncə şəhəri) | Göyüş Şəfizadə<br>+99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Ülvi Zahid oğlu** | 07, 27 (Bakı şəhəri) | Nurlan Qurbanov<br>+99450 2415156<br>15sayli_sd@meclis.gov.az |
| 67. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 07, 27 (Samux rayonu) | Elnur Tağıyev<br>+99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 07, 30 (Oğuz rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>117sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 30 (Salyan rayonu) | Elnur Rəhimov<br>+99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 70. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 03, 19, 26 (Astara rayonu) | İlham Rəsulov<br>+99455 215 7757<br>79sayli_sd@meclis.gov.az |
| 71. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 09, 23 (Balakən rayonu) | Yusif Mirzəyev<br>+99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 72. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 06, 14 (Biləsuvar rayonu) | Əfsun Əlizadə<br>+99455 283 1705 / +99470 300 1461<br>69sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 09, 13 (Quba rayonu) | Elnur Xəlilov<br>+99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 74. | **Məmmədli Müşfiq Fazil oğlu** | 04 (Quba rayonu) 11 (Siyəzən rayonu) | Nəsimi Əliyev<br>+99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədov Anar İlyaz oğlu** | 08 (Tərtər, Goranboy və Ağdərə rayonları)<br>09 (Yevlax şəhəri, Bərdə və Ağdam rayonları)<br>23 (Gəncə şəhəri və Samux, Göygöl rayonları) | Elçin Cahangirov<br>+99450 324 2791<br>97sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Ceyhun Valeh oğlu** | 09, 23 (Bakı şəhəri) | Rəşad Quliyev<br>+99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 77. | **Məmmədov Elman Camal oğlu** | 16, 23 (Bakı şəhəri) | Mahir Rzayev<br>+99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Hikmət Baba oğlu** | 06, 27 (Bakı şəhəri) | Azər Quliyev<br>+99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2024-cü ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 79. | **Məmmədov İlham Kazım oğlu** | 09, 23 (Yevlax şəhəri) | Rüstəm Əliyev<br>+99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov Qaya Məmməd oğlu** | 03, 24 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>31sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 11, 23 (Masallı rayonu) | Əli Nağıyev<br>+99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Soltan Teymur oğlu** | 16, 23 (Bakı şəhəri) | Azər Məlikov<br>+99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədova Nigar Fikrət qızı** | 02, 23 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova<br>+99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | **Məsimli Əli Əhməd oğlu** | 07 (Şəki şəhəri) 30 (Qax rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | **Mikayılova Sevil Əlirazı qızı** | 05, 15 (Xaçmaz rayonu) | İradə Çobanova<br>+99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | **Mirkişili Tahir Famil oğlu** | 18, 28 (Sumqayıt şəhəri) | Cavid Quliyev<br>+99450 277 1868<br>43sayli_sd@meclis.gov.az |
| 87. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 16, 23 (Ağsu rayonu) | İbrahim Bağırlı<br>+99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 15, 26 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov<br>+99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | **Mollazadə Asim Nazim oğlu** | 06, 27 (Bakı şəhəri) | İlkin Həsənov<br>+99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 06 (Naxçıvan MR, Babək rayonu)<br>07 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev<br>+99455 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | **Muradov Rövşən Şahbaz oğlu** | 16, 30 (Laçın rayonu) | Rövşən Muradov<br>+99450 319 9365<br>121sayli_sd@meclis.gov.az |
| 92. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 04, 18 (Bakı şəhəri) | Asif Nəsibov<br>+99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | **Musayev Elşad Nəbi oğlu** | 16, 30 (Bakı şəhəri) | Vüqar Qasımov<br>+99455 744 9919 / +99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 09, 23 (Qəbələ rayonu) | Cəfər Əliyev<br>+99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | **Mustafa Fazil Qəzənfər oğlu** | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 11, 18, 25 (Bakı şəhəri) | Əjdər Əliyev<br>+99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | **Nağıyev Arzu Nəsib oğlu** | 28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>16 (Tovuz rayonu)<br>30 (Gədəbəy rayonu) | Elşad İsmayılov<br>+99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | **Namazov Ramid Zakir oğlu** | 09, 30 (Abşeron rayonu) | Ramil Şükürov<br>+99410 412 1079<br>50sayli_sd@meclis.gov.az |
| 98. | **Nəbiyev Rizvan Novruz oğlu** | 16, 28 (Abşeron rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>49sayli_sd@meclis.gov.az |
| 99. | **Nəsirov Elman Xudam oğlu** | 16, 30 (Cəlilabad rayonu) | Uzeyir Mustafayev<br>+99450 538 7364<br>72sayli_sd@meclis.gov.az |
| 100. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>23, 24 (Naxçıvan MR, Şərur rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>2sayli_sd@meclis.gov.az |
| 101. | **Nurullayev Razi Qulaməli oğlu** | 16 (İmişli rayonu) 23 (Bakı şəhəri) | Vüqar Süleymanov<br>+99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayeva Könül Oruc qızı** | 04, 18 (Bakı şəhəri) | Sabit Mahmudov<br>+99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | **Oruc Zahid Məhərrəm oğlu** | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 29 (Bakı şəhəri) | Ceyhun Fərəcov<br>+99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 02, 30 (Bakı şəhəri) | Fidan Əliyeva<br>+99477 593 4688<br>13sayli_sd@meclis.gov.az |
| 105. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 17, 26 (Lənkəran şəhəri) | Sulduz Ağayev<br>+99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | **Polad Bülbüloğlu** | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 28 (Şuşa, Ağdam və Xocavənd rayonları) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 09, 18 (Quba rayonu) | Qəhrəman Qasımov<br>+99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 02 (Naxçıvan MR, Ordubad rayonu)<br>16 (Naxçıvan MR Culfa rayonu) | Məhərrəm Əliverdiyev<br>+99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 16, 30 (Neftçala rayonu) | Fərman Hüseynov<br>+99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 23, 24 (Ağcabədi rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salahlı Səyyad Adil oğlu** | 08 (İmişli rayonu) 09 (Saatlı rayonu) | Barat Xəlilov<br>+99450 734 4944<br>82sayli_sd@meclis.gov.az |
| 112. | **Salmanova Səbinə Qədir qızı** | 04, 25 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov<br>+99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidov Səməd İsmayıl oğlu** | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>11, 25 (Qazax rayonu) | Akif Əmirov<br>+99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | **Seyidzadə Şahin Kamil oğlu** | 10 (İsmayıllı, Şamaxı rayonu)<br>12 (Qobustan rayonu) | Elman Mikayılov<br>+99450 600 2550<br>87sayli_sd@meclis.gov.az |
| 115. | **Səfərov Nizami Abdulla oğlu** | 07, 28 (Tovuz rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>106sayli_sd@meclis.gov.az |
| 116. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 07, 29 (Bakı şəhəri) | Quliyev Azad<br>+99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | **Süleymanlı Mahir Tahir oğlu** | 07, 21 (Şabran rayonu) | Simran Süleymanov<br>+99451 906 6669<br>56sayli_sd@meclis.gov.az |
| 118. | **Şükürov Zaur Ramiz oğlu** | 09 (Abşeron rayonu)<br>23 (Bakı şəhəri) | Aslan Talıbov<br>+99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 06, 20 (Xaçmaz rayonu) | İlham Musayev<br>+99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyev Samir Əhməd oğlu** | 06, 25 (Bakı şəhəri) | Vüsal Əliyev<br>+99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Mehriban Hidayət qızı** | 07, 27 (Sumqayıt şəhəri) | Ramiz Alıyev<br>+99455 211 3437<br>44sayli_sd@meclis.gov.az |
| 122. | **Vəliyeva Pərvanə Bulut qızı** | 02, 30 (Bakı şəhəri) | Kamil Hacıyev<br>+99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | **Yıldırım Fatma Vidadi qızı** | 07, 27 (Bərdə rayonu) | Fuad Ağayev<br>+99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | **Zabelin Mixail Yuryeviç** | 09, 23 (Bakı şəhəri) | Firdovsi Cahangirov<br>+99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# *İnternetdə təhlükəsizlik problemi: çıxış yolu varmı?*

Bu gün internetdə təhlükəsizlik sarıdan ən ciddi problem hansıdır? Sualın cavabı zamana bağlı olduğundan və bir də təhlükəsizlik məsələləri daim inkişaf etdiyindən fərqli olur. Digər tərəfdən "hücum" etmək istəyən şəxslərin və ya qurumların da niyyətləri, maraqları sabit deyil.



İnformasiya texnologiyaları üzrə mühəndis-ekspert Bəhruz Əliyev bildirir ki, ən qorxulu təhlükəsizlik problemi nədir sualının dəqiq cavabı yoxdur: "Əsas məsələlərdən biri məlumat oğurluğu və məxfiliyin sındırılması ilə bağlıdır. İnternetdə çoxlu sayda şəxsi və kritik məlumatlar paylaşılır. Bu zəmində istər-istəməz gizliliyin pozulması riski gündən-günə artır. İkinci problem şəbəkə üzərindən hücumlardır. Böyük və ya kiçik şirkətlərə, dövlət təşkilatlarına və ya hər hansı şəxsə qarşı müxtəlif kiberhücumlar ola bilər. Təhlükənin başqa qaynağı isə sosial şəbəkələrdə fəallıqdır. İnsanların internetdə keçirdiyi vaxt artdıqca qarşılıqlı fəaliyyət intensivləşir. Bu da zərərli məzmunların yayılmasına gətirib çıxarır. Ona görə də sosial şəbəkələrdən imkan daxilində konkret və faydalı məqsədlərlə bəhrələnmək gərəkdir. Sonra isə oranı tərk etmək lazımdır. Başqa bir məsələ yalançı xəbərlər və dezinformasiya ilə bağlıdır. Bu, cəmiyyətdə qarşılıqlı şübhələrə səbəb ola bilər. Ona görə də insanlar xəbər əldə edərkən etibarlı mənbələrə müraciət ünvanlamalı və bir neçə mənbədən dəqiqləşdirmə apardıqdan sonra nəticəyə gəlməlidirlər".

Ekspert onu da deyir ki, kiberhücumların mənbələri çox müxtəlifdir: "Bu, hücumun növündən, məqsədindən və hücum edilən təşkilatın tipindən asılı olaraq dəyişir. Ona görə də problemi geniş rakursdan dəyərləndirmək lazımdır. Kiberhücumlardan biri "kriminal qruplar"dan yönəlir. Onlar çoxsaylı hədəflər, başlıcası da pul əldə etmək üçün müxtəlif zərərli proqramlardan istifadə edə, bank məlumatlarını oğurlaya bilərlər. Rəqib dövlətlər və təşkilatlar arasında qarşılıqlı hücumlar da hər zaman mümkündür. Dövlətlər həm siyasi, həm də rəqabət məqsədilə bir-birinin məlumatlarını oğurlamaq, əzələ nümayiş etdirmək üçün belə vasitələrdən istifadə edirlər. Eyni zamanda casusluq və intellektual mülkiyyətin oğurlanması kimi müxtəlif hədəflər var. Digərləri həmin müəssisədəki hər hansı işçiyə hücumla onun kompüteri üzərindən daxili mənbələrdəki məlumatları əldə edə bilərlər. Başqa qrup isə kiminsə özəl məlumatını oğurlamaqdan ötrü kiberhücumlar təşkil edir və bu adətən individual xarakter daşıyır".

B.Əliyevin fikrincə, kiberhücumların müəyyən olunması müxtəlif ola bilər və o, hücumun növündən, məqsədindən, təşkilatın təhlükəsizlik qabiliyyətindən asılıdır: "Hücumun tipi aşkarlanma müddətini təyin edir. Zərərli proqramların zəruri təhlükəsizlik tədbirləri görülübsə, onun tez müəyyən edilməsi mümkündür. Amma "hücumçu"lar daha kompleks hərəkətdədirlərsə, onların aşkarlanması gec baş verir. İkinci, təhlükəsizlik tədbirlərini və davamlı monitorinqləri mütəmadi keçirmək lazımdır. Belə halda hücumlar daha tez aşkarlanır. Hücumların sürətli aşkarlanması üçün adətən avtomatlaşdırılmış monitorinq sistemləri tətbiq olunur. Əsas faktorlardan biri də təcrübədir. Təşkilatın daha əvvəldən yaşadığı kiberhücumlar, təhlükəsizlik qabiliyyəti və qazandığı təcrübə hücumların aşkarlanmasını asanlaşdırır".

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Azərbaycanın qeyri-neft məhsullarına xaricdə maraq çoxdur

## İxrac sırasında "İstisu" yeni olsa da, analoqları arasında birincidir

Artıq neçə vaxtdır qeyri-neft sektoru üzrə ixrac olunan məhsulların çeşidi artır. Son günlər həmin siyahıya məşhur brendimiz "İstisu" mineral suyu da əlavə olunub. Bu isə maddi gəlirdən daha çox mənəvi dividend deməkdir.

Çünki artıq həm Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması fonunda əhalinin məşğulluğu təmin olunur, həm də azadlığa qovuşan ərazilərimizdəki təbii sərvətlərin milli marka altında istehsalı reallaşır. 30 illik işğal zamanı erməni quldurları bizim "İstisu"yu kustar şəkildə qablaşdıraraq öz çirkin adlarına çıxarmışdılar. Sentyabrın 2-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə başdan-başa yenidən qurulan Kəlbəcər "İstisu" mineral su zavodunun açılışı oldu. O vaxt zavodun direktoru Adil Haqverdiyev demişdi ki, "İstisu" tezliklə ixrac da ediləcək: "Bu həm zavodumuz, həm də ölkəmiz adına qürurverici bir hadisədir. Mineral suyumuz dünya bazarlarında satılacaq..." Müəssisə rəhbərinin müjdəsi tezliklə reallaşdı. Baş nazir Əli Əsədovun oktyabrın 4-də Minskə səfəri zamanı belaruslu həmkarı Roman Qolovçenkonun iştirakı ilə "İstisu" mineral suyunun təqdimatı keçirildi. Tədbir çərçivəsində Kəlbəcər "İstisu" mineral su zavodu və Belarus Respublikasındakı "Azərbaycan Ticarət Evi" MMC arasında əməkdaşlıq protokolu imzalandı.




Hələ xeyli əvvəl Azərbaycan pomidoru üçün yeni bazarların axtarışı barədə Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının icraçı direktoru Vüqar Əlimirzəyev danışmışdı. Demişdi ki, Azərbaycanın pomidor ixracı üçün ənənəvi bazarı Rusiyadır. Eyni zamanda müəyyən miqdarda pomidor Belarus və Polşaya da göndərilir: "Azərbaycan istehsalçıları və ixracatçıları bu məhsulun Körfəz ölkələrinin, xüsusilə Qətərin bazarına çıxarılması üçün səylər göstərsə də, yolun uzaqlığı problem yaradır. Ona görə də əsas məqsədlərdən biri "Made in Azerbaijan" brendi altında təqdim olunan yerli pomidorların Rusiya bazarında mövqeyini qoruyub saxlamaqdır. Bu ölkəyə istixana məhsulları göndərilir. Açıq sahədə yetişdirilən pomidorlar isə daxili bazarlarda satılır". Qeyd edək ki, açıq və qapalı şəraitdə ölkə üzrə ümumilikdə 18 min hektara yaxın ərazidə pomidor yetişdirilir. Həmin sahələrdən 800 min tondan artıq məhsul götürülür.

"Azərbaycan Sankt-Peterburqa meyvə-tərəvəz ixrac edən MDB ölkələri arasında ilk pillədədir. Ötən il Rusiya ilə Azərbaycan arasındakı ticarət dövriyyəsinin həcmində 17 faiz artım müşahidə edilib". Bu sözləri Sankt-Peterburq şəhərinin Sənaye Siyasəti, İnnovasiyalar və Ticarət Komitəsi sədrinin birinci müavini Aleksandr Sitov deyib. Bildirib ki, Rusiyanın şimal paytaxtının ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında Azərbaycan əhəmiyyətli rol oynayır.

İstehsal olunan qeyri-neft məhsullarının həm çeşidinin, həm də həcminin artması ixrac ilə bağlı yeni müqavilələrin imzalanmasını zəruri edir. Məsələn, Çinə fındıq, eləcə də alma, nar və badam satışı məqsədilə qarşılıqlı protokolların imzalanması üçün danışıqlar gedir. Vyetnama isə hər il 1000 tondan çox ət və ət məhsulları ixrac olunacaq. Avstriyanın ən böyük şərab sərgisi "VieVinum 2024"də ilk dəfə Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəliyimiz tərəfindən Azərbaycan şərabları nümayiş etdirilib. Maraq yetərincə olub. Deməli, yaxın zamanda şərablarımıza Avstriya bazarında da rast gəlinəcək.

***Q.CƏBRAYILOĞLU,***
***"Azərbaycan"***

# Qazaxıstan Azərbaycanın strateji tərəfdaşı və müttəfiqidir

**Azərbaycanın sıx, tarixi əlaqələrə və dərin köklərə malik olduğu türk dövlətlərindən biri Qazaxıstandır. Eyni kökə malik olan bu xalqlar dövlət müstəqilliyi əldə etdikdən sonra bir-birilə daha da yaxınlaşmışdır.**





Bu bir həqiqətdir ki, hər iki xalq dünya mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermiş, dünyaşöhrətli cahangirlər yetirmişlər. Hər iki ölkənin ərazisində dünya mədəniyyətinin inciləri hesab olunan tarixi və memarlıq abidələri mövcuddur.

Xəzər dənizinin şərqini və qərbini birləşdirən ümumi cəhət həm də hər iki regionda vaxtilə qədim sivilizasiyaların mövcud olmasıdır. Onların izləri bu gün də milyonlarla turistin və xarici qonaqların gözlərini oxşamaqdadır.

Bu gün dünyanın taxıl anbarlarından biri olan Qazaxıstan, həmçinin taxıl ixracatçılarının ilk onluğuna daxildir, un ixracında isə liderlərdən biridir. Ölkənin şimalında əkin sahələrinin 70 faizini taxıl və texniki bitkilər - buğda, arpa, darı təşkil edir. Ölkənin cənubunda isə çəltik, pambıq, tütün becərilir. Qazaxıstan həm də meyvə və üzüm bağları, bostanları ilə məşhurdur. Kənd təsərrüfatının aparıcı sahələrindən biri də heyvandarlıqdır. Hazırda Qazaxıstan irimiqyaslı "Yeni İpək Yolu" layihəsini həyata keçirir ki, bu da ölkənin qitənin əsas birləşdirici halqası kimi tarixi rolunu canlandıracaq və onu regionun ən böyük işgüzar və tranzit mərkəzinə - Avropa ilə Asiya arasında bir növ körpüyə çevirəcəkdir.

Əsas ixrac malları dağ-mədən sənayesi, yanacaq-energetika, metallurgiya və kimya sənayesi, eləcə də taxıl sənayesi məhsullarıdır. Respublikanın əsas ticarət tərəfdaşları isə Rusiya, Çin, Avropa və MDB ölkələri, o cümlədən də Azərbaycandır. Bir məsələni vurğulamaq lazımdır ki, Qazaxıstan-Azərbaycan əməkdaşlığının potensial imkanları indiki səviyyədən qat-qat böyükdür. Hər iki tərəf bunu yaxşı bilir və bu hədəflərə yetişmək əzmindədirlər.

Demokratik, dünyəvi, hüquqi və sosial dövlət kimi onun ali dəyərləri insan, onun həyatı, hüquq və azadlıqlarıdır. Qazaxıstan dünya okeanına birbaşa çıxışı olmayan ən böyük ölkədir. Ölkə ərazisinin böyük hissəsini səhralar (44%) və yarımsəhralar (14%) təşkil etsə də, onu həmçinin çaylar və göllər diyarı da adlandırmaq olar. Belə ki, ərazisində 8,5 min çay və irili-xırdalı 48 min göl vardır. Ölkənin mineral ehtiyat bazası 5 mindən çox yataqdan ibarətdir. Bu respublika təsdiq olunmuş sink, volfram və barit ehtiyatlarına görə dünyada birinci, gümüş, qurğuşun və xromit üzrə ikinci, mis və flüorit üzrə üçüncü, molibden üzrə dördüncü, qızıl üzrə altıncı yerdədir.

Qazaxıstan həm də mühüm neft və qaz ehtiyatlarına malikdir. Təsdiqlənmiş neft ehtiyatlarına görə dünyada 9-cu yeri tutur. Onlar əsasən qərb bölgələrində cəmləşmişdir. Bundan başqa, respublika kömür ehtiyatlarına görə 8-ci, uran ehtiyatlarına görə isə 2-ci yerdədir. Son illər iqtisadiyyatın şaxələndirilməsi üçün ölkədə sənaye-innovativ inkişaf proqramı uğurla həyata keçirilir, buna uyğun olaraq köhnə müəssisələr modernləşdirilir və yeni müəssisələr açılır. Ölkənin 20 milyondan çox əhalisinin 70,4 faizini qazaxlar təşkil etsə də, respublikada 130-dan çox etnosun nümayəndəsi yaşayır və onlar dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Bu cəhətdən rəsmi Astananın multikulturalizm siyasəti digər ölkələrə nümunə ola bilər. Bu cəhət də Qazaxıstan ilə Azərbaycan arasında ümumi oxşarlıqlardan biridir. Qardaş Qazaxıstan Mərkəzi Asiyanın lider dövləti kimi regionda sabitliyin möhkəmlənməsinə mühüm töhfə verir. Ölkə dünya arenasında da böyük uğurlar qazanıb.

Qazaxıstan Avrasiya İqtisadi Birliyinin üzvüdür. Son zamanlar iqtisadiyyatın bütün sahələrində sabit artım, siyasi sabitlik Qazaxıstan cəmiyyətinin çiçəklənməsinin əsasına çevrilib. Qazaxıstan gələcəyə baxan, mədəni ənənələrini qoruyub saxlayan və müasir dinamik dünyada öz nəhəng yaradıcı potensialını uğurla reallaşdıran ölkədir.

SSRİ-nin süqutu və yeni müstəqil dövlətlərin yaranması Azərbaycan və Qazaxıstan arasında münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Hər iki xalqın çoxdan bəri gözlədiyi bir dövr yetişdi. Belə bir şəraitdə 1992-ci il avqustun 30-da Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr quruldu. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başladı. Hazırda Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin hüquqi bazasına çevrilmiş 150-yə yaxın müqavilə, saziş, protokol və müxtəlif sənəd imzalanıb.

2003-cü il mayın 14-də Azərbaycan, Qazaxıstan və Rusiya Xəzər dənizindəki milli sektorlarının sərhədlərini müəyyən edən razılaşma imzalamışlar. Bu razılaşma 3 dövlətin su sərhədlərinin ortaq xətt boyunca müəyyənləşdirilməsini nəzərdə tutur, həmin ölkələrə neft-qaz və mineral resursların öz milli sektorları daxilində istismar etməsinə şərait yaradır.

Bünövrəsi türk dünyasının dünyaşöhrətli liderləri Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulan Azərbaycan-Qazaxıstan münasibətləri ötən dövr ərzində daha da möhkəmlənmişdir. Hazırda ikitərəfli münasibətlərə mühüm təkan verən amil Prezident İlham Əliyev ilə Prezident Kasım-Jomart Tokayev arasında mövcud olan möhkəm şəxsi dostluq əlaqələridir. Son illər hər iki dövlət başçısının dəfələrlə etdiyi qarşılıqlı səfərlər bu münasibətləri yüksək səviyyəyə çatdırmışdır.

Hələ 2022-ci ildə Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri Bakı ilə Astana arasında tərəfdaşlıq üçün müəyyən mənada təkanverici amil oldu. "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"nin qəbulu əməkdaşlığımızın yeni mərhələsinin başlanğıc nöqtəsi oldu. Bu hadisədən sonra qətiyyətlə vurğulamaq olar ki, hazırda Qazaxıstan-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il noyabrın 2-də Qazaxıstana etdiyi səfər qarşılıqlı münasibətləri daha da canlandırdı. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak etdi. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə olub.

Azərbaycan və Qazaxıstan beynəlxalq təşkilatlar çərçivəsində də yaxından əməkdaşlıq edirlər. Təsadüfi deyil ki, bu iki qardaş ölkə beynəlxalq forumların kürsülərindən bir-birinin milli maraqlarını müdafiə edirlər. Siyasi münasibətlərin isti olması həyatın digər sahələrində həyata keçirilən əməkdaşlığa da öz müsbət təsirini göstərir.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq ticarət-iqtisadi, tranzit-nəqliyyat, enerji, mədəni-humanitar, o cümlədən rəqəmsallaşma, ərzaq təhlükəsizliyi, bərpaolunan enerji mənbələri sahələrini əhatə edir.

44 günlük Vətən müharibəsindən sonra qarşılıqlı faydalı əməkdaşlıq daha geniş vüsət aldı. Qazaxıstan Prezidenti Şuşa şəhərinə səfər etdi və orada aparılan quruculuq-bərpa işləri ilə tanış oldu. Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi inşa edilib. Bu mərkəz xalqlarımızın dostluğunun simvoluna çevrilmişdir. Bu ilin mart ayında Qazaxıstanın dövlət başçısı tərəfindən onun açılışı olmuşdur. Həmçinin Füzuli şəhərində Qazaxıstan şirkətləri tərəfindən müasir xəstəxana binası inşa edilir.

2020-2024-cü illərdə iki ölkə arasında ticarət dövriyyəsi təxminən 5 dəfə artaraq 529 milyon dollara çatmışdır. Ötən ilin yanvar-iyun aylarında Azərbaycanın Qazaxıstana ixracı 60 milyon 180 min dollar təşkil etmişdir. 2023-cü ilin dekabrından Qazaxıstandan alınmış sifarişlər əsasında Azərbaycan oraya avtomobil üçün əyləc bəndləri ixrac edir. "SOCAR Polymer" MMC-nin istehsal etdiyi polipropilen və polietilen məhsulu Rusiya və Qazaxıstana ixrac olunur. 2024-cü ilin yanvar-iyun aylarında Qazaxıstan ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 280,6 milyon dollar təşkil edib. Qeyd olunan dövrdə Azərbaycandan Qazaxıstana ixrac 24,5 milyon dollar, Qazaxıstandan Azərbaycana ixrac isə 256,1 milyon dollar təşkil edib. Qarşılıqlı əməkdaşlıq sahəsinə bütün region ölkələri üçün vacib olan bir sıra iqtisadi-ticarət, kommunikasiya layihələri də daxildir. Buraya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) imkanlarının genişləndirilməsi, Xəzərin dibi ilə fiber-optik rabitə xəttinin və enerji kabelinin çəkilməsi, Azərbaycan vasitəsilə neft və uranın ixracı, Qazaxıstandan Azərbaycan bazarına buğda tədarükünü aid etmək olar. Belə bir əlaqələrin qurulması Asiya və Avropa ölkələri üçün də geniş əməkdaşlıq imkanları açır.

Bu il Qazaxıstan ilə Azərbaycan arasında investisiya fondunun əsası qoyuldu. İlkin kapitalın 300 milyon dollar təşkil etməsi nəzərdə tutulur. Bu da bir sıra iqtisadi layihələrin həyata keçirilməsinə ciddi təkan verəcəkdir. Qazaxıstan tərəfi COP29 sammitinin 2024-cü ildə Bakıda keçirilməsini çox müsbət qarşılamışdır. Bütün dünyada olduğu kimi, ölkələrimiz də ekoloji tarazlığın pozulmasının mənfi nəticələrini hiss edirlər. Hər iki tərəf belə bir vahid fikirdədirlər ki, ətraf mühitdə yaranmış böhranlı halları yalnız birgə səylər sayəsində aradan qaldırmaq olar. Qarşıdan gələn COP29 sammiti zamanı Qazaxıstan, Azərbaycan və Özbəkistan "yaşıl enerji"nin Mərkəzi Asiyadan Azərbaycan vasitəsilə Avropaya nəqlinə yönəlmiş yeni mühüm layihəyə rəsmi şəkildə start verəcəklər.

Bu bir reallıqdır ki, Azərbaycan-Qazaxıstan münasibətlərinin son hədəfi güclü strateji və etibarlı müttəfiqlik əlaqələri yaratmaqdan ibarətdir. Bu həm də Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə müsbət təsir göstərəcəkdir. Əminliklə qeyd etmək olar ki, hər iki ölkə rəhbərliyinin ciddi əzmi və qətiyyəti sayəsində yaxın gələcəkdə belə bir zirvəyə çatmaq mümkün olacaqdır.

***Atamoğlan MƏMMƏDLİ***
***BDU-nun dosenti***

# Qərbin tövsiyələri əsasında "islahatlar..."

## Gürcüstanda daxili problemlərə yol aça bilər

**"Sabah Gürcüstanda parlament seçkiləri baş tutacaq. Gürcüstan Mərkəzi Seçki Komissiyasının məlumatına görə, hazırda xaricdə səs vermək hüququ olan seçicilərin sayı 95834 nəfərdir. MSK xaricdə səsvermə hüququ olanlar üçün 42 ölkədə 60 seçki məntəqəsinin yaradılması barədə qərar qəbul edib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Nəsibə Mirzəyeva deyib. Ekspert bildirib ki, qarşıdan gələn seçkilər təkcə mahiyyətinə görə deyil, həm də bir sıra digər cəhətlərinə görə unikaldır. Ölkədə sonuncu parlament seçkiləri 2020-ci ilin oktyabrın 31-də keçirilib və hakim "Gürcü Arzusu" partiyası 48,22 faiz səslə qalib gəlib. Əvvəlki illərdən fərqli olaraq 2017-ci ilin sentyabrın 26-da qəbul edilmiş konstitusiya dəyişikliklərinə əsasən, budəfəki seçkilər 5 faizlik həddi olan tam proporsional sistemlə keçiriləcək. "Gürcüstanda builki parlament seçkilərində seçicilərin 90 faizi elektron texnologiyadan istifadə edərək səsvermədə iştirak edəcəklər. Bunun ilk proporsional seçkilər olması və parlamentə düşmək üçün 5 faizlik baryeri keçməyin zəruriliyi siyasi partiyaları koalisiya yaratmağa sövq edib. Bundan əlavə, 5 faizlik baryeri aşmaq üçün əsas iddiaçı müxalifət partiyaları prezidentin təşəbbüsü ilə Gürcüstan Xartiyasını imzalayıblar", - deyə ekspert əlavə edib.

N.Mirzəyeva qeyd edib ki, hazırkı vəziyyətə görə, qeydiyyatdan keçmiş 19 partiyadan "Gürcü Arzusu" partiyası "Xalqın Gücü" hərəkatı ilə birlikdə, "Vahid Milli Hərəkat", "Ağmaşenebeli Strategiyası" və digər sabiq, o cümlədən, yeni siyasi simaların birləşdiyi "Gürcüstanın Xilası Naminə" koalisiyasının, "Axali", "Girçi", "Droa" partiyalarının birgə formalaşdırdığı "Dəyişikliklər Koalisiyası"nı, "Gürcüstan üçün Lelo", "Vətəndaşlar" və "Azadlıq Meydanı" partiyalarını özündə birləşdirən "Güclü Gürcüstan" alyansının, sabiq baş nazir Georgi Qaxariyanın rəhbərlik etdiyi "Gürcüstan naminə" birliyinin seçki həddini keçəcəyini ehtimal etmək mümkündür.



Bir çox ekspertlər budəfəki seçkilərin xaraktercə daha mürəkkəb və proqnozlaşdırılmasının çətin olduğunu bildirirlər. Hakim partiya digər partiyalardan daha yüksək səs toplamaqda davam edərsə, müxalifət birləşmə qərarı almazsa, "Gürcü Arzusu"nun birinci olaraq qalacağı ilə bağlı fikirlər yayılıb.

Siyasi təhlilçi vurğulayıb ki, "Gürcü Arzusu"nun parlament seçkilərində qələbəsi Azərbaycanın maraqlarına müxtəlif aspektlərdən təsir göstərə bilər: "Hazırda qonşu ölkə ilə olan siyasi, iqtisadi və enerji sahəsində tərəfdaşlıq mühüm əhəmiyyət kəsb etməkdədir. Son bir neçə ildə qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu nəzərə alsaq, Azərbaycanla sıx tərəfdaşlıq önəm kəsb edir. Hazırkı seçki prosesi ölkənin demokratik inkişafı və siyasi sabitliyi baxımından əhəmiyyətli bir mərhələ hesab oluna bilər. Mürəkkəb bir vəziyyətdə beynəlxalq təşkilatların və müşahidəçilərin seçki prosesini izləməsi Gürcüstan üçün mühüm faktordur. Seçkilərin nəticələri ölkənin xarici siyasətinə də təsir göstərə bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qərbin niyyəti Gürcüstanda sabitliyi pozmaqdır

Azərbaycanın qonşusu və tərəfdaşı olan Gürcüstan növbəti siyasi hadisə ərəfəsindədir. Sabah bu ölkədə parlament seçkiləri keçiriləcək. Bu seçki yalnız Gürcüstanda və regionda deyil, qlobal müstəvidə də böyük maraqla izlənilir və bu da səbəbsiz deyil. Eyni zamanda Qərb siyasi dairələrinin bu seçkidən istifadə etməklə Gürcüstandakı sabitliyi pozmaq niyyətində olduqları da göz önündədir.

Gürcüstanda keçirilən seçkilər Azərbaycanda da yaxından izlənilməkdədir. Çünki bu ölkə Azərbaycanın yaxın qonşusu olmaqla bərabər, həm də yaxın dostudur. Gürcüstan Azərbaycanın təşəbbüsləri ilə reallaşan enerji layihələrinin iştirakçısıdır. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" kimi Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaran kəmərlər məhz Gürcüstan ərazisindən keçir.

O cümlədən hər iki dövlət son dövrlərdə daha aktuallıq kəsb edən Orta dəhlizin inkişaf etdirilməsi yönündə səmərəli əməkdaşlıq edirlər. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ikitərəfli əlaqələri daha da dərinləşdirib. Azərbaycan həm də Gürcüstana ən çox sərmayə yatıran ölkələr sırasında yer alıb. SOCAR-ın xətti ilə Gürcüstanda görülən işlər bu ölkənin iqtisadiyyatının inkişafına, dövlət büdcəsinin formalaşmasına böyük töhfələr verir.

Ümumiyyətlə, Azərbaycan Gürcüstana qarşı hər zaman əsl dost münasibəti göstərib. Bu ölkənin çətin dönəmlərində Bakı Tbilisiyə kömək əlini uzadıb. Bu gün də Azərbaycan və Gürcüstan arasında hər iki dövlətin maraqlarına xidmət edən sıx münasibətlər var. Ona görə də Gürcüstandakı parlament seçkilərinin nəticəsi, mövcud siyasi kursun davam etdirilməsi, "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının qələbə qazanması, siyasi sabitliyin qorunub saxlanılması Azərbaycanın maraqlarına uyğundur.

Amma görünən odur ki, Gürcüstandakı seçkilərdən istifadə edib ölkədə siyasi sabitliyi pozmağa yönəlik planlar var. Belə ki, Gürcüstan hakimiyyətinin siyasi kursunu, onun müstəqil siyasətini qəbul etməyən Qərb qonşu ölkədə sabitliyi pozmaq üçün hərəkətə keçib. Bunun da səbəbi odur ki, Gürcüstan hakimiyyəti Qərbin avantürasına getmir. Məlum olduğu kimi, Qərb Gürcüstandan Rusiyaya ikinci cəbhənin açılmasına, habelə Tbilisinin bu ölkəyə qarşı sanksiyalara qoşulmasına çalışırdı. Xeyli müddət bununla bağlı təzyiqlər olsa da, Gürcüstan hökuməti Qərbin ölkədə sabitliyi pozacaq tələblərini qətiyyətlə yaxına buraxmadı, onun anti-Rusiya planlarına qoşulmadı.

Bir müddət əvvəl "Xarici təsirlər haqqında" və "Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanunların qəbulundan sonra isə Qərbin Gürcüstan hakimiyyətinə qarşı təzyiqləri daha da artdı. Hətta bu təzyiqlər şantaj formasında belə ifadə olunmaqdadır. Qeyd edək ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun Qərbdən maliyyələşən qeyri-hökumət təşkilatlarının qanunsuz fəaliyyətinin qarşısına sipər çəkib. Sözügedən qanuna əsasən QHT-lər maliyyəni haradan aldıqları və hansı məqsədlər üçün istifadə etdikləri barədə hesabat verməlidirlər. Gürcüstanda Qərbin "beşinci kolonu" olan QHT-lər aldıqları maliyyəni sağlam məqsədlər üçün deyil, ailə dəyərlərini sarsıdan, Gürcüstanda süni şəkildə daxili narazılığın yaradılmasına, vətəndaş qarşıdurmasına xidmət edən layihələrin reallaşdırılmasına yönəldirdilər. Bu baxımdan xüsusən "Xarici təsirlər haqqında" qanunun qəbulu Qərbin məkrli maraqlarına cavab vermədiyindən son aylarda həm ABŞ, həm Avropa İttifaqı Gürcüstana qarşı qarayaxma kampaniyasına başlayıblar. Aİ Gürcüstanın üzvlük prosesini faktiki olaraq dayandırıb. Habelə Aİ Gürcüstana yüksəksəviyyəli səfərlər etməmək və Gürcüstan hökumətinin nümayəndələri ilə Brüsseldə yüksəksəviyyəli görüşlər keçirməmək barədə qərar qəbul edib.

Gürcüstanda dövlətçilik maraqlarının keşiyində dayanan, ölkənin qlobal qarşıdurma meydanına çevrilməsinə imkan verməyən hökümətin mövcud olması Qərbin maraqlarına uyğun deyil. Ona görə seçkiləri fürsət bilən Qərb siyasi dairələri seçki günü və əsasən də seçkidən sonra ölkədə qarşıdurma yaratmağa çalışırlar.

Yəqin ki, bütün bunları Gürcüstan vətəndaşları da dəyərləndirəcək, hakim siyasi kursun ətrafında səfərbər olmaqla ölkəni yolundan döndərməyə çalışan Qərbin planlarını darmadağın edəcək və parlament seçkilərində Gürcüstanın inkişafına və sabitliyinə səs verəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# REGİONLAR

## Qazaxda keçirilən əmək yarmarkasında 130-dan çox vakansiya təqdim olunmuşdur



**Qazaxda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Məşğulluq Agentliyi tərəfindən işsiz və işaxtaran şəxslər üçün növbəti əmək yarmarkası keçirilmişdir.**

Yarmarkada 18 müəssisə tərəfindən 132 vakansiya təqdim edilmiş, işsiz və işaxtaran şəxslərin işəgötürənlərlə əlaqə yaratması və boş iş yerləri ilə tanış olması üçün geniş imkanlar yaradılmışdır.

Yarmarkada həmçinin işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq tədbirləri barədə də məlumat verilmiş, iş üçün müraciət edən şəxslərlə ilkin sorğular həyata keçirilmişdir. Yeni peşəyə yiyələnmək istəyən vətəndaşlara isə agentlik tərəfindən təşkil olunan kurslar barədə məlumat verilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvanda uşaqların kütləvi profilaktik müayinələrinə başlanılıb

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, oktyabrın 1-dən etibarən məktəblərdə uşaqların kütləvi profilaktik müayinələrinə başlanılıb.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu tədbirin əsas məqsədi uşaqların sağlamlığını qorumaq, onların inkişafını izləmək və potensial xəstəlikləri vaxtında aşkar edərək qarşısını almaqdır. Müayinələr mərhələli şəkildə həyata keçirilir. İlk olaraq şəhər, rayon və kənd məktəblərində, daha sonra isə məktəbəqədər təhsil müəssisələrində müayinələr təşkil olunacaq. Müayinələr zamanı pediatr, nevropatoloq, cərrah, travmatoloq-ortoped, oftalmoloq, LOR və stomatoloqlar uşaqların bədən çəkisi, göz sağlamlığı, boy artımı, sinir sistemi, diş və ağız boşluğu, sümüklərin inkişafı kimi göstəricilərini yoxlayırlar.

Tibbi tədbir çərçivəsində Ordubad şəhər tam orta internat məktəbində də şagirdlər arasında müayinələr aparılıb. Ümumilikdə 496 şagird tibbi müayinədən keçib, xəstəliyi aşkar olunanlara müalicə yazılıb və həkim məsləhətləri verilib.

Müayinələr dekabrın 1-dək davam edəcək.

# Burada sabahın qurucuları yetişir

### Söhbət Bərdə Dövlət Peşə Təhsili Mərkəzindən gedir

**Təhsilin inkişafı Ümummilli Lider Heydər Əliyevin ən böyük önəm verdiyi məsələlərdən biri idi. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə təhsilin təkmilləşməsinə, inkişafına dair strategiyalar hazırlanmış və onlar uğurla həyata keçirilmişdir. Bu zəngin irsin layiqli davamçısı Prezident İlham Əliyev də təhsilə, o cümlədən peşə təhsilinə xüsusi diqqətlə yanaşır.**









44 günlük Vətən müharibəsində qazandığımız Zəfərdən sonra Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın başlanması, bu yerlərdə həyatın dirçəldilməsi, "ağıllı kənd və şəhərlər"in salınması bir sıra peşələrin hazırlanması məsələsini gündəmə gətirdi və sözsüz ki, bu sahədə əsas iş peşə məktəblərinin öhdəsinə düşdü.

Ölkəmizdə fəaliyyət göstərən belə təhsil və peşə ocaqlarından biri də Bərdə Dövlət Peşə Təhsil Mərkəzidir. Qeyd etmək lazımdır ki, 2020-2021-ci tədris ilindən başlayaraq vətəndaşlara elektron portal üzərindən sərbəst, ödənişsiz qeydiyyatdan keçərək PTM-lərə qəbul olmaq şansının verilməsi bu mərkəzin fəaliyyətinə də müsbət təsir göstərib. Mərkəz 1952-ci ildə Bərdə MTS-nin nəzdində mexanizasiya məktəbi adı altında fəaliyyətə başlayıb. 1966-cı ildən isə lisey statusu altında fəaliyyətini davam etdirib.

2016-cı ildə peşə təhsili və təliminin inkişafına dair strateji Yol Xəritəsi təsdiq ediləndən, Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılandan və nəhayət, 2018-ci ildə peşə təhsili haqqında qanun qəbul olunduqdan sonra - 2016-2022-ci illərdə Bərdə Dövlət Peşə Təhsil Mərkəzində (DPTM) modernləşmə layihəsi həyata keçirildi. Layihənin başa çatmasından sonra - 2021-ci ildə Prezident İlham Əliyevin mərkəzin açılışında iştirak etməsi məktəbdə tədrisin səviyyəsinin daha da yüksəlməsinə əhəmiyyətli təsir göstərdi. Təsir həmçinin müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artımında hiss olundu.

Modernləşdirmə layihəsindən sonra mərkəzin maddi-texniki bazası genişlənmiş və infrastrukturu yenilənmişdir. 1200 tələbə üçün tədris binası, 18 təlim emalatxanası, 3 fənn laboratoriyası, 57 sinif otağı, 2300 kitab olan kitabxana, hər biri 100 nəfərlik qız və oğlanlar üçün 2 yataqxana, 2 hektarlıq istixanası, 50 hektar təlim-təsərrüfat torpağı, qapalı idman zalı, açıq idman meydançaları, 400 nəfərlik akt zalı, 150 nəfərlik yeməkxanası, STEAM və Karyera İnkişaf mərkəzləri olan DPTM-də iqtisadiyyatın 8 peşə sahəsi üzrə tədris aparılır. Bunlar iqtisadiyyat və xidmət, kənd təsərrüfatı, energetika və informasiya texnologiyaları, metallurgiya, maşınqayırma və metal emalı, nəqliyyat vasitələri, inşaat və ilkin tələbat və ərzaq mallarının texnologiyası, kimyəvi və biokimyəvi texnologiyasıdır. Mərkəzdə 54 qrupda 40 ixtisas üzrə 1228 tələbə təhsil alır. 2024-2025-ci tədris ilində mərkəzin tələbə qəbulu planına "Dronların texniki xidməti və təmiri üzrə mütəxəssis", "Suvarma maşınları və nasos qurğuları maşinisti", "İnteryer dizayneri" kimi yeni ixtisaslar da əlavə olunmuşdur. Mərkəzdə Yüksək Texniki Peşə, Texniki Peşə və İlk Peşə təhsili pillələri üzrə tədris aparılır.

Layihənin icrasından sonra mərkəz bir çox nailiyyətə imza atmışdır. Onların arasında yerli və beynəlxalq əməkdaşlıqları vurğulamaq lazımdır. Bərdə DPTM Mingəçevir Dövlət Universiteti, Dövlət Məşğulluq Agentliyi, KOBİA, eləcə də Türkiyənin Bursa Həmidiyyə Texniki Anadolu Liseyi, Estoniyanın Jarvarmaa liseyi, Birləşmiş Millətlərin İnkişaf proqramı, Asiya Bankı, Erasmus+, AgriKontakte Almaniya Təcrübə Proqramı ilə sıx əməkdaşlıq edir. Yeri gəlmişkən, qeyd edək ki, 2022-2023-cü tədris ilində mərkəzin 3 tələbəsi Almaniyanın müxtəlif bölgələrində kənd təsərrüfatı üzrə təcrübə layihəsi çərçivəsində təcrübə keçmişdir. Bundan əlavə, mərkəzin tələbələri və mühəndis-pedaqoji heyəti Türkiyə və Estoniyada təcrübədə olmuşlar. DPTM-in STEAM mərkəzinin tələbələri isə yerli və beynəlxalq yarışlarda uğurlu nəticələr qazanmışlar. Mərkəz eyni zamanda həm regionda, həm də ətraf bölgələrdə müxtəlif festivallara qatılır və bir çox mötəbər tədbirə bacarıqla evsahibliyi edir.

Bərdə DPTM-in direktoru Samir Nəcəfov söhbət zamanı mərkəzin hədəflərindən söz açdı:

- Bu peşə və təhsil ocağının yarandığı vaxtdan missiyası regionun əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanması olub. Mərkəzin gələcəyə baxış prespektivləri, çatmaq istədiyi əsas hədəf işəgötürənlərlə sıx əməkdaşlıq quraraq qarşılıqlı dəstək formasında kadr hazırlığı aparan peşə tədris müəssisəsinə çevrilməkdir. Eyni zamanda məqsəd kənd təsərrüfatı ixtisasları üzrə kompetensiya mərkəzi statusu qazanmaqdır. Peşə öyrədən qısamüddətli təlim kurslarının təşkil edilməsini də diqqət mərkəzində saxlayırıq. Dövlətin yaratdığı əlverişli, açdığı geniş imkanlardan maksimum istifadə edərək qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq. Qazanılan uğurlar bizi qətiyyən arxayınlaşdırmır, əksinə, dövlət və xalq qarşısında məsuliyyətimizi daha da artırır.

Bərdə Dövlət Peşə Təhsili Mərkəzi müasir görkəmi, səliqə-sahmanı ilə diqqət çəkir. Nizam-intizam hər addımda duyulur. Ən əsası odur ki, burada ölkə iqtisadiyyatının müxtəlif sahələri üçün peşəkar kadrlar hazırlanır. Heç şübhəsiz ki, mərkəzdə zəruri ixtisaslara yiyələnən gənclər sabah Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunmuş kəndlərinin, şəhərlərinin yenidən qurulmasında iştirak edəcəklər. Şəhidlərimizin qanı ilə suvarılan, azadlığa qovuşan vətən torpağı məhz qurucu yeni nəslin hünəri ilə cənnətə çevriləcək.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Kənd təsərrüfatı məhsullarının istehsalında və ixracında artım var

**Ölkəmizdə həyata keçirilən aqrar islahatların iki əsas hədəfi var: birincisi, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək. Bu sahədə artıq ciddi bir problemimiz yoxdur.**



İkinci hədəfimiz isə bu növ məhsulların ixracını artırmaqdır. Son zamanlar ixracda kənd təsərrüfatı məhsullarının çəkisinin artması göstərir ki, bu sahədə də uğurlarımız az deyil.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın oktyabr ayı üçün açıqladığı ilkin rəqəmlərdə qeyd edilir ki, cari ilin yanvar-sentyabr ayları ərzində ölkə üzrə yeyinti məhsullarının ixracının dəyəri 13,3 faiz artaraq 698,3 milyon dollara bərabər olub. İlin 9 ayı ərzində ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 83,3, pambıq lifi 70,9, bitki mənşəli yağlar və piylər 31,7, spirtli və spirtsiz içkilər 11,6, emal edilən meyvə-tərəvəz məhsulları 14,6 faiz artıb. Bu dövrdə aqrar-sənaye məhsullarının ixracının dəyəri də 60 faiz artaraq 233,4 milyon dollara çatıb. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 17,8 faiz artaraq 755,4 milyon dollar olub.

Milli Məclisin deputatı, iqtisadçı alim Vüqar Bayramov qeyri-neft məhsulları ixracındakı artımla bağlı bildirib: "Bu ilin 9 ayındakı artıma mövsümi faktorlarla yanaşı, aqrar məhsulların ixracatının çoxalması də təsir göstərib. Bütün bunlarla yanaşı, yenə də qeyri-neft məhsullarının ixracat bazarlarının şaxələndirilməsi prioritet olaraq qalmaqdadır. Belə ki, daha çox məhsul ixrac etdiyimiz bazarlarda alıcılıq qabiliyyəti və milli valyutaların məzənnələri də ixrac dövriyyəsinə təsir göstərir. Qeyri-neft-qaz məhsulları ixracatımızın yarıdan çoxu iki ölkənin payına düşür. Neftsiz ixracatın 34,5 faizi Rusiyaya, 18,1 faizi isə Türkiyəyə yönəlib. Yeni bazarlara, xüsusən Avropa İttifaqı və körfəz ölkələrinə daha çox qeyri-neft məhsullarının satışı enerjisiz ixrac dövriyyəsinin dayanıqlılığı baxımından da vacibdir".

O ki qaldı istehsala, Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə ümumi dəyəri 10 milyard 418,5 milyon manat olub. Onun da 4 milyard 881,2 milyon manatlığı heyvandarlıq, 5 milyard 537,3 milyon manatlığı bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsal 0,8, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,4, bitkiçilik məhsulları üzrə 0,3 faiz artıb. Bu dövrdə bitkiçilik məhsullarından bostan məhsullarının istehsalında 12, şəkər çuğunduru istehsalında 80,6, üzüm istehsalında 6,3, günəbaxan istehsalında 12,4, pambıq istehsalında 38,1, tütün istehsalında 43,1, yaşıl çay yarpağının yığılmasında 3,7 faiz artım qeydə alınıb. Heyvandarlıqda isə ət istehsalı 1, süd istehsalı 0,7, yumurta istehsalı 5,6 faiz artıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Heyvandarlıq sığortası üzrə 2,5 milyon manat ödənilib

### 300 min baş qaramal identikləşdirilərək AQTİS-ə daxil edilib

**Heyvandarlıq həm çətin, həm də gəlirli sahədir. O səbəbdən aqrar sahənin bu sektoruna dövlət səviyyəsində də böyük diqqət və dəstək verilir. Əsas məqsəd isə əhalinin sağlam və təmiz yerli heyvandarlıq məhsulları ilə təminatıdır.**

Azərbaycanın təsərrüfat subyektlərində hazırda 2,5 milyon başdan çox qaramal var. Onların 300 min başa yaxını identikləşdirilərək Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sisteminə (AQTİS) daxil edilib. Bu barədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev məlumat verib. Onun sözlərinə görə, hazırda ölkə üzrə qaramal heyvandarlıq təsərrüfatlarının strukturuna 537 min 721 təsərrüfat subyekti daxildir: "Qaramalın 92 faizi 10 başadək heyvanı olan xırda təsərrüfatlarda cəmləşib. Bunun təxminən 39 faizi 1-2, 30 faizə yaxını 3-4, 20 faizi 5-9, az bir hissəsi isə 50 başdan yuxarı heyvan saxlanılan təsərrüfatlardır. Hazırda ölkəyə müxtəlif məqsədlərlə, yəni həm damazlıq, həm də kəsim üçün gətirilən heyvanların idxaldan öncə identikləşdirilməsi bir şərt kimi qarşıya qoyulub. Yalnız belə olan halda gətirilən heyvanlar bizim qeydiyyat sisteminə daxil olunur".

Aqrar Sığorta Fondu (ASF) indiyə qədər heyvandarlıq sığortası üzrə 2,5 milyon manat ödəniş edib. Fonddan bildirilib ki, son məlumata görə, vəhşi heyvanların hücumu ilə bağlı 20-yə yaxın hadisə qeydə alınıb və ödəniş olunub. Təkcə bu ilin 7 ayında vəhşi heyvanların təsərrüfatlara hücumu ilə bağlı 8 hadisə qeydə alınıb, 8 baş kənd təsərrüfatı heyvanı tələf olub və ona görə fermerlərə ümumilikdə 37485 manat ödənilib. Yeri gəlmişkən, xatırladaq ki, 2022-ci ildə heyvandarlıq sığortası üzrə 710 min, 2023-cu ildə 910 min, 2024-cü ilin 8 ayında 770 min manat sığorta ödənişi edilib.

Bir daha vurğulayaq ki, ölkəmizdə aqrar sığorta haqqına 50 faizlik dövlət dəstəyi mövcuddur, başqa sözlə, kənd təsərrüfatı bitkilərinin və heyvanlarının sığortası zamanı hesablanmış sığorta haqqının yarısını dövlət ödəyir. Sığorta haqqı heyvanın qiymətinə əsasən hesablanır, tarif 5,2-8,2 faiz arasında dəyişir. Belə ki, 300 manatlıq qoyun və ya keçinin illik sığortası 8-12, 1000 manatlıq qaramalın sığorta haqqı 26-41 manat civarındadır. 2000 manatlıq inək üçün isə sığorta haqqı 52-82 manat arasında dəyişir. Hadisə baş verərsə, yəni məsələn, vəhşi heyvanların hücumu nəticəsində heyvan tələf olarsa, sahibi onun qiymətinin 90 faizi qədər ödəniş alır. Məsələn, 300 manatlıq qoyun tələf olarsa, fermerə 270, 2000 manatlıq inək tələf olduqda 1800 manat sığorta pulu verilir.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## İsmayıllıda "ASAN xidmət" göstərilir

**Səyyar "ASAN xidmət" avtobusu oktyabrın 16-dan etibarən İsmayıllı şəhəri Heydər Əliyev prospekti, 55-də vətəndaşlara xidmət göstərir.**



"ASAN xidmət"dən bildirilib ki, İsmayıllı rayonunda, ümumiyyətlə, 17 dəfə səyyar avtobus vasitəsilə xidmət gerçəkləşib. Bu dövr ərzində 61463 vətəndaş müraciəti daxil olub.

Səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur. Hazırda İsmayıllı rayonunda fəaliyyət göstərən Səyyar ASAN avtobusunun növbəti dayanacağı Ağdaş rayonu olacaq.

2013-cü ildən həyata keçirilən Səyyar "ASAN xidmət" vasitəsilə, ümumilikdə, 3 milyondan çox, 2024-cü ildə isə 136 min 931 vətəndaş müraciəti daxil olub.

Xatırladaq ki, "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlardakı əhaliyə xidmətlərin çatdırılması və onların mərkəzlərə gəlmədən xidmətlərdən yararlanması üçün xüsusi təchiz edilən 10 xüsusi avtobus vasitəsilə səyyar formada əhaliyə xidmət göstərilir. Əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.





# Mədəniyyət





Böyük sənətkar

# "Əbədiyyət nəğməsi"

**…1942-ci il avqustun 17-də Bakının köhnə məhəllələrinin birində yaşayan Məhəmməd və Ayşat Maqomayevlər ailəsinin ilki dünyaya gəldi. Adını Müslüm qoydular. Bu, 5 il əvvəl - 1937-ci ildə dünyadan köçmüş babasının - Azərbaycanın mədəniyyət tarixində böyük xidmətləri olan görkəmli şəxsiyyətin adı idi.**



Onun doğulduğu il İkinci Dünya müharibəsinin ən ağır dönəmlərinə təsadüf edirdi. İnsanlar hər şeydən əvvəl müharibənin tezliklə bitməsini, uşaqların sülh, əmin-amanlıq içində yaşamasını arzu edirdilər. Bu, cəbhədən ataların qara kağızının gəldiyi, ailələrin gözüyaşlı və ağır məhrumiyyətlər içində qaldığı, bir parça çörəyin belə çətinliklə tapıldığı o çətin, məşəqqətli günlərdə hər bir kəsin adidən-adi istəyi idi…

Günlər elə çətin və naümidlik içində keçirdi ki, insanlar gələcək barədə bundan artığını düşünə bilmirdilər…

Atası Məhəmməd Maqomayev teatr rəssamı idi. Tanıyanlar onu şair ruhlu romantik insan kimi xatırlayırdılar. Milyonlarla sovet gənci kimi cəbhəyə döyüşə yollanan Məhəmməd 1945-ci ildə - müharibənin başa çatmasına cəmi 15 gün qalmış Berlin yaxınlığında qəhrəmancasına həlak oldu. Polşada dəfn edildi. Müslüm yalnız 1973-cü ildə bu ölkədə qastrol səfərində olanda atasının məzarını axtarıb tapmış, uşaqlığından bəri qəlbində dolaşan ağrını bununla az da olsa, ovutmuşdu.

Anası Ayşat Maqomayeva isə aktrisa idi. Maykop şəhərində anadan olmuşdu. Cəbhədən ərinin qara kağızı gələndən az sonra o, Maykopa qayıtmalı oldu. Sonra Tver vilayətinin Vışnıy Voloçka şəhərinə köçdü. Burada teatrda çalışmağa başladı. Müslüm isə Bakıda nənəsi Baydigül xanımın və əmisi Camal Maqomayevin himayəsində qaldı. Evdəki sənət mühiti balaca Müslümə öz təsirini göstərirdi. O, çox erkən yaşlarından royalda ifa etməyi öyrənməyə başlamışdı. 1949-cu ildə 7 yaşlı Müslümü Bakı Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbinə qoydular.

## İlk mahnı, ilk səhnə

Müslüm musiqi məktəbinin 6-cı sinfində oxuyanda "Marina" adlı ilk mahnısını yazır. Səhnəyə isə ilk dəfə 15 yaşında - Bakıdakı Dənizçilər klubunda çıxır. Musiqi məktəbini başa vurduqdan sonra M.Maqomayev Bakı Konservatoriyasının vokal sinfinə daxil olur və musiqi təhsilini daha ali səviyyədə davam etdirməyə başlayır.

Bakı Konservatoriyasının böyük zalında Rossininin "Seviliya bərbəri" operasından "Fiqaronun ariyası"nı müvəffəqiyyətlə ifa etdikdən sonra gənc Müslümün qeyri-adi istedadı musiqi ictimaiyyətinin diqqətini cəlb edir və o, vokal sahəsində sürətlə irəliləyir. 19 yaşında Müslüm musiqi karyerasında ilk böyük uğurlardan birini qazanır. 1962-ci ildə Finlandiyanın paytaxtı Helsinki şəhərində keçirilən Gənclərin və Tələbələrin VIII Ümumdünya Festivalında müvəffəqiyyətlə çıxış edir. Bu festivala o, maestro Niyazinin tövsiyəsi və dəstəyi ilə getmişdi. Festivaldan Vətənə gətirdiyi medalla o, maestronu da, bu istedadlı gəncin gələcəyinə ümid bəsləyən başqalarını da sevindirir. Bütün ittifaqda populyar olan "Oqonyok" jurnalı onun festivaldakı çıxışına məqalə həsr edir. "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalə Müslüm Maqomayevin portreti ilə dərc olunur.

1963-cü ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərindəki uğurlu çıxışından sonra isə Müslümün məşhurluğu daha da artır. Sovet dinləyiciləri Müslümün simasında o dövrün estradasının yenicə parlayan ulduzunu kəşf edirlər. Həmin konsertdə SSRİ-nin mədəniyyət naziri Yekaterina Furtseva, məşhur ifaçı İvan Kozlovski, Kommunist Partiyasının tanınmış simaları gənc müğənnini dinləyirdilər. 1963-cü ilin noyabrında Moskvadakı Çaykovski adına Konsert Zalında verdiyi solo-konsertdən sonra isə artıq bütün Sovet İttifaqında onu tanıdılar.

1960-cı ildə o, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti kimi çalışırdı. Müslüm Maqomayev elə yaradıcı şəxsiyyətlərdən idi ki, yalnız fitri istedadına güvənmirdi. Daim öz üzərində çalışar, gərgin zəhməti ilə istedadını daim cilalayardı. O, təhsilə, peşəkar musiqi xadimlərinin ustad dərslərinə də istedadını inkişaf etdirməyin əsas vasitəsi kimi baxardı.

Gənc Müslümün nadir səsi, qeyri-adi istedadı təbii ki, Azərbaycanın musiqi ictimaiyyətinin də diqqətində idi. Maestro Niyazi kimi başqa sənətkarlarımız da ona rəğbət bəsləyir, sənətdəki hər addımına göz qoyur, onu ifaçılığa düzgün yönəltməyə çalışırdılar. Beləliklə, Müslüm ustadların mühitində ifa qabiliyyətini daha da təkmilləşdirir, tembrini, repertuarını, səhnə davranışlarını zənginləşdirirdi.

İtaliyada musiqi təhsili almaq onun ən böyük arzularından idi. 1964-cü ildə 22 yaşlı Müslüm Maqomayev bu arzusuna çatır. 1964-cü ildə onu İtaliyanın Milan şəhərindəki "La Skala" teatrında təcrübə keçməyə göndərirlər. Burada bir il təcrübədə olur.

Hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanan, onları dinləyə-dinləyə bu ustadlardan vokal dərsləri alan Müslümə İtaliya nağıl kimi gəlirdi. O, uşaqlıq xəyallarına qovuşmuşdu, Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylər artıq onun real həyatında idilər. İtaliyada böyük yaradıcılıq perspektivlərini görüb bu istedadlı gəncə orada qalmağı, opera müğənnisi kimi fəaliyyət göstərməyi təklif etmişdilər. Bu, yaxın gələcəkdə bütün dünyada opera müğənnisi kimi məşhurlaşmaqdan ötrü çox böyük bir imkan idi. Amma Müslüm Maqomayev Vətənə qayıtmağı, musiqi mədəniyyətimizə töhfə verməyi üstün tutmuşdu.

## Azərbaycanın dünyada eşidilən səsi

Artıq bu istedadlı həmvətənlimizin səsi beynəlxalq konsert salonlarından eşidilirdi. Müslüm Maqomayevin simasında xalqımızın səsi, ünü dünyaya yetişirdi. 1966-cı ildə o, Parisin "Olimpiya" konsert salonunda ilk konsertini verdi və bu uğurlu çıxışı böyük rəğbətlə qarşılandı. Bu çıxışdan sonra Müslüm Maqomayevə Parisdə qalmaq təklifi gəldi, amma bundan da boyun qaçırdı. Həmin illərdə o, Moskvadakı Böyük Teatrın truppasına qoşulmaq təklifini də qəbul etməmişdi. Çünki bütün həyatı Azərbaycana, Bakıya bağlı olan Müslüm Maqomayev öz yaradıcılıq potensialını məhz vətənində reallaşdırmaq istəyirdi.

Müslüm 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını başa vurdu. 1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Mahnı Festivalında mükafat qazandı. Müslüm Maqomayevlə görkəmli pianoçu Rauf Atakişiyev arasında dostluq əlaqələri vardı və onların yaxından əməkdaşlığı yeni sənət uğurlarına yol açırdı. İtaliyadan əsl Fiqaro kimi qayıtmış Müslümün "Seviliya bərbəri" operasındakı hər çıxışı anşlaqla keçir, Bakı tamaşaçıları bu rolun mahir ifaçısını alqışlar selinə qərq edirdilər.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi Müslüm Maqomayevin musiqi karyerasında xüsusilə böyük rol oynadı. Heydər Əliyevin M.Maqomayev sənətinə böyük sevgisi vardı. Ulu Öndər bu gənc sənətkara hər cür qayğı göstərirdi. Müslüm Maqomayevin cəmi 31 yaşında keçmiş SSRİ-nin ən yüksək sənət mükafatını - SSRİ xalq artisti adını alması ittifaq miqyasında ona qədər görünməmiş hadisə kimi bir tərəfdən Müslümün qeyri-adi istedadının, onun sənətinə olan ümumxalq sevgisinin nəticəsi idisə, digər tərəfdən də Heydər Əliyevin dəstəyinin ifadəsi idi.

Azərbaycan Prezidenti İlham Əliyev böyük sənətkarın 80 illik yubileyində bu barədə demişdi: "Artıq gənc yaşlarında ümumittifaq şöhrəti qazananda, əlbəttə ki, atam Heydər Əliyev də onun fəaliyyətinə çox böyük diqqət yetirirdi, böyük qayğı göstərirdi. Deyə bilərəm ki, ona atalıq qayğısı göstərirdi. Çünki onu həm böyük müğənni kimi, həm də çox gözəl insan kimi tanıyırdı. Hər birimiz Müslümü məhz həm böyük sənətkar, müğənni, bəstəkar və ən başlıcası, gözəl insan, ləyaqətli insan, çox etibarlı dost kimi tanıyırdıq". O, Azərbaycan Ali Sovetinin deputatı olmuş, respublikanın və keçmiş ittifaqın bir sıra yüksək orden və medalları ilə təltif edilmişdi. Belə ki, 1964-cü ildə Azərbaycan SSR-in Əməkdar artisti olan Müslüm Maqomayev 1971-ci ildə "Qırmızı əmək bayrağı" ordeninə, eyni ildə Azərbaycan SSR Xalq artisti adına, bundan iki il sonra - 1973-cü ildə SSRİ Xalq artisti adına, 1980-ci ildə "Xalqlar Dostluğu" ordeninə layiq görülmüşdü. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərlik illərində də Müslüm Maqomayevə daim böyük diqqət göstərmiş, böyük sənətkarı 1997-ci ildə "Şöhrət", 2002-ci ildə "İstiqlal" ordenləri ilə təltif etmişdi, 2002-ci ildə ona Rusiyanın "Şərəf" ordeni də təqdim olunmuşdu.

## Sovet estradasının ən parlaq ulduzu

1975-ci ildən Müslüm Maqomayev Azərbaycan Dövlət Estrada Simfonik Orkestrinin bədii rəhbəri vəzifəsində çalışırdı. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərlərində, Fransada, Bolqarıstanda, Polşada, Finlandiyada, Kanadada və İranda konsertlər vermişdi. Ötən əsrin 70-ci illərindən həyatını bağladığı estrada ona xüsusilə böyük populyarlıq qazandırmışdı. O illərdə Müslüm Maqomayev artıq şöhrətin zirvəsində idi. Onun konsertlərində hətta salondakı pillələrin üstü də tamaşaçılarla dolu olurdu. Böyük stadionlar belə Müslüm sənətinin pərəstişkarlarını tutmurdu.

Müslüm Maqomayev nə oxuyurdusa, sevgi ilə oxuyurdu, ona görə cismani yoxluğu dövründə də ona olan rəğbət getdikcə artırdı. Bu böyük sənətkarı həyatda görməyən yeni nəsillər də onun məhəbbət dolu nəğmələrini sevə-sevə dinləyir, şəxsiyyətinə böyük ehtram bəsləyirlər.

Ona olan sevginin digər bir səbəbi də budur ki, hər kəs axtardığını Müslüm Maqomayev sənətində tapa bilir. O, operalardan ən çətin ariyaları da, qəlblərə məlhəm kimi yayılan lirik mahnıları da böyük ustalıqla, özünə xas yüksək artistizmlə ifa edirdi. Müslüm Maqomayevin repertuarında 600-dək əsər var. Populyar mahnılarla yanaşı, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları da məharətlə səsləndirirdi.

Müslüm Maqomayevi sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, simvolu adlandırırdılar. Keçmiş SSRİ-də klassik ariyaları və mahnıları estradaya məhz Müslüm gətirmişdi.

Müslüm Maqomayev böyük müğənni olmaqla yanaşı, özü də bəstəkar kimi bir-birindən gözəl mahnıların müəllifidir. 20-dən çox mahnının, kinofilmlərə yazılan musiqinin müəllifidir. Onun Xalq şairi Nəbi Xəzrinin şeirinə bəstələdiyi və dillər əzbəri olan əzəmətli "Azərbaycan" mahnısı ölkəmizə ithaf olunmuş ən gözəl əsərdir. Müslüm Maqomayevin yüksək aktyorluq istedadı da vardı. O, "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" filmlərində çəkilmişdi.

Unudulmaz sənətkarımız Azərbaycanı, Bakını çox sevirdi. Elə 2007-ci ildə ölümündən bir müddət əvvəl lentə aldığı son mahnılarından biri də məhz "Əlvida, Bakı!" adlanır. Bu mahnıdan qısa müddət sonra Müslüm Maqomayev 25 oktyabr 2008-ci ildə dünyasını dəyişdi və Bakıdakı Fəxri xiyabanda dəfn edilərək ruhu da cismi kimi doğma torpağa qovuşdu.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Müslüm Maqomayevin 70, 75, 80 illik yubileyləri ən yüksək səviyyədə qeyd edilib. Bu gün dünyanın müxtəlif məkanlarında Müslüm Maqomayev sevgisini əbədiləşdirən küçələr, heykəllər, barelyeflər var. Dünya sularında Müslüm Maqomayevin adını daşıyan gəmi üzür. Doğma Bakıda, böyük sənətkarın "Əbədiyyət nəğməsi"nin ünvanı olan Xəzərin qoynunda Azərbaycanın bu görkəmli oğlunun heykəli ucalır. Heykəl ona, onun oxuduğu nəğmələrə olan əbədi sevginin abidəsidir. Amma bu abidə təkcə Xəzərin qoynunda qərar tutmur, Müslüm Maqomayev sənətinə rəğbət bəsləyən hər kəsin qəlbində ucalır. Nə qədər ki, nəğmələri var, Müslüm Maqomayev də yaşayacaq və dünyaya, insanlara əbədi sevgisini yetirəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Sankt-Peterburqda Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət musiqi gecəsi keçirilib

Sankt-Peterburqun Dövlət Akademik Kapellasında Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət möhtəşəm simfonik musiqi gecəsi keçirilib.



Gecədə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri və baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin rəhbərliyi ilə Dövlət Kapellasının orkestri və azərbaycanlı bəstəkar və pianoçu Tamilla Əhədova çıxış ediblər.

İlk dəfə Sankt-Peterburqda Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsi, eləcə də N.A.Rimski-Korsakovun "Şəhrizad" (skripkada solo - Anton Çausovski) və K.Sen-Sansın "Samson və Dalila" operasından nümunələr səslənib.

Vacib premyeralarından biri isə gənc bəstəkar Tamilla Əhədovanın öz ifasında həmin gecə səsləndirdiyi fortepiano və orkestr üçün konsert olub. Əsər Rusiyada ilk dəfə səsləndirilib. Böyük maraq və həyəcanla qarşılanan əsərin ifasından sonra dinləyicilərin diqqətini nəzərə alaraq Tamilla Əhədova fortepiano üçün bəstələdiyi kompozisiyaları təqdim edib.

Qeyd edək ki, konsertin tam anşlaqla keçməsi və biletlərin əvvəlcədən əldə olunması azərbaycanlı musiqiçilərin Sankt-Peterburq Kapellası kimi mötəbər salonda çıxışına olan marağın bariz nümunəsidir.

# Berlində alman tədqiqatçının "Bakı Memarlıq Bələdçisi" kitabının təqdimatı keçirilib

Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Almaniyadakı səfirliyi tərəfindən alman memarlıq mütəxəssisi Hayke Maria Yohenninqin (Heike Maria Johenning) alman dilində çapdan çıxan "Bakı Memarlıq Bələdçisi" kitabının təqdimatı keçirilib.




Təqdimat mərasimində çıxış edən səfir Nəsimi Ağayev Şərq ilə Qərbin qovuşuğunda, sivilizasiyaların təmas nöqtəsində yerləşən Bakının coğrafi mövqeyinin onun bənzərsiz memarlıq üslubuna mühüm təsir göstərdiyini vurğulayıb. Diplomat Şərq və Qərb memarlığının parlaq nümunələrinə evsahibliyi edən Bakının məhz bu baxımdan dünya memarlığının mərkəzlərindən birinə çevrildiyini diqqətə çatdırıb, xüsusilə son dövrlərdə müasir üslubda memarlıq incilərinin inşa edildiyini bildirib. Səfir Bakının memarlıq incilərinin yaradılmasına alman memarların da öz töhfələrini verdiklərini xüsusi vurğulayıb. N.Ağayev bu xüsusda 1898-1902-ci illərdə Bakı şəhərinin meri olmuş alman mənşəli memar Nikolaus fon der Nonnenin şəhərin özünəməxsus memarlıq üslubunun formalaşmasında göstərdiyi xidmətləri qeyd edib.

On il ərzində Bakının memarlıq üslubunu araşdırdığını deyən nəşrin müəllifi Hayke Maria Yohenninq Avropa memarlığının bu şəhərdəki izləri barədə geniş məruzə ilə çıxış edib. O, XIX əsrin sonu - XX əsrin əvvəllərində neft bumu dövründə sürətlə inkişaf edən Bakıda tikilən gözəl memarlıq inciləri barədə danışıb. Müəllif məhz bu dövrdə "Art Nouveau" memarlıq üslubunun Bakı şəhərində qeyri-adi inkişafa nail olduğunu xüsusi vurğulayıb. H.Yohenninq ən müxtəlif memarlıq üslublarını özünəməxsus və ahəngdar şəkildə birləşdirən Bakının nadir gözəlliyi ilə daim fərqləndiyini bildirib.

Berlindəki "DOM" nəşriyyat evi tərəfindən nəfis tərtibatda çap edilən kitabda Bakı şəhərinin memarlığının tarixi, inkişafı, görkəmli memarlıq nümunələri, alman memarlarının töhfələri barədə ətraflı məlumat verilir. Nəşrdə Bakının bənzərsiz memarlıq üslubunun tanınmış nümunələrinin fotoşəkilləri də oxuculara təqdim edilir.

# Musiqişünas-alimin 70 illik yubileyi qeyd olunub

"Musiqişünas-alim Fəttah Xalıqzadənin yaradıcılığı Azərbaycan musiqişünaslıq elminin mühüm bir qolunu təşkil edir. Çünki o, əsası dahi Üzeyir bəy Hacıbəyli tərəfindən qoyulan etnomusiqişünaslıq istiqamətində çox dəyərli tədqiqatlar aparıb. Odur ki, alimin musiqi mədəniyyətimizə bəxş etdiyi bir çox töhfə var".



Bu fikirlər Azərbaycan Bəstəkarlar İttifaqında Fəttah Xalıqzadənin 70 illik yubileyinə həsr olunan elmi-praktik konfransda səslənib.

Konfransda Bəstəkarlar İttifaqının sədri professor Firəngiz Əlizadə tanınmış alimin yaradıcılığından danışaraq onun fəaliyyətinin musiqi elmi üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Tədbirdə "Fəttah Xaliqzadənin elmi yaradıcılığına bir nəzər", "Fəttah Xalıqzadənin pedaqoji fəaliyyəti", "Fəttah Xalıqzadədən etdiyim iqtibaslarım" və "Fəttah Xalıqzadənin "Üzeyir Hacıbəyli və xalq musiqisi" kitabı etnomusiqişünaslıq elminə bir töhfədir" mövzularında məruzələr dinlənilib.

Bədii hissədə isə Niyazinin "Arzu" romansı və Əməkdar artist Emil Əfrasiyabın ifasında Üzeyir bəy Hacıbəylinin musiqi əsəri səslənib.

# Türk Mədəniyyəti və İrsi Fondunda İştvan Mandoki Konqurun 80 illiyi qeyd edilib

Türk Mədəniyyəti və İrsi Fondu Macarıstanın Azərbaycandakı səfirliyi ilə birgə Macarıstanın nüfuzlu türkoloqlarından sayılan, bu il 80 illiyi qeyd edilən İştvan Mandoki Konqura həsr olunmuş tədbir keçirib.



Fondun qərargahında təşkil olunan tədbirdə türk dövlətlərinin Azərbaycandakı səfirləri və diplomatları, Xarici İşlər və Mədəniyyət nazirliklərinin nümayəndələri, eləcə də elmi dairələrin təmsilçiləri iştirak ediblər.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, professor Aktotı Raimkulova təşkilatın müşahidəçi dövləti olan Macarıstanın dilçilik və etnoqrafiya sahəsində tanınmış alimi İştvan Mandoki Konqurun nailiyyətlərindən söz açıb, alimin ömrünü əsasən türk xalqlarının mədəniyyətinin, dilinin və tarixinin araşdırılmasına həsr etdiyini deyib. A.Raimkulova Mandokinin türkologiyanın inkişafına verdiyi töhfələr sayəsində bir körpü yaratdığını bildirərək, öz elmi əsərləri ilə macar-türk dostluğunu möhkəmləndirdiyini vurğulayıb.

Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Torma çıxışında ölkəsinin 2018-ci ildən etibarən Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olduğunu diqqətə çatdırıb. O, Macarıstanın türk dövlətlərinin, xalqlarının birliyinə çox önəm verdiyini qeyd edib. Sonra tədbirdə Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, Qırğız Respublikasının Azərbaycandakı səfiri Maksat Mamıtkanov ölkələrimiz arasındakı mövcud qardaşlıq və dostluq əlaqələrinin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 25 aprel (Cümə günü) tarixli 166-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 24 rəcəbül-mürəccəb sənə 1337.
25 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## BAKI İCTİMAİ YIĞINCAĞI YAY KLUBUNDA MÜSAMİRƏ

Şənbə günü aprel ayının 26-sında Bakı Politexnikum məktəbinin Mütəalimləri [şagirdləri] İttifaqı tərəfindən tərtib veriləcək müsamirədə [konsertdə] kabare, rus və türk dilində pyeslər. Mahir rəqqaslar və sazəndələr iştirak edəcəkdirlər. Bunlardan əlavə **Yevropa və Asiya rəqsləri,** lotereya və torq [auksion] dəxi olacaqdır. Müsamirə başlanacaq axşam saat 8-in yarısında. Biletlər Politexnikum müsəlman mütəallimləri tərəfindən satılır. Müsamirə günü teatroda satılacaq.

## DRAMA AXŞAM TAMAŞASI HÖKUMƏT TEATROSUNDA

Cümə günü rəcəbülmürəccəb ayının 24-ndə 1337 sənəsi (aprelin 25-ndə 1919-ncu ildə) Müdiriyyətin artistləri İbrahim Atakişiyev və Bağır Cabbarzadənin benefisinə (şərəfinə) mövqeyi-tamaşaya qoyulacaqdır **Ənvər bəyin Ədirnə fəthi.** Biletlər benefis qiymətinə teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

*T-112*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprel ayının 27-sində saat birdə Təsərrüfat Şöbəsi dəftərxanasında şəhər budkalarını icarəyə verməkdən ötrü torq [hərrac] olacaqdır. Budkaların biri bulvarda Tamojna [Gömrük] körpüsü qarşısında, digəri isə Mixaylovski bağda Nikolayevski küçədən girən yerdə, hovuzun qarşısında. Şəraiti [şərtləri] Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-113*

## DAĞISTANLI QARDAŞLARIMIZA KÖMƏK!

Hürriyyət və istiqlaliyyət uğrunda qan tökən dağıstanlı qardaşlarımıza kömək etmək üçün Parlamanın Bitərəflər firqəsi tərəfindən könüllü dəstəsi təşkil olunur. Könüllülərə əslihə [silah] və pul veriləcəkdir. Arzu edənlər, Parlaman binasında Bitərəflər fraksiyonu odasında (nömrə 4) şöbə zabiti Saleh bəyə müraciət etməlidirlər: gündüz saat 12-dən 2-yə; axşam saat 4-dən 6-ya.

## ROYAL VƏ PİANİNOLAR

Külli miqdarda təzə və bir az köhnə məşhur fabrika royal və pianinoları satılır. Bundan əlavə skripkalar, violonçellər, metronomlar, fortepiano altına qoymaqdan ötrü stul və podstavkalar [dayaqlar], notalar, notalara məxsus etajerkalar [etajerlər] dəxi satılır. Birjavaya küçə Adamovun evində nömrə 19, mənzil nömrə 7.

*8735*

İttifaqən satılır xalçalar. Suraxanski və Vağzalnı küçələrin küncündə Ramanovski məktəb. Xidmətçidən soruşmaq olar.

*8739*

## QİSMİ-RƏSMİ

**Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə İdarəsindən**

"Azərbaycan"ın 163-cü nömrəsində "Şikayət – Məşixətin nəzərdiqqətinə" sərlövhəli əhvalatda "sahibi-imza" [imza sahibi] bəyan edir ki, Carxı icmasında ruhanilik vəzifəsini ifa edən Molla Mehdiqulu Kərbəlayi Molla Daşdəmir oğlu camaatın başına olmazın bəlalar gətirməkdə bulunub da ənvai [cürbəcür] xəyanəti vəsf edərək Əbusəttar ilə Hacı Ağahüseyn Kərim oğlunun dəyirmanı xüsusunda bir saxta sənəd təhrir [yazdığını] və tərtib etdiyini və kəndisini camaat arasında bir sərbəst hökmran hesab etdiyini və bunun sübutu olaraq məzkur [adı çəkilən] molla kəndisini nə qədər bivaris vəfat edən olsa tamamına mütləq qəyyum (opekun) hesab edib hər növ mənqul və qeyri-mənqul mətrukatı [daşınan və daşınmaz mirası] olsa təməllük edir [yiyələnir] və nə qədər nikah işi olarsa öz oğlu Əbülqasım ağa kəsməli olur.

Binaənileyh [ona görə], İdareyi-Məşixət [Şeyxülislamlıq İdarəsi] lazım bilib cənabınızdan rica edir ki, həman imza sahibini müttəle [xəbərdar] etmək üçün möhtərəm qəzetənizdə dərc edəsiniz ki, məzkur qüsuratın [deyilən qüsurların] cümləsi cəza qanunu ilə rəftar olunası əmrlərdəndir [işlərdəndir] və onların mövcibincə [onların əsasında] müqəssiri cəzaya yetirmək polis vasitəsi ilə sud [məhkəmə] məmurlarına mühəvvəldir [həvalə olunub]. Ona görə fəqət qəzetə vasitəsi ilə bu kimi işləri şiyaya verməkdənsə [faş etməkdənsə], hər maddəyə dair öz vəsiqə və sübutları ilə bərabər təəllüqü [dəxli] olan məmurlara ərizə ilə vermək faydalı olardı. Məazalik [bununla birgə], məzkur Molla Mehdiqulu müsəddəq və ya qeyri-müsəddəq [təsdiqlənmiş yaxud təsdiqlənməmiş] prixod mollası olduğu Məşixətə məlum olmadığından, Quba qazısından sual olundu ki, bu barədə Məşixətə məlumat versin. Müsəddəq prixod mollası olduğu halda ondan cavabnamə alıb, təhqiqat icra edib mazöhrünü [meydana çıxan nəticəsini] İdareyi-Məşixətə məlum etsin, ta ki Məşixət məzbur [deyilən] mollanın təqsirini nəzərə alıb qanuna müvafiq rəftar eyləsin.

*Məşixət sədrləri: [Axund Ağa] Ağaəlizadə*
*və [Mustafa] Əfəndizadə*
*Katib: Əfəndizadə*

## DÖRDGÖZ OLMALIYIQ

Paytaxtımızda Azərbaycan istiqlalına qarşı sui-qəsd əməliyyatının kəşf edilməsi bizi, yəni hökumətimizi də və əhalimizi də dördgöz olmağa vadar edir. Bundan sonra bizim hər bir cüzi də olsa fəqərədən [hadisədən] şübhələnməmiz lazım gəlir və hər bir istiqlalpərəst və vətəndost şəxsin borcudur ki, hər kəsdən və hər bir əhvaldan və hadisədən şübhə edərsə, həman dəm lazım olan yerlərə bildirib kəşf etdirsin və bu ayıqlıq, təbiidir ki, həm Bakıda və həm də Azərbaycanın sair yerlərində dəxi ibraz edilməlidir [nümayiş etdirilməlidir].

Şükürlər olsun ki, Azərbaycanın türk və islam əhalisi arasında istiqlal və azad yaşamaq fikri o qədər bərkiyib və o dərəcə dərinləşibdir ki, əhalimiz əksəriyyəti-əzəminin [böyük əksəriyyətinin] vətənpərəstliyi şəkk və şübhə xaricindədir. Baxüsus [xüsusilə] Nikolay dövri-mənhusundan [uğursuz, bəd dövründən] qalma bir taqım sui-idarələrin ləğvini, böylə idarə başında duran bürokrat tərbiyəli adamların yavaş-yavaş iş başından rəf edilmələrini [götürülmələrini, aradan qaldırılmalarını] görən əhali, hökumətimizin böylə müdəbbiranə [ağıllı] tədbirlərindən xoşhal olub, öz-özümüzü özgələrdən yaxşı dolandırmaq iqtidarımıza iman və etiqad etməkdədirlər.

Bu gün Azərbaycan istiqlalı əleyhinə söylənən söz və icra edilən əməl, hər bir Azərbaycan türk və islamının hissiyyatına toxunmaqla qəlbini pərişan edir və acığını tutdurur.

Əhalimizin hal və hissiyyatı bu gün o haldadır ki, şərəflə ölməyi qul və əsir olmağa tərcih edir və bunu deyil yalnız bir sözlə söyləyir, bəlkə bütün ağıl və qəlbi ilə dərk edib anlayır.

Təəsüflər olsun ki, bizim sosialist firqələrimizdən bəziləri ifrat dərəcəyə varıb da özgə çəkməsinin bizim boynumuz üzərinə minməsini sosializim şüarlarının hüsulundan [əmələ gəlməsindən]ədd [hesab] edib, bu gunə [bu cür] xilafi-insaniyyət yollarda işləməyi özləri üçün caiz [uyğun] bilirlər. İstiqlallarını can və başla saxlamaq yolunda hər bir fədakarlıqlarda bulunan qoca gürcü sosialistlərindən ibrət almaq istəməyən cavan sosialistlərimiz böyük səhvdədirlər. Belə səhv ki, onun nəticəsi nəinki sosializim fikrinə xidmət göstərməz, bəlkə bir millətin məhv və itlafına [tələf olmasına] səbəb ola bilər.

Biz ifrata varan cavan sosialistlərimizi bu gunə əməllərin sonki təhlükələrindən xəbərdar etməyi özümüzə borc bilirik və bunu deyirik ki, müstəqil yaşamayan bir millət içində ali fikirlər əmələ gələ bilməz. Sosializmi ali fikirlərdənədd [hesab] edib də bunun intişarını [yayılmasını] Azərbaycan türk və islamları arasında arzu edirsinizsə, əvvəlcə çalışın ki, bu millət azad yaşamağa imkan bulsun. Zira hər bir tərəqqi və o cümlədən fikir tərəqqisi dəxi ancaq azad yaşayan millət içində nəşvü-nüma tapıb inkişaf edə bilər. Hətta internasional fikri dəxi müstəqil yaşayan millətlər arasından törəyən bir fikir ola bilər.

Hal-hazırda bizdən ötrü bolşevik hücumu və ya Denikin qaragüruh hücumu – ikisi də bir təhlükədir. İstiqlalımızı itirmək, azad ikən qul və əsir olmaq və ola bilsin ki, bilkülliyyə [tamamilə] yer üzündən yox olmaq təhlükəsidir. Heç vaxt demək olmaz ki, bolşevik istilası Denikin istilasından eyidir. Çünki o da, bu da bir millətin istiqlalını və azadlığını əlindən almaqdır. Biz onu da, bunu da təcrübə ilə görmüşük, viran edilmiş imarətlərimiz, talan olmuş malımız və günahsız yerə tökülmüş qanımızla imtahanlardan keçirmişik və bunu da hər bir sinifimizdən artıq demokrat və füqərayi-kasibə sinifimiz görüb və hiss edibdir. Özgə millətlərdən olan bolşevik hakimlərinin "ədalət" və "mürüvvət"indən hamıdan artıq zərər çəkən türk və islam füqərayi-kasibəsi [proletariatı] olduğunu heç bir insaf əhli dana bilməz. Bu füqərayi-kasibəni təkrar cəbir və zülüm pəncəsi altına verməkdə nə böyük fikir və nə ali məqsəd ola bilər? Zənn etmirəm ki, bu cürə "ali" fikir və məqsədlərə Azərbaycan türk və islamları içində müzahirət göstərən [dəstək verən] olsun!.. Bunun tərəfdarı ancaq bizim zillət və rəzalətimizi istəyənlər içində ola bilər...

İştə, istiqlalımıza qarşı hazırlanmada olan sui-qəsdlərdən özümüzü qorumaq müqəddəs vəzifəmizdir. Dördgöz olub da hər bir şübhə iqaz edən [oyadan] keyfiyyətə diqqət yetirməliyik və əlaqədar olan dairələrin diqqətini cəlb etməliyik ki, bu gunə sui-qəsdlər ibtidada [başlanğıcında] kəşf edilib böyüməyə imkan bulmasın.

İçimizdə olan düşmənlərimizin təhlükəsi xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmayır. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar [qəfil basqınlar] hazırlayırlar.

Bu yolda hökumətimiz üzərinə böyük vəzifələr tərəttüb edir [düşür] ki, onlardan biri də əzcümlə [o cümlədən] budur ki, məmləkətimiz qapısı açıq məscid halında qalmasın ki, oraya Allah bəndələri ilə bərabər şeytana sitayiş edən, əyri və oğrular dəxi girə bilsin. Keçmiş işlərdə ləkəli olanları və söz və əməlləri ilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır. Səhvən buraxılmışlar varsa tərd [qovulmalı] və ixrac etməlidir. Gürcülər və ermənilər öz məmləkətlərində böylə edirlər. Biz nə üçün etməməliyik? Bir halda ki, böylə rəftara böyük bir haqqımız vardır.

Xülasə, istiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici və daxili düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir [tərəddüdsüz əl atmaq lazımdır].

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

* Peştədən xəbər verilir ki, Müttəfiqlər Komitəsinin başçısı Romaniya ilə Macarıstan sərhədi barəsində Macarıstan Rəisivükəlasına [Baş nazirinə] yeni ultimatum təqdim etdikdən sonra Kabinə istefaya çıxmış, Macarıstan sosialist firqələri hökuməti əllərinə alaraq şəhəri idareyi-əsgəriyyə [hərbi rejim] altında elan etmişlərdir.

* Moskva – Bolşevik qəzetəsinin məlumatına görə, Finlanda qoşunlarının komandanı general Mannerheym İngiltərə və Fransaya müraciət ilə təvəqqe edir ki, Petroqradı işğal etməyə ona müsaidə verilsin.

* Berlindən çəkilmiş olan teleqraflarda denilir ki, Münxendə iğtişaş [qarışıqlıq] artmaqdadır. Orada bolşeviklərlə sosialistlər arasında hökuməti yek-digərinin [bir-birinin] əlindən almaqdan ötrü mübarizə davam edir. Drezdendə üsyan edənlər bir naziri öldürmüşlərdir.

* Şura Hökumətinin simsiz teleqraf xəbəri: Petrozavodsk dairəsində 3 Qırmızı qoşun alayı Belı qvardiya [Ağ qvardiya] qoşunlarının tərəfinə keçmişdir. Yaxında olan şura qoşunları 45 verst cənub tərəfinə çəkilmişlərdir.

* Bolşevik kruvazeri [kreyseri] bütün nəfəratı ilə bərabər İngiltərənin tərəfinə keçib bolşeviklərə qarşı əməliyyati-hərbiyyəyə başlamışlardır.

* Sibirdə olan ingilis komissarı amiral [admiral] Kolçaka ingilis hökumətinin notasını təqdim eyləmişdir. Bu notada İngiltərə amiral Kolçakın Rusiyada ali hakimliyini təsdiq edirmiş. İngiltərə arzu edir ki, Rusiyada ümumun etibarına məzhər [nail] olan hökumət təşkil edilsin. Ancaq bu sayədə Rusiya da sair millətlər cərgəsində sayılıb da mədəniyyət yolunda çalışa bilərlər.

* Moskva – Bu axır günlərdə əhalinin halı son dərəcə həyəcanlıdır. Bolşevik hökuməti özünü itirmişdir. Qətl, qarət və təcavüz artmaqdadır.

## SÜLH ƏTRAFINDA

**Azərbaycan heyəti**

Alınan məlumata görə, indiyə qədər İstanbulda qalan Azərbaycan sülh heyətinə İstanbuldan əzimət etmək [yola düşmək] icazəsi verilmişdir. Azərbaycan heyətinin bir hissəsi Parisə azim olmuşdur [getmişdir].

**Dağıstan heyəti**

Sülh Konfransına getməkdə olan Dağıstan heyəti İstanbuldan Parisə azim olmuşdur.

**Alman nümayəndələri**

Bakı siyasi məhafillərində [dairələrində] alınan məlumata görə, alman nümayəndələri Parisə varid olub [çatıb], Sülh Konfransı iclaslarında iştirak etməkdədirlər.

**Dardanel**

Royter ajansına xəbər verilir ki, müxtəlif bəhri [dənizçilik] və hərbi komissiyalar bugünlərdə Dardanelə əzimət edəcək və 1915-ci ildə orada olan Türkiyə istehkamatın[ın] hal-hazırda nə halda olduğuna və Gəlibolu müharibəsi ilə əlaqədar olan sair məsələlərə bələd olaraq Parisdə daklad edəcəkdir.

* Parisdən xəbər verilir ki, 13 bitərəf dövlətin nümayəndələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası tərəfindən qeyri-rəsmi surətdə komissiyaya qəbul edilmişlərdir. Cəmiyyəti-Əqvam nizamnaməsinin 15 maddəsinə baxılmışdır. Bitərəf dövlətlər nümayəndələri bəzi maddələrin dəyişməsini təklif etmişlərdir. Zənn edilir ki, sair maddələr sabah müzakirə ediləcək, sonra Cəmiyyəti-Əqvam təklif edilən maddələrin təbdilatı [dəyişdirilməsi] məsələsinə keçəcəkdir.

* Roytere xəbər verilir ki, Ali İqtisadi Şura müttəhidülrəy [yekdilliklə] qərar qoymuşdur ki, Avstriya-Macarıstan üzərindən abluka [blokada] qaldırılsın. Bu qərar Ali Şurayi-Hərbiyyənin mülahizəsinə [qiymətləndirməsinə] təqdim edilmişdir.

* London – Amerikanın Bəhriyyə naziri Daniels Parisə varid olmuşdur [getmişdir]. Mümaileyh [adı çəkilən şəxs] sülh müzakiratında [müzakirələrində] iştirak edəcəkdir.

* Berlin – "Lokal-Anzeyqer" qəzetəsinə Vyanadan yazılır ki, Müttəfiqlər komissiyasının başçısı Volviks demişdir ki, Macarıstanın başqa nöqtələrindən bir neçəsi də işğal edilməlidir. Zira Macarıstan hökuməti bolşevizmlə mübarizə etməkdən acizdir.

## QƏZETƏLƏRDƏN

**Almaniya mətbuatı**

"Ditşe çaytunq" qəzetəsi qayət maraqlı bir məqalə yazaraq bəzi alman dairələrinin halını təsvir edir. Qəzetə deyir ki:

*"Bizi həqiqətdə olduğumuzdan zəif və məğlub göstərmək üçün Etilaf [Antanta] dövlətləri hər nə qədər ciddü-cəhd edib çalışsalar da, heç kimi aldada bilməzlər.*

*Hal-hazırda Almaniya o dərəcədə qüvvətlidir ki, heç bir vaxt böylə olmamışdır. Bizim qiymətli qanımız nahaq tökülməmişdir. Bu müharibə tərəfindən puç edilən yeganə bir şey varsa, Rusiya çarizmi və onunla bərabər Rusiya-Fransa ittifaqıdır. Fransanın bu tələfatını dünyanın heç bir mükafatı ödəyə bilməz. Bunun sədəməsi [zərbəsi] də Fransaya yetəcəkdir. Fransız ordusu da bizim ordumuz kimi dava etmək istəməyir."*

*Məqalə müəllifi Amerikada bəzi hadisələr vüqu bulduğunu [baş verdiyini] göstərir və deyir ki:*

*"Amerikada öylə dəhşətlər və qiyamətlər qopacaq ki, Almaniyanın dəhşətinə əbədən [əsla] bənzəməyəcək. Hal-hazırda Almaniyanın başlıca vəzifəsi beynəlmiləl qarğaşalığa qarşı hazırlıqdır. Məğlub olmadığımızı isbat edən səbatımız, möhkəmliyimiz, iftixarımız, şücaətimiz bizə müsaidə verəcəkdir ki, düşmənə həddini bildirək və gələcəkdə Almaniya müsabiqəsinin xətrəsini [təhlükəsini] onlara hiss etdirək."*

* Kiyev – Moskvadan verilən xəbərlərə nəzərən Rusiya Xarici İşlər komissarı Almaniya Xariciyyə nazirindən bir nota almışdır. Notada nazir xahiş edir ki, Berndə olan Sosialist Konfransı nümayəndələrindən 10 nəfəri, o cümlədən Almaniyanın nümayəndəsi Kautski, Fransa nümayəndəsi Lonqe, Avstriya nümayəndəsi Bauer, İngiltərə nümayəndəsi Henderson Moskvaya buraxılsınlar. Konfrans üzvlərindən Rubanoviç və Akselrod Rusiyada bolşeviklərin hərəkətlərindən konfransa məlumat vermələrindən dolayı bu heyət Rusiyaya gəlir ki, həqiqəti-əhvala bələd olsun. Çiçerin Berlinə teleqrafən xəbər verir ki, onun tərəfindən heyətin gəlməsinə heç bir mümaniət [maneçilik] yoxdur.

* Vyanadan verilən məlumata nəzərən Almaniya imperatoru Vilhelm ailəsi ilə bərabər İsveçrəyə əzimət eyləmişdir [yola düşmüşdür].

## DAĞISTAN ƏHVALI

**Konfransda**

Azərbaycan hökuməti nəzdindəki Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemirin aldığı məlumata görə, Dağıstan məsələsi haqqında Qroznıda Müttəfiq dövlət nümayəndəsi general Briks, Könüllü ordu nümayəndəsi general Denikin və Dağıstan hökuməti nümayəndəsi Qaplanov və qeyrilərinin iştirakı ilə cəm olan Konfrans Dağıstan hökuməti ilə Denikin arasında qəti-münasibat ilə [münasibətlərin kəsilməsi ilə] qurtarmışdır. Çünki Denikin tərəfindən təklif edilən şərait [şərtlər] Dağıstan İttifaqını və onun istiqlaliyyətini məhv etməkdən ibarətdir ki, Dağıstan hökuməti də bu təklifi qəbul etmək istəməmişdir. Bu əhvalatdan sonra Denikin məşhur irticapərəst general [Erisxan] Əliyev başda olmaq üzrə özlərini yalandan nümayəndə adlandıranlarla müzakirata [müzakirələrə] başlamışlar. Bu nümayəndələr də Parlaman, hökumət yaxud başqa bir ictimai müəssisə tərəfindən bu işə vəkil edilməmişlərdir. Verilən məlumata görə, Dağıstan hökuməti Denikini bilkülliyyə [tamamilə] öz torpağından qovub çıxarana qədər müharibəni davam etdirəcəkdir.

**Denikin əleyhinə protestolar**

Qroznı konfransının müvəffəqiyyətsizliyi münasibəti ilə Çeçenistan və İnquşistanda izdihamlı ictimalar [yığıncaqlar] və mitinqlər olub, Denikini vətən daxilindən çıxarana qədər ümumi isteh-zari-əsgəriyyə [hərbi səfərbərlik] və mübarizə lazım olduğu haqqında qətnamələr çıxarılmışdır.

## DAĞISTAN GÜNÜ

Vətəndaşlar! Mədid [uzun] bir müddətdir ki, qara generalın başdan-ayağa müsəlləh [silahlı] ordusunun qızıl pula sitayiş edən xədəmələrinin [xidmətçilərinin] zülüm və sitəm oxlarına dağıstanlı qardaşlarımız o yüksək və geniş sinələrini qəhrəmananə bir surətdə sipər edib çalınan zərbələri cansiparanə rədd edirlər!

Vətəndaşlar! Yəqininiz olsun gərək ki, tərəfeyinin [iki tərəfdən] biri qayət mühib [qorxulu, təhlükəli], münzəm [nizamlı] və müsəlləhdir [silahlıdır]. O biri isə pək zəif və biçizdir [kimsəsiz, yoxsuldur] və əlaməti-zə'f [zəifliklərinin nişanəsi] olaraq pak hürriyyəti, münəzzəh [təmiz, saf] istiqlaliyyəti qorumaqdan ötrü dağıstanlı qardaşlarımız cümlə qadınlarını belə silah altına almaq məcburiyyətində qalmışdırlar. Qonşu qardaşlarımız düçar olduqları fəlakətə sakit və samit [səssiz] durub baxmaq olmaz. Bu tövr rəftar nəinki qardaşlıq, hətta insanlıq vəzifəsinə belə sığışmaz. Bir an unutmamalıyız ki, bu gün Dağıstan qəhrəmanları üzərinə hücumavər olan [hücum çəkən] qaragüruhlar, yarın bizim hürriyyətimizə, istiqlaliyyətimizə, irz və namusumuza bişəkk və şübhə təcavüz etməyə amadə [hazır] olacaqlar. Bu əsəfnak vaqeənin [təəssüf doğuran hadisənin] əlacını pişəz-vəqt [qabaqcadan] aramaqdan ötrü paytaxtımızda mövcud şəqilərə [quldurlara] – denikinçilərə əlverişli zəminənin məhv və nabud [yox] olmasına təni-vahid [vahid bir bədən] kimi çalışalım.

Binaənileyh [ona görə], Tələbələr Komitəsi azadəlik yolunda qəhrəmananə çalışan dağıstanlı qardaşlarımıza maddi və mənəvi yardımda bulunmaq üçün işbu may ayının 3-də "Dağıstan günü" tərtib verib paytaxtımızda və ətraf mahallarda cə'bələrlə [sandıqlarla, qutularla] ianə toplayacaqdır.

Vətəndaşlar! Haydi, müstəqil Azərbaycan tələbəliyinin bu ilk qədəmini müttəhidülrəy [yekdilliklə] qarşılamalısınız ki, azəri türk tələbəsi arxasına aldığı ağır və müqəddəs vəzifənin ifasına lazımınca müvəffəq ola!

*Bakı Müsəlman Tələbələrinin Komitəsi*

## TÜRKİYƏDƏ

**Cəbəli-Lübnan məsələsi**

Şamatda Beyrut həvalisində [ətrafında] Cəbəli-Lübnan adında bir məmləkət vardır. Cəbəli-Lübnan Türkiyənin vilayati-mümtazəsindən [seçkin vilayətlərindən] ədd [hesab] olunub, hakimi düvəli-hamiyə [himayəçi dövlətlər] tərəfindən namizəd olaraq göstərilən əşxas miyanından [şəxslər arasından] olmaq üzrə sultan tərəfindən təyin olunur və daxilən bir növ muxtariyyəti-idarə ilə idarə olunurdu. Bu kərə məzkur [adı çəkilən] Cəbəli-Lübnan namına Sülh Konfransına gedən Şükrü Qanem "Tan" qəzetəsinin yazdığına görə cəbəllilərin mətalibini [tələblərini] bərvəchi-ati [aşağıdakı kimi] bəyan eyləmişdir. "Tan"ın yazdığına görə:

Bir milyon suriyalının rəyi ilə Suriya Milli komitəsi namına gəlmiş olan Şükrü Qanem Fransanın himayəsi altında Suriyanın ittihadı [birləşməsi] davasını irəli sürmüşdür.

Müsyö Bliss əhalinin fikrini anlamaq üzrə Suriyaya bir beynəlmiləl heyət göndərilməsini istəmişdir.

Lübnanlıların müddəası şu üç əsaslı nöqtədə toplanmaqdadır:

1) Lübnanın istiqlalı;
2) Tarixi və təbii hüdudunun iadəsi [qaytarılması];
3) Fransanın müavinəti [köməkliyi].

Lübnan mürəxxəsəsi [nümayəndələri] məmləkətlərinin daima muxtar bir idarə altında bulunduğunu və bu muxtariyyətin bəzi vaxtlar tamamilə müstəqil bir hökumət halına belə irca edildiyini [çevrildiyini] isbat edəcəkdir.

Bundan başqa, yeganə rabiteyi-vəsayəti haiz olan [qəyyumluq əlaqəsinə malik olan] Türkiyənin də inhidamı [dağılması] üzərinə bu məhzur da [çəkiniləsi şey də] ortadan qalxmışdır.

Təbii və tarixi hüduduna gəlincə, bu türklər tərəfindən Lübnana bəxş olunmuş olan xütut [xətlər] dairəsində bulunmaqdadır və bu hüdud olmaqsızın Lübnan yaşayammayacaqdır. Bundan başqa, bu hüdud daxilindəki əksəriyyəti-əzimənı [böyük əksəriyyəti] təşkil edən əhali Cəbələ iltihaqı [birləşməyi] arzu etməkdədir.

Bundan başqa, lübnanilər kəndi başlarına icrayi-hökumət edəməyəcəklərini bildiklərindən və təqdir etdiklərindən, başqa bir hökumətin himayəsinə ehtiyac göstərməkdədirlər. Bu hökumət də ancaq Fransa ola bilər. Çünki Lübnan ən müşkül zamanlarında müavinəti Fransadan almış, hürriyyəti Fransadan istehsal eyləmişdir.

Lübnan mürəxxəsləri bu haqlarının heç birindən vaz keçməyəcəklər və istiqlallarından heç bir şey tərk etməyəcəklərdir. Lübnanın taqındığı bu vəziyyət ilk günündən bəri türklərin intiqamını dəvət eyləmiş və əhalisinin yarısından fəzləsi imha [məhv] edilmişdir.

Lübnan mürəxxəsi Suriya ilə Hələbin mənabeyindən [mənbələrindən] bəhs edərkən aradakı münasibətin daha ziyadə səmimiləşməsini arzu etdiyini söylədikdən sonra, bunun ancaq bu şərtlə – Suriyanın Fransanın iştirakını istəmək şərtilə qabil olacağını əlavə etmişdir.

Sülh Konfransına tövdi edilən [verilən] bu bəyanat Lübnanın beş mürəxxəsi tərəfindən imza edilmişdir.

**Əhməd bəy Ağayevin həbsi ərtrafında**

İstanbulda Türkiyə hökuməti tərəfindən həbs edilən Əhməd bəy Ağayevin azad edilməsi əsilsizdir. İstanbuldan gələnlərin rəvayətinə görə Əhməd bəy həlalik həbsdədir. Əvvəlcə Əhməd bəylə görüşməyə icazə verilirmiş, lakin indi heç bir məhbusla, o cümlədən Əhməd bəylə görüşməyə yol verməyirlər. Türkiyə qəzetələrində yazılan bir xəbərə görə, bugünlərdə Əhməd bəy fövqəladə hərbi məhkəməyə gətirilib danışdırılmışdır.

* İstanbul qəzetələrində oxunduğuna görə "İttihad və tərəqqi" firqəsinə mənsub bulunan mövquflardan [məhkumlardan] Xariciyyə naziri Əhməd Nəsimi bəylə Qarahisar məbusu Agaoğlu Əhməd bəy təhtəlhifz [mühafizə altında] həbsxanadan Divani-Hərbə [Hərbi Məhkəməyə] göndərilmiş və heyəti-təhqiqiyyə tərəfindən soruşdurulmuşlardır.

**Yunanıstanın Türkiyədən tələbi**

Atinadan İstanbul qəzetələrinə xəbər verirlər ki, Venizelos Sülh Konfransına bir müxtirə [yazılı qeyd] təqdim edib 1912-ci il Türkiyə-Yunan müharibəsində Türkiyə hökuməti tərəfindən tutulmuş olan yunan ticarət paroxodlarının zərərini tələb edir. Bu cür gəmilər 60-a qədərdir.

**Həbslər**

İstanbulda Bolqariya xəstəxanasına yapışıq evlərin birində silah anbarı kəşf edildiyindən, bir çox adamlar həbs edilmişdir. Tutulanlar arasında Rusiyadan İstanbula gələn bir neçə arvadlar da vardır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Fəhlə Konqresi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, əsgəri iskələ [hərbi liman] dairəsi xidmətçiləri üç aydan ziyadədir ki, məvacib almayırlar. Binaənileyh [ona görə], ziyadəsincə üsrət [sıxıntı, çətinlik] çəkməkdədirlər.

Əsgəri iskələ əşyasına təyin edilmiş müzayidəyə [hərraca] Azərbaycan Hökuməti icazə verməmişdir. Halbuki Məsai naziri həzrətləri bəyan etmişdi ki, İngilis Komandanlığı icazə verərsə, müzayidə ola biləcəkmiş. Konqre rica etmişdir ki, bu məsələ həll edilsin.

Məsai Nəzarəti konqre heyəti-rüəsasına [rəyasət heyətinə] xəbər vermişdir ki, təhrirən [yazılı surətdə] İngilis Komandanlığına müraciətən əsgəri iskələ əşyasına olan əlaqəni isticvabda bulunmuşdur [soruşmuşdur]. Cavab alınan kimi xəbər veriləcəkdir.

- Məsai Nəzarəti Kəsbkarlar İttifaqına [Həmkarlar İttifaqına] müraciətən məlum etmişdir ki, bir neçə dəfə xüsusi müşavirə təyin edilmişsə də, Kəsbkarlar İttifaqı nümayəndələri gəlmədiklərindən iclas iniqad etməmişdir [baş tutmamışdır]. Nəzarət rica etmişdir ki, nümayəndələrin vaxtlı-vaxtında iclasa gəlmələri haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Göyçaydakı qaçqınlar işləri müvəkkillərinin mükərrərən [təkrarən] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Naizrliyinə] müraciətən qaçqınlar üçün etdikləri təşəbbüsatlarından dolayı Ümuri-Xeyriyyə və Nafiə naziri Şamaxı nahiyəsi müfəttişinə müraciətən rica etmişdir ki, təcili surətdə qaçqınların siyahısını tərtib verməklə məhəllində [yerlərdə] ən çox ehtiyac hiss edilən ərzaq və mühimmatın [ləvazimatın] miqdarını Nəzarətə [Nazirliyə] bildirsin.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Şamaxı nahiyəsi müfəttişinə müraciətən təcili surətdə bərvəchi-ati [aşağıda göstərilən] nöqtələrdə iaşə məntəqələri güşadını [açılmasını] əmr vermişdir:

Kürdəmirdə 300 adamlıq;
Şamaxıda 500 adamlıq;
Mədrəsə köyündə lazımi qədər.

- Bakıdakı darüleytamların [yetimxanaların] ərzaq yoxluğundan əhvalı olduqca fənadır. Bir çox ətfal [uşaqlar] isə zəif olduqlarından yeməyə möhtacdırlar. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə naziri Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, darüleytamlar üçün həlalik öz qiymətinə 50 put qənd buraxılsın.

## MİLLİ LİSANIMIZDAN İSTİFADƏ EDƏLİM

Təbiidir ki, bir qövmü məhv etmək üçün onu yek-digərindən [birbirindən] parçalamaq lazımdır. Milləti parçalamaq üçün də ibtida [ən başda] lisanını parçalamaq, saniyən [ikincisi] milliyyətini, mətbuatını, ədəbiyyatını əzməyinə iqtiza edər [əzməyi zəruri edər]. Həqiqətən türk millətinin yek-digərindən uzaq olmaları, saniyən bəziləri əcnəbilər boyunduruğu altında yaşamaları türk millətinin möhtəvi olaraq [ehtiva edən] milli lisan və ədəbiyyata malik olmalarına mümaniət etmiş [mane olmuş]. Nasıl ki, türk uluslarının bəziləri qərbdə, bəziləri şimalda və digərləri isə cənubda yaşamaları biri-birindən uzaq və vəsilələri [əlaqələri] pək dərəcə az olduğundan, getdikcə lisan etibarı ilə ayrılacaqlar və müstəqil ədəbiyyatlara malik olmaları da bu iftiraqı [ayrılığı] çabuqlaşdıracaqdır. Böylə ki, biz, yəni Azərbaycan türkləri rus hərsi [mədəniyyəti] ilə pərvərdə olduğumuz [bəsləndiyimiz] halda, Osmanlı türkləri də fransız yaxud alman hərslərindən feyz alırlar. Böylə olan surətdə türklük hərs və mədəniyyət etibarı ilə də iki mütəbaid [bir-birindən uzaq] parçaya ayrılır deməkdir.

Filhəqiqə [doğrudan da], türk ulusları posta, teleqraf və mətbuat kimi təarüf [tanışlıq] vasitələrinin mövcud olmadığı zamanlarda lisan və ədəbiyyat etibarı ilə biri-birindən uzaqlaşa bilərlərdi. Nasıl ki, vaxtilə Səlcuq və Cağatay türkləri eyni zamanda biri-birindən xəbərdar olmaqsızın kəndilərinə məxsus bir ayrı ədəbiyyat təsis etmişlərdi. Türklərin islamiyyətdən əvvəl yek-digərindən xəbərsiz olaraq müxtəlif dinlərə girmələri, müxtəlif yazılar qəbul etmələri də bu uzaqlığın və təmassızlığın nəticəsi idi. Məmafih [bununla belə], bu uzaqlaşma bütün türklərin məhza qövmiyyət duyğusunun ilhamı ilə müttəhidən [birgə] islamiyyəti qəbul etmələrinə mane olmadı. Fəqət bir zaman gəldi ki, yenə uzaqlığın, təarüfsüzlüyün təsiri ilə türklərin bir qismi farslara uyaraq şiəliyə meyl etdilər. Fəqət bu gün qövmiyyət duyğusunun məzhəb ixtilafı[nı] bərtəraf etməyə [aradan qaldırmağa] müvəffəq olduğunu görməyirmiyiz?

Əvət, cəhalət dövrü bir qaç əsr daha davam etmiş olsaydı, türklər də lisan və qövmiyyət etibarı ilə bir çox millətlərə ayrılacaqdı. Nasıl ki, slavlar, latınlar və kürdlər qədim zamanlardan bəri mütəəddid [çoxsaylı] qövmlərə ayrılmışlardı. (Bu gün kürdlər bir-birinin lisanını anlamayan beş qövmdən mütəşəkkildir.)

Fəqət türklərin lisanca uzaqlaşma[ma]larına türkcə kitabların uluslar arasında tədavül [dövr] etməsi də başlıca bir səbəbdir. Bir tərəfdən cağatayca divanlar qərb türkləri tərəfindən oxunur, digər cəhətdən də osmanlıca əsərlər sandıq[-sandıq] Krıma, Kazana, Qafqaziyaya, Türküstana götürülürdü. Osmanlıca kitabların intişarı [yayılması] bilxassə türk təarüfündən [türklərin bir-birini tanıyıb qaynaşmasından] sonra şiddət buldu. İbtida [əvvəla] Krımda və Qafqaziyada İstanbul ədəbiyyatı təqlid edilməyə, İstanbul türkcəsinə yaxınlaşmağa başlandı. Sonra bu hərəkət Kazana və Türküstana da sirayət etdi [yayıldı].

Fəqət bu sırada islamiyyətin düşmənləri cəmi dünya türklərinin yek-digərinə yaxınlaşmasına mane oldular. Ələlxüsus lisan səbəbincə türklərin haqqında olmazın təzyiqatlar icra etdilər. Fövqdə zikr etdiyimiz təzyiqatları isbati-vücud etmək üçün şu söylədiyimiz təzyiqlərdən birisini burada yazmalıyız. Böylə ki, bəzi hökumətlər müxtəlif türk uluslarının biri-birini tədris və tərbiyə etməsinə mane olmağa başladılar. Hər ulusa məxsus kitabların digər ulusların məktəblərində oxunması mən [qadağan] olundu. Bundan başqa, müsəlmanlar üçün hər mahaldakı ana dilinin tədris lisanı olması iləri sürüldü. Bütün bu təzyiqlərdən məqsəd türk millətini mütəəddid qövmlərə parçalamaq olduğu açıqdan-açığa anlaşıldı. Bir qövmü məhv etmək üçün parçalamaq lazımdır, necə ki, fövqdə [yuxarıda] zikr olundu. Milləti parçalamaq üçün də ibtida lisanını parçalamaq iqtiza edir. İştə bu vasitələrlə türk lisanını parçalamağa mütəəddid ədəbiyatlar təşəkkül etməyə başladı.

Şimdiki halda Rusiya türklərində iki cərəyan var. Birincisi, məhəlli [yerli] ləhcələrə qiymət verməк, ikincisi İstanbul türkcəsini milli lisan olaraq qəbul edib bu lisandan istifadə etməli. Birinci cərəyana qapılanlar heç şübhəsiz bilməksizin türklük düşmənlərinin əkməyinə yağ sürənlərdir. Həqiqi bir türk vicdanı ilə düşünənlərsə ikinci cərəyana meyl edirlər.

Təbiidir ki, hər bir millət üçün paytaxt lisanı siyasi şana, ictimai bir ecaza malikdir. Böylə olan surətdə bizim cavan hökumətimiz Azərbaycanın da paytaxtı böylə bir milli lisana malik olmalıdır. Şimdi biz bütün cahan türkləri nerə lisanını qəbul edib ondan istifadə etməliyiz sorduqda, şübhəsiz ki, həpsimiz bir səslə biz fəqət İstanbul türkcəsini qəbul etməliyiz söyləyəcəyiz.

Şimdi baxalım türk və islam aləmində İstanbul nerədir? İstanbulun bir paytaxt ecazına malik olması yalnız Osmanlı türklərinə nisbətlə deyildir. İstanbul yeganə türk xaqanlığının paytaxtıdır. Bu səbəblə bütün türklərin qibləgahıdır. Bundan başqa İstanbul islam xilafətinin də məqərridir [qərar tutduğu yerdir]. O halda İstanbul milli ecazdan başqa, dini bir qüdsiyyətə də malikdir. İstanbul türkcəsinin bütün türklərcə milli lisan olması və ecaz və qüdsiyyətin lisana da intiqalı [keçməsi] dolayısıdır. Fəzlə olaraq İstanbul türkcəsi türk ləhcələrinin ən gözəli, ən işlənmiş, ədəbiyyat elmincə ən zənginidir. O halda, göstəriləcək maneələrə rəğmən İstanbul türkcəsini ədəbi lisan ittixaz [qəbul] etmək bütün türklər üçün milli bir vəzifədir, ifa edildiyi zaman bütün türklər lisan və ədəbiyyatda müştərək və tək bir millət halına girər. Bütün dünya türklərinin yalnız bir hərsi [mədəniyyəti] olmalı və bu da kəndilərinin yaratdığı bir hərs olmalı. Türk almanlaşdıqca yaxud fransızlaşdıqca və yaxud ruslaşdıqca parçalanar. Fəqət türkləşdikcə milli vəhdəti daha ziyadə qüvvətlənər. Xülasə, İstanbul dilinin milli lisan ittixazı Avropa mədəniyyəti içində bir türk hərsi ibdasına [yaradılmasına] çalışması bir türk millətinin yeni təsisinə xadim olacaqdır.

*Fəttah əfəndi Seyidəlili*

## RUS TİCARƏTİNİN TARİXİ

**Katerina və onun varisləri dövrü**

Firəng ədəbiyyatı ilə tərbiyələnmiş İkinci Katerina rus sənaye və ticarətinin sərbəst və azadəliyini istəyənlərdən idi. Bunun məsləkindən istifadələnmiş əsilzadələr fabrikalar açıb, ixtiyarlarında bulunan kəndliləri də oradaca cəbrən [zorla] işlədirlər. Böylə ki, 1809-cu ildə xəzinə üçün mahud toxuyan 98 fabrikanın 12-si əcnəbilərə, 12-si də tacirlərə və qalan 74-ü birdən dvoryanlara təəllüqü [bağlılığı] var idi.

Əl işi ilə məşğul olanlara bəzi mülatifə [lütfkarlıq] və müsaidə göstərildiyi üçün fabrika məhsulatı ilə bərabər əl ilə görülmüş işlərin də mətası [ticarət məhsulu] ticarət dairəsində artmağa başlayır. Buna hökumət müsaidəsindən başqa sair şeylər də bais olmuşdur ki, ümdələri üçdür:

1) Rusiyada cərəyan edən uzun qış günləri və gecələri əkin işlərini qurtarıb da evində bikar qalmış kəndliləri bir iş görməyə vadar edir.

2) Şəhər fabrikalarında işləyən əmələlər [fəhlələr] evlərinə, kəndə qayıdarkən öyrənib bildiyi sənəti burada işlətmək üçün fabrika misalında balaca kargahlar [dəzgahlar] düzəldib arvad-uşaqlarına da işbu sənəti təlim edirlər. Odur ki, az bir vaxtda bir çox kəndlərin camaatı məhz kargahlıq və əl işi ilə güzəran etməyə başlayır.

3) Kəndlilərin zəhmətindən müftəcə istifadə etmiş mülkədarlar bir çox kəndliləri Maskov [Moskva] və Peterburq şəhərlərinə göndərirlər ki, orada ənvai [müxtəlif] sənətlərdən öyrənib kəndə qayıdarkən mülkədarların ənvai sənətkarlığa olan ehtiyaclarını da rəf etsinlər [aradan qaldırsınlar].

İştə, bu səbəblərə məbni [istinadən] rus kəndliləri arasında əl işləri və əl sənətləri intişar tapıb [yayılıb] sürətlə artır.

İkinci Katerinanın dövründə Azak [Azov] və Qara dənizin şimali cəhətləri Krım qitəsi ilə bərabər tamamən rus məmləkətinə ilhaq olunur [birləşdirilir]. Bu ilhaqatdan sonra rus vaporları [gəmiləri] Osmanlı sularında asudəliklə gəzib-dolaşaraq Yevropa iskələlərinə [limanlarına] mal daşıyırlar. Bundan əlavə, təzə alınmış yerdə şenlik və abadanlıq az olduğu üçün buranın bir çox cəhətini [yerlərini] Katerina qraflara və knyazlara bağışlayır. Bu şərtlə ki, bu cənablar da öz kəndlilərini buraya köçürüb təzə kənd və qəsəbəçələr salsınlar. Rus mühacirlərinə kifayət etməyərək və bu yerləri daha sürətlə məskun etmək üçün İkinci Katerina 1763-cü ildə Yevropa mühacirlərini bir çox müsaidələr vədəsi ilə buraya dəvət edir. Yevropadan hicrət etmişlərin arasında ən çoxu alman tayfaları olur. Bunlar güruh-güruh [dəstədəstə] köçüb Yekaterinoslav, Xerson, Tavriya, Peterburq və Saratov quberniyalarında gözəl kənd və qəsəbələr saldılar.

Alman mühacirləri boş qalmış yerlərdə məskun olaraq ziraətin [əkinçiliyin] ən mükəmməl üsulunu da işlədirdilər. Lakin bu üsullar rus kəndlilərinə heç də sirayət etmədi [keçmədi]. Bunun da səbəbi biçarələrin mülkədarlar əlində zənciri-əsarətlə yaşamaları idi.

O vaxtlar ticarətdə işlənən pulların mərufu [məşhuru] mis pullar idi. Lakin bunların ağırlığı nəqliyyata [daşımağa] yaramadığı üçün, Katerina hökumətini düşündürür və buna çarə olaraq əskinaz (ассигнація) pulları icad olunur. Yeni pullara tacirlər tərəfindən hüsn-rəğbət göstərildiyi üçün və bir də Osmanlı müharibəsinə güclü pul sərf olunduğuna binaən [görə], əskinaz pulları qanundan artıq və həddən ziyadə kəsilmişdir (156 milyon yarım). Odur ki, pulun kursu tənəzzül etməyə başlayır. Məsələn, əskinaz manat əvvəl 98, sonra 87 və axırda da 68 qəpiyə gümüş pula verilir. Pulun tənəzzülü yenə bir tərəfdən vergilərin artmasına və üçüncü tərəfdən də əhalinin müflis düşməsinə başlıca bir səbəb olur.

1772-ci ildə məşhur fabrikçi Demidovun nəvəsi məxaricinə birinci dəfə olaraq Maskov şəhərində ticarət məktəbi açılmışdır.

Katerina dövründə rus ticarəti beş dəfə artıq tərəqqi göstərmişsə də, yenə xarici ticarət holland və ingilislər əlində qalıb getmişdi.

Katerinanın oğlu Pavlus əcnəbi tacirlərini həvəsləndirmək üçün Qara dəniz səvahilində [sahillərində] gömrüksüz iskələ (порто-франко) tərtib verdilər. Bunun ziddi olaraq Birinci Aleksandr "kontinent üsulu"nu (континентальная система) qəbul edib iskələləri ingilis tacirləri üzünə bağlatdırdı. Bu üsulun qəbulu rus sənaye və ticarətinə böyük zərbə endirdi.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 25 aprel (Cümə günü) tarixli 166-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

O vaxta qədər Yevropaya göndərilən xammalların yolları bağlanaraq milyonlarca iskələ və anbarlarda tıxınaşıb da-yandı, qiymətlər sındı. Bunun müqabilində Yevropa və müstəmləkat [müstəmləkələrin] malları gətirilmədiyi üçün get-gedə azalıb qurtardı. Rus fabrikalarının bu müstəmləkat mallarına və ələlxüsus boyaq və rəng qisimlərinə zəruri ehtiyacları olduğu üçün və bunların tapılmadığı cəhətinə rus fabrikaları naəlac qalıb qapadıldı. Kənardan malı gəlmədiyi üçün xəzinənin gömrük mədaxilindən əli çıxdı. Bahalıq kəsbi-şiddət etdi [şiddətləndi], ticarət işləri dayanıldı, veksel kursu düşdü, daxili ticarət də zəifləşdi. Müharibələrə və ələlxüsus firəng müharibəsinə sərf ediləsi qədər xəzinədə nəqdiyyə olmadığı üşün və bu ehtiyacın rəfinə [aradan qaldırılmasına] çalışan hökumət hədsiz və hesabsız əskinaz pulları kəsdirmişdi (839 milyon). Kağız pulların tənəzzülü bir dərəcəyə qədər şiddət etdi ki, hətta bir rublə əskinaz 20 qəpik qiymətinə gedirdi. Əskinazın böylə şiddətli tənəzzülünə ümdə bais müharibə əsnasında Maskov şəhərinə qədər iləriləmiş firənglər olmuşdu. Bunlar Rusiyaya daxil olaraq milyonlarla saxta rus əskinazları kəsib camaat arasına dağıtmışdılar.

Bir tərəfdən pul pozğunluğu və o biri cəhətdən də ticarət fənalığı hökuməti böyük təşvişlərə düçar etmişdi. Çarələr aranırdı. Pul məsələsi devalvasiya üsulu ilə (девальвація) və ticarət məsələsi də fritreder üsulu ilə (фритредерская система) həll olunmuşdur.

Birinci üsul bundan ibarətdir ki, camaat arasında işləyən pulları yığmaq üçün yenidən qızıl pul yaxud təzə əskinaz pulları kəsdirilib köhnə pul ilə mübadilə olunur. Lakin köhnə pulun əyarı naqis və təzə pulunki isə tam hesab olunur. Məsələn, xəzinə təzə puldan 1 manat verib, əvəzində köhnə puldan 3 manat tələb edir. Bu üsulun intişarına [yayılmasına] rus hökuməti müvəffəq ola bildi. Səbəbi də o idi ki, bu vaxtlar (1830-cu illərdə) Ural dağlarında və sair mədənlərdə bir çox qızıl külçələri tapılmışdır. Bunlardan 170 milyonluq qızıl pul kəsdirilib əhalinin əlindəki 600 milyonluq köhnə əskinaz pullarına mübadilə olundu. Bundan sonra rus pulları tammül-əyar ilə [əyarına uyğun, əskiksiz] işləməyə başladı.

İkinci üsul fritreder – ticarət azadəliyi deməkdir.

Necə ki, yuxarıda zikr olundu, kontinent üsulu rus ticarətinin axırına çatmışdır. Tacirlərin imdadına çatmaq üçün kontinent üsulu fəsx [ləğv] və yerinə fritreder üsulu qonuldu. Qonuldusa da, rus ticarəti əvvəlkindən daha betər günə qaldı. Zira işbu azadəlikdən istifadə etmiş əcnəbilər Avropadan Rusiyaya o qədər fabrika malları gətirdilər ki, Rusiya fabrikalarından çıxmış mallar həm möhkəmlikcə və həm qiymətcə onlarla rəqabətə davam gətirəmmədilər. Odur ki, bir çox rus fabrikaları qapadıldı. Bundan sonra hökumət bəstə himayə üsulunu (протекціонизмъ) qəbul etməyə məcbur olur.

Birinci Nikolayın dövründə bir çox şəhərlər arasında şose yolları çəkilmişdir (5189 verst uzaqlığında).

Birinci dəmiryol 1838-ci ildə Peterburq ilə Pavlovski şəhərləri arasında çəkilmişdir. 48-ci ildə Vyana-Varşava və 51-ci ildə də Peterburq-Maskov yolları çəkilib qurtarmışdır. Bunun dalınca Peterburq-Varşava yolu başlanmışsa da lakin İkinci Aleksandrın zamanında tamam olub bitmişdir.

Birinci teleqraf xətti 52-ci ildə Peterburqla Maskov arasında çəkilmişdir. Rusiyada teleqraf xətlərinin sürətlə çəkilməsinə ümdə səbəb Krım müharibəsi olmuşdur və Birinci Nikolayın səltənəti əvaxirində [axırlarında] 6832 verst uzunluğunda teleqraf xətləri hazır olmuşdu.

Dəniz ticarət vaporları ancaq 30-cu illərdə çıxıb, 40-cı illərdə də Yevropa və Rusiya iskələləri arasında müntəzəm seyri-səfainə [gəmi naviqasiyasına] başlayır. Lakin bu gəmilərinin çoxu yenə də əcnəbi tacirlərinə təəllüqü [əlaqəsi] var idi.

Bu vaxtlarda rus sənayesi cümləsindən pambıq mənsucatı [toxunma malları] ən böyük tərəqqi göstərmişdir. 1824-cü ilədək hər yerdə ingilis pambıq malları işləyirdi. Lakin bu ildən sonra rus çiti birinciliyi qazanıb kamali-sürətlə rus şəhər və kəndlərində intişar tapdı [yayıldı].

Ural və Sibir mədənlərində altun və ağ qızıl (платина) kəşfi ilə bərabər gümüş, mis, qurşun, dəmir, çuqun və duz çıxarılması böyük tərəqqilər göstərmişdir. Qafqaz qitəsi Rusiyaya mülhəq olandan [birləşdiriləndən] sonra Bakı ətrafında neft mədənləri kəşf olunmuşdur. Lakin neftin tənvirat [işıqlandırma] üçün işlənilməsi 60-cı illərdən başlanmışdır.

Qənd və şəkər zavodları üçün cənub quberniyaları çox əlverişli olduğu üçün bu iş oralarda çox sürətlə intişar tapır. Böylə ki, 50-ci illərin əvaxirində [axırlarında] qənd və şəkər zavodlarının ədədi 400-ü keçmişdir.

19-cu əsrin əvailində [əvvəllərində] makinalı fabrikaların pula olan ehtiyacı bir dərəcəyə qədər böyüyür ki, az pullar ilə bunları idarə etmək daha mümkün olmayır. Sərmayədarlıq [kapitalizm] kəsbi-şöhrət edərək [məşhurlaşaraq, yayılaraq] rus ticarətində də möhkəm bir mövqe işğal edir. Kəndlilərin bu vaxta qədər zəhmətindən cəbrən istifadə etmiş fabrikaçılar bunun sərmayədarlıq üsuluna müzirr [ziyanlı] bir şey olduğunu anlayıb, bunu fəsx və əvəzində muzd və mükafat ilə azadə əmələləri [fəhlələri] iş başına çağırırlar. Söz yoxdur ki, öz xahişi və həvəsi ilə işləyən əmələlər əsarət və cəbrlə işlədilən yoldaşlarından daha artıq iş görüb faydalı olduqları üçün onlara imtiyazat və diqqət verilirdi. 1839-cu ildə Dövlət Şurası bu məsələni məhəlli-müzakirəyə qoyub [müzakirəyə çıxarıb] fabrika ixtiyarlarında Pyotrun vaxtından azadəsərliklə [sərbəst, azad] yaşamış əmələlərin buraxılmasına icazə verilir. Bundan istifadə edərək fabrikaçılar bunları azad və əvəzində muzd və ücrətlə [pulla] tutulmuş əmələləri dəvət edirlər. Fabrikaların bir çoxu necə ki, qabaqda yazıldı, dvoryanlar əllərində bulunurdu. Bunlar özlərinə məxsus kənd əhlini fabrikalarında cəbrən və məccanən [zorla və pulsuz] işlədirdilər. Lakin bu qanundan sonra muzdsuz əmələ əvəzinə muzdlu əmələ işlətmək təvanasız [gücsüz] dvoryanlara mümkün olmadığı cəhətinə bunların fabrikaları mürur ilə [vaxt keçdikcə] satılıb axırda hamısı tacir sinifinə qismət olur. Bu minvalla dvoryanların rəqabətindən qurtarmış fabrikaçılar tamam ticarəti öz sinifləri əllərində birikdirmək [toplamaq] üçün bu dəfə kargahçı [dəzgahçı] və çərçi [xırdavatçı] kəndlilərin də rəqabətindən qurtarmaq istəyirlərsə də amma müvəffəq olammayırlar. Zira buna hökumət razı olmayıb, ticarət təzkirəsi [vəsiqəsi] (гильди) almaq şərti ilə 1812-ci ildə kəndlilərə də ticarətlə məşğul olmağa izin verir. Bundan sonra kəndlilər arasında kargahçılıq, çərçilik və əl işçiliyi çox sürətlə ürüyüb artır. Hətta bunlardan bir neçə fabrikaçılar da əmələ gəlir.

Kənd fabrikaçılığı əl işlərindən törəmişdir. Böylə ki, əl işlərindən başlayaraq sonra kargahçılıq, sonra da sadə makinalarda iş görüb axırda kənd komasını fabrikaya mübəddəl etmişlər [çevirmişlər]. Məşhur Morozov firmasının müəssisi [təsisçisi] Savva Morozov bir mülkədarın rəiyyəti olaraq sadə bir şərbaflıqdan [toxuculuqdan] başlayıb 1797-ci ildə balaca bir ipək bafta fabrikası açır və işi öylə sürətlə tərəqqi tapır ki, 1820-ci ildə 17 min manat nəqdiyyə ilə özünü mülkədarın rəiyyətliyindən qurtardıb, tüccar sinifinə daxil olur.

Fabrikaçılıqda ələlxüsus İvanov kəndliləri iştihar tapmışlar [şöhrət qazanmışlar]. 1825-ci ildə bunların 125 çit və bomazı fabrikaları var idi. Bu kəndlilərin sahibi qraf Şeremetyev tüccar sinifinə daxil olmaq niyyətində olunan kəndlilərin hər birindən 20 min manat pul alıb sonra azad edirdi və bəzi dəfə bu qədər pula da razı olmayırdı. Kənd fabrikalarına hökumət mümaniət [maneçilik] göstərməyirdi. Zira bunlardan xəzinə böyük xərac yığırdı. Dvoryanlar da mane olmayırdılar, çünki bunları sağmal inək kimi sağıb asudəcə dolanırdılar. Kənd fabrikaçıları sərmayədar fabrikaçılarla rəqabətə girməyib, əhli-kəsəbə və dəhat qisminə [kasıblara və kəndlilərə] lazım şeyləri yaparaq ucuzca qiymətlərə satırdılar.

Fabrikaçılar himayəçi tarifi (покровительственный тарифъ) özlərinə istinadgah qərar verərək işlərinin təkmili [kamilləşməsi] üçün çalışmayırdılar. Köhnə makinalara kifayət edərək Yevropadan daha müntəzəmlərini gətirtməyirdilər. Odur ki, bunların qonşuluğunda əl işləri, əl mətası davam edib dururdu. Fabrikaçılar əl işçilərindən bir çox şikayətlər verdilərsə də, hökumət bu şikayətlərə əhəmiyyət göstərmədi.

50-ci illərdə yarmarka ticarəti böyüyüb sənəvi dairəsi [illik dövriyyəsi] 44 milyondan keçmişdir.

Birinci ticarət təzkirəsi ilə iş görənlər 50 min, ikinci təzkirə ilə 20 min və üçüncü təzkirə ilə də 8 min manat pul verirdilər.

*Fərhad Ağazadə*

## HİLAL ÜZƏRİNDƏ SƏLİB

Dövri-istibdadın ən mənfur və mənhus [nəhs] siyasətlərindən biri dəxi ümum rus məbədləri qüllələrində hilal üzərinə səlib rəkz edilməsi [sancılması] siyasəti idi ki, bu siyasətlə hökuməti-müstəbidə [istibdad hökuməti] ümum müsəlmanların din və milliyyətlərini təhqir edərək ürəklərini cərihədar edirdi [yaralayırdı].

Vaxtlar, əsrlər keçdi. Böyük Rusiya inqilabı başladı. Əskimiş və çürümüş olan heykəli-istibdad bütün əvan və ənsarı [köməkçi və qoruyucuları] ilə devrildi, yıxıldı.

Məzlum və məqhur [əzilmiş] millətlərin öz müqəddəratlarını özləri təyin və idarə etmələri dövrü gəldi.

Rusiya parçalandı. Hər bir qitədə [hissədə] mövcud olan millətlər öz idarələrini quraraq, öz ümuratlarını [işlərini] idarəyə başladılar. Həman qitələrdə mövcud olan rus ünsürləri dəxi əmri-vaqe [fakt] qarşısında riza və təslimə, itaət və inqiyada [boyun əyməyə] məcbur oldular.

O cümlədən Azərbaycanda.

Azərbaycan istiqlalı elan və Parlaman dəvət edildi. Parlaman əzası miyanında [üzvləri arasında] sair millətlər kimi ruslar dəxi isbati-vücud [iştirak edirlər] və fəaliyyətdədirlər. Hökumət dairələrində isə türklər əqəliyyət [azlıq] təşkil edərək cümlə mühüm və ciddi məmuriyyətlər ruslar əlindədir. Demək olar ki, rus vətəndaşlarımız bizimlə bərabər Azərbaycan istiqlalını feilən təsdiq və qəbul edərək, ümurati-dövlət və hökumətdə [dövlət və hökumət işlərində] tam mənası ilə iştirak etməkdədirlər.

Bununla bərabər, Azərbaycanda kain [yerləşən] cümlə rus məbədlərinin qüllələrində hilal üzərindəki səlib [xaç] ibqa edilərək [olduğu kimi saxlanılaraq] müsəlmanların cərəhati-qəlbiyyələrini xəraş etməkdədirlər [ürəklərindəki yaraları qaşımaqdadır].

Xüsusən Bakıda mürur edən [keçən] fəsx [pasxa] gecələrində hilallar, üzərlərindəki səliblərlə bərabər qüvveyi-bərqiyyə [elektrik enerjisi] ilə tənvir və təzyin edilərək [işıqlandırılaraq və bəzədilərək] şəhərin müxtəlif nöqtələrində ən uca mövqelərdən birər zəhralud [zəhərli] nizələr kimi əhaliyi-islamiyyənin gözlərini hədəf etməkdədirlər.

Əcəba hər bir mühavərələrində [danışıqlarında] dövri-istibdadı və onun mənfur və mənhus siyasətlərini və qanunlarını zəmm, tənqid və təqbih edərək [pisləyərək, tənqid edərək və qəbahətlərini söyləyərək] ümurati-hökumətimizdə [hökumətimizin işlərində] iştirak edən və bizimlə müsaviyül-hüquq [bərabərhüquqlu] vətəndaş olmalarını iqrar [təsdiq] və iddia edən, hər an ədalət, müsavat, insaniyyət və mədəniyyətdən dəm vuran rus vətəndaşlarımız bunu düşünməyirlərmi? Bundan sonra isə vətəndaşları olan islamların din və milliyyətlərini təhqir etməmək arzusunda bulunurlarmı?

Əgər həqiqətən müsəlmanlarla müsaviyül-hüquq bir vətəndaş olmalarını və onların ürəklərini din və milliyyətlərini təhqir edici əfal və hərəkat [işlər və hərəkətlər] ilə cərihədar etməyi [yaralamağı] xoşlamayırlarsa, o vaxt məbədlərinin qüllələrindəki səliblərin təhtindən [altından] hilalları götürərək yalnız öz əlaməti-diniyyələri [dini nişanları] olan səlibi ibqa etməyə [saxlamağa] müvəzzəf [borclu] deyildirmilər?

O vaxt, yəni böylə təşəbbüsati-nazikanələr [nəzakətli addımlar] gördükdə islam vətəndaşları ilə mabeynlərində [aralarında] nə qədər təzyidi-məhəbbətə [məhəbbətin artmasına] bais ola biləcəklərini təyin və təqdir edirlərmi?

Əks-surətdə bu xüsusda düşünmək, tədabiri-lazimədə bulunmaq [lazımi tədbirlər görmək] hökumətin öhdəsinə tərəttüb edəcəyi [düşəcəyi] məlumdur. Camaat isə bir vaxt gələcəkdir bunu hökumətdən tələb edəcəkdir. Həm də müsirranə [israrlı] bir surətdə tələb edəcəkdir. Zira islam əqidə və ehkamınca türklər və ümum müsəlmanlar heç bir millətin hissiyyati-diniyyə və milliyyəsini təhqir etməyi özləri üçün təcviz etməyərək [rəva görməyərək], hər bir millətin dini və milli hissiyyat və əlamatına [nişanələrinə] kamali-ehtiram və hörmət göstərməyi vacib bildiyi kimi, heç bir millətin dəxi onun hissiyyat və əlamati-diniyyə və milliyyəsini təhqir və təcavüz etməyə müsaidə etməz.

Burası hər kəsə məlum və əyandır ki, müsəlmanlar çox mütəhəmmil və sabirdirlər [dözümlü və səbirlidirlər]. Hər bir şey müqabilində səbir və təhəmmül edirlər [dözürlər]. Fəqət dini və milli hissiyyatlarına təhqir və təcavüzə əsla səbir və təhəmmül edəmməzlər.

*Mim. Sin.*

## DAŞNAK QƏZETƏSİNİN ARZUSU

Daşnak firqəsinin "Vperyod" qəzetəsi 28[-ci] nömrədə "Yəzdan [tanrının] ədalət məhkəməsi" adlı baş məqaləsində guya İstanbulda Ənvər paşanın ermənilərin itlaf [tələf] edilməsinə dair teleqramı bulunduğunu və bunun dərhal Parisdə Beynəlmiləl Sülh Konfransına göndərildiyini dərc edir ki:

*"Beş sənə mürurunda [ərzində] ən şədid [şiddətli] və su yerinə qan cərəyan etdirməklə [axıtmaqla] davam edən müharibədə heç bir müharib [şavaşan] dövlət tərəfindən rəva görülməyən qanlılıq Türkiyə tərəfindən bütün ermənі millətinə rəva görüldü və türk ermənilərindən başqa Türk Ordusu Qafqaza vürud etdikdə [gəldikdə] bu zülüm bura ermənilərinə də edildi. "Haqqın ədalət məhkəməsinə" vaxt gəldi. Kəndi qəhharlığı və cümlə beynəlmiləl hüququ nəzakətini təcavüz etmiş Vilhelm müstəhəqq [layiq] olduğu cəzaya amadədir [hazırdır]. Erməni qırğınına bais olan böyük türk paşaları İstanbulda birər-birər həbs edilib məhkəməyə verilməkdədirlər. Müttəfiqlərin ikiüzlü siyasəti sayəsində Qafqazda erməni qırğını icra edən canilər və onlarla birlikdə bu yolda hərəkət edənlər kəndi qalibiyyəti dövranını sürməkdədirlər. Dünkü çapğınlar [quldurlar] bu gün Qafqazın mütəəddid [müxtəlif] guşələrində "Xanlıq", "Cümhuriyyətlər" təşkil etmişlər. Məmləkətdə sülh və asayiş bərpa olduqca məzkur [deyilən] çapğınlar vahid bir hökumət nümayəndələriədd [hesab] olunurlar..."*

Böylə bir laqqırtılar sonunda; *"Müttəfiqlərin göz önündə türk zabitanı [zabitləri] naməlum kötü bir məram üzrə müfrəzələr [silahlı dəstələr] təşkil etməkdə olduqlarını, mütarikə şürutunun [atəşkəs şərtlərinin] və Ali Müttəfiqlər Komanda[nlığı] əmrinin əksinə olaraq hələ Qars və başqa yerlər türklər tərəfindən təxliyə eyləmədiyi və Qarsda şimdi də bir qaç min türk əsgəri bulunduğu aşkar olduğunu"* əlavə edərək; *"Qafqaz gəlmə barbarlardan xilas edilib, bunların geriyə, kəndi məmləkətlərinə göndərilməsi, vəilla [yoxsa] burada qaldıqda Qafqaz millətlərinin mədəniyyəti-müqəddəratına qarşı bir məhzur [saqınca, qorxu] peyda etdiklərini"* əlavə etməklə; *"Qafqazda erməni qırğınına fitva verən və bu fitvaya əməl edib, Türkiyə burada qırğını icra etməkdə bulunanların cəzaya uğramaya məcbur olduqlarını"* tövsiyə ilə *"Bunu mədəniyyət aləminin insafı və Yəzdanın ədalət məhkəməsi tələb edir"* kəlmələri ilə qəzetə məqaləni təkmil edir [yekunlaşdırır].

Doğrudan da İstanbulda böylə teleqram bulunmuşmu və bulunmuşsa bu teleqram Ənvər paşa tərəfindənmi bir vaxt göndərilmiş yoxsa şimdimi inşa edilmiş? Bunu heç bir əqli-səlim [məntiq] sahibi qəvi [möhkəm] bir etiqadla söyləyə bilməz. Zira gözümüz önündə yüz dəfələrlə gördüklərimiz bizi böylə bir rəyə vadar edir. Və zənn ediriz ki, Fransa Sülh Konfransı yalnız ermənilərə zülüm edən kəsləri cəzalandırmaqla iktifa [kifayət] etməyib, beş sənə müharibə davamında Qars, Ərzurum, Batum, Trabzon, Bakı, Şamaxı, Naxçıvan, İrəvan, Zəngəzur və başqa yerlərdə islam əhaliyə qarşı rəva görülən zülüm sahiblərinə mükafat veriləcəkdir.

Gələlim məqalənin məzmununa. Bunu oxuyan bir zat "Yarəb, mən Azərbaycan torpağındamıyam və böylə isə oxuduğum məqalə Azərbaycan paytaxtı olan Bakıdamı çap edilmiş və yaxud Azərbaycan hökumətinə qarşı xüsumət [düşmənçilik] bəsləyən bir məmləkətdəmi çap olunur?" fikrindən kəndisini xilas edə bilməz. Yoxsa nasıl olur ki, Azərbaycan torpağında yaşayıb buranın ətməyi [çörəyi] ilə idarə edən bir kimsə öylə bir bihəyalığı qəbul edir ki, məmləkəti idarə edən bir hökuməti "çapğınlar və qırğınçılar" təsmiyə edir [adlandırır], ya "çapğın və qırğınçılar arxadaşı" deyə küfür söyləyir. Böylə bir vicdansız, qızıl bir dənini [alçağı] tədib etməyə [cəzalandırmağa] hökumət başqa bir çarəyə təvəssül [müraciət] etməyi kəndi vicdanına rəva görməyirsə, bunu məhkəməyə verib cəzalandırmağı da artıqmı hesab edir? Azərbaycandan başqa Məvərayi-Qafqazda [Zaqafqaziyada] Ermənistan və Gürcüstan cümhuriyyələri də vardır. Nasıl olur da böylə bir hərəkətə nə Gürcüstan, nə Ermənistanda yol verilmədiyi bir əsnada, olar-olmaz iftira və küfürlər Azərbaycana və Azərbaycan hökumət ərbabına [adamlarına] qarşı rəva görülür? Biz yəqin biliriz ki, nə Qarsda və nə də Qafqazın başqa bir yerində türklər qalmamışdır. Bunlar Qafqazı təxliyə etdikləri kimi, Qarsdan da çıxıb kəndi vətənlərinə azim oldular [getdilər]. Fəqət "Qarsda və başqa yerlərdə türklər qalmışlar və buralarda əsgər toplamaq fəaliyyətindədirlər" kimi iftiranı deməkdən Cənub-Qərb Hökumətini və Azərbaycanı Müttəfiqlər nəzərində müttəhim edib, məzkur [deyilən] yerlərdə əsgər təşkilatı işlərinə mane olsun mülahizəsi ilə böylə bir əsassız və aşkar yalan laqqırdıları nəşr etməklə [yaymaqla] Qafqazda islam əhaliyə müxalifət peyda etmək fikrini yürüdürlər. Aşnaların böylə fikirlərini eyicə anlayıb, onların böylə bir vicdansız çıxışlarına qarşı şədid bir tədbir ittixaz edilməlidir [şiddətli bir tədbir görülməlidir]. Vəilla [yoxsa] əski rus hökuməti vaxtından iftira və müzəvvirliyə [saxtakarlığa] adətkərdə olmuş aşnalar kiş-kiş ilə bizi rahat buraxmayacaqlar. Neçə sənələr dövründə islamlara qarşı kirvələrin yapdıqları hərəkət cümləmizin gözü önündədir.

*Məhəmməd*

## BAKI XƏBƏRLƏRİ

**Milli bayraqlar haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən rica etmişlər ki, bütün hökumət və camaat müəssisələri, məktəblər və qeyriləri, şəhərlərdə isə bütün ev sahiblərinin Azərbaycan milli bayraqlar[ı] almaları haqqında binagüzarlıq etsin [sərəncam versin]. Həmin bayraqlar bayram günləri və başqa təntənəli günlər vaxtında evlərin və hökumət, camaat müəssisələri binalarının üzərindən asılmalıdırlar.

**Balaxanı kooperativlərində**

Cümə günü nisanın (aprelin) 25-də saat 4-də Balaxanı Kooperativ Klubunda (sabiq Balaxanı krujoku) Balaxanı dairəsindəki kooperativlərin idarə-təftiş komisyonu üzv və pay sahiblərinin ümumi iclası vaqe olacaqdır. Baxılacaq məsələlər:

1) Xəzər Müstəhliklər [İstehlakçılar] İttifaqının ticarət fəaliyyəti barəsində məruzə;
2) Əkmək fondunun təşkili;
3) Üzvlərin cəmiyyətlərə əmanət pul verməsi haqqında;
4) Paycı cəmiyyətlərinin pay haqlarının artması;
5) Balaxanı cəmiyyətlərinin birləşməsi barəsində.

- Aprelin 25-də axşam saat 4-də Üçüncü Ali-ibtidai məktəbin binasında bütün texniklərin, müsamirədə işləməyə dəvət olunanların iclası vaqe olacaq.

**Posta qarət edilməsi**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum edir ki, neçə gün bundan əqdəm [qabaq] Yevlax postaxanasından 500 min manat qarət etmiş olan caniləri dərdəst etməkdən [ələ keçirməkdən] ötrü ən ciddi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

**Cərimə**

Təhərri [axtarış] polisəsi tərəfindən Bakı qubernatoruna təqdim edilən qərardada görə, Bakı əhli Əmirxan Əhməd oğlu icazəsiz tapança gəzdirməkdə müqəssir hesab edilərək iki həftə müddətinə həbs edilmişdir.

**Sürgün**

Neçə gün bundan əqdəm [qabaq] hökumət əleyhinə sui-niyyətdə [terrorda] müttəhim edilənlər təhtəl-hifz [mühafizə altında] Gəncəyə göndərilmişlərdir. Məzkur [deyilən] şəxslər Azərbaycan torpağından sürgün edilirlər.

- Mariya Adarovna Tişçova icazəsiz olaraq tapança gəzdirməkdə müqəssir hesab edilərək üç ay müddətinə həbs edilmişdir.

**Xainlər**

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, bəzi vaxtlar naməlum xainlər tərəfindən teleqraf xəttinin kəsilməsi müşahidə olunmuşdur. Böylə əhvalın dövlət və camaat işlərinə nə qədər zərəri olduğunu nəzərə alaraq nazir qubernatordan rica edir ki, tezliklə böylə-böylə xəyanətlərin önünü almaqdan ötrü ciddi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Qubernator tərəfindən həmin fəqərə [hadisə] barəsində Cavad uyezd naçalnikinə və Balaxanı-Sabunçu qalabəyinə [komendantına] lazımi binagüzarlıq [sərəncam] göndərilmiş və ciddi surətdə hərəkət və fəaliyyətdə bulunmaq əmr olunmuşdur.

**Məhkəməyə cəlb**

- Azərbaycan Cümhuriyyəti İstinaf Məhkəməsi müddəiyi-ümumisi [Məhkəmə Palatası prokuroru] Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə Bakı Nahiyə Məhkəməsi müddəiyi-ümumisinin vasitəsilə Bakı 7-ci uçastok [sahə] pristavı müavini Abdullayev qulluğundan sui-istifadə etməkdə ittihamla 347-ci fəslə müvafiq məhkəməyə cəlb edilmişdir.

- Azərbaycan İstinaf Məhkəməsi müddəiyi-ümumisi Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı ilə Bakı 3-cü uçastok pristavı müavini Məhəmmədov kəndi xidmətindən sui-istifadə etmək üçün məhkəməyə cəlb edilmişdir.

**Bələdiyyə İdarəsində**

Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, 1912-ci sənənin 10 nisan qanunu mövcibincə [əsasında] şəhər polis məxaricatı [xərcləri] Bələdiyyə İdarəsi üzərinə düşür. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi təcili surətdə polis üçün mənzil tutmaqla bərabər təmirat da yapmalıdır.

**Atışma**

Srağagün saat 1 radələrində Qasımbəy məscidi yaxınlığında iki nəfər müsəlman miyanında [arasında] atışma olmuşdu. Atışmada iki nəfər müsəlman bacaqlarından məcruh olmuşlardı [yaralanmışlardı]. Polis nəfəratı tərəfindən canilər dərdəst edilmişdir [tutulmuşdur].

## FƏHLƏ HƏYATI

**Zəngəzurluların yığıncağı**

Aprelin 22-də Balaxanı və Sabunçu dairəsində sükunət edən [yaşayan] Zəngəzur vətəndaşlarının yığıncağı vaqe olmuşdur. Yığıncaq Nobel qardaşlarının böyük firmasında vaqe olub, bir çox adam hazır olmuşdur. Bir çox müzakirat və mübadileyi-əfkardan sonra yığıncaqda atidəki [aşağıdakı] qətnamə qəbul edilmişdir:

*"Biz, Zəngəzur vətəndaşları aprelin 22-də bir yerə cəm olub bir qədər müzakiratdan sonra qərardad etdik ki, bu yaxın günlərin birisində Bakı şəhəri və ətrafında yaşayan ümum Zəngəzur əhillərini dəvət edib, lazımi məsələlərimizi müzakirə və həll etməklə bərabər, daimi bir komitə təşkil edərək qaçqınlara müavinət üçün lazımi məramnamə tərtib edək. Böylə bir ümumi iclası dəvət etmək üçün kəndi aramızdan 5 nəfərdən ibarət həlalik müvəqqəti bir komitə intixab ediriz [seçiriz] ki, ona da zeyldəki [aşağıdakı] şəxslər daxil olurlar: Məşhədi Məhərrəm, Zülfüqar Fəraczadə, Ağa bəy Ağayev, Ağalar bəy Əlixanov və Molla Qaraş."*

## AZƏRBAYCANDA

**Zəngəzur uyezdində**

"Aşxatavor" erməni qəzetəsi xəbər verir ki, Andranik ingilislərin tələbatına görə Zəngəzur uyezdindən [qəzasından] çıxıb getmişdir. Andranik hərçənd bilirdi ki, o getdikdən sonra ingilislər Azərbaycana tabe olmağı tələb edəcəklər, lakin ingilislərin tələbatına əməl etdi.

**Ağdaşdan**

Həmin aprel ayının 13-cü bazar axşamı Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti tərəfindən bolşevik və ermənilərin hücumu ilə malları talan olunaraq vətənsiz, yurdsuz, sahibsiz, müavinətə möhtac qalan Şamaxı qaçqınlarının mənfəətinə ikinci dəfə olaraq Sultanməcid Qənizadə cənablarının yazdığı iki pərdəli "Axşam səbiri xeyir olar" komediyası ilə bir pərdəli "Dursunəli və Ballıbadı" məzhəkəsi mövqeyi-tamaşaya qoyuldu. Camaat fövqəladə bir həvəs və iştiyaqla [şövqlə] axıb gəlməyə başladılar. Oyun başlanmazdan əvvəl cəmiyyət tərəfindən Rza əfəndi Əbdizadə cənabları keçən teatronun hasilat və məsarifatı barəsində haziruna məlumat verdi. Oyunun başlanmağını səbirsizliklə gözləməkdə olan tamaşaçıların gurultu və şarpıltıları altında pərdə qalxaraq saat 8-də oyun başlandı.

Bu iki oyunun arasında məşhur şairlərimizdən mərhum Sabir əfəndinin "Ağlaşma" və "Ədəbiyyat" sərlövhəli mənzum və müzhik [gülməli] əsərlərindən iki parçasını haziruna bir nümuneyi-ibrət olmaq üzrə möhtərəm ziyalılarımızdan Qədir əfəndi Molla Səməd oğlu oxuyaraq, oyunun gözəlliyini bir qat daha artırmağa müvəffəq oldu.

Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin məqsədi keçən mart ayında törəyən müəssif vəqələrin xəsarətdidələrinə [təəssüflü hadisələrin zərərçəkənlərinə] və Şamaxı hadiseyi-əlimərindən [kədərli ha-disəsindən] sonra çarəsiz qalıb çöllərdə, küçələrdə, onun-bunun qapısında, xüsusilə bazarlarda dilənməklə ismətləri tökülən din və millət bacılarımıza müavinət yollarını arayaraq hər dürlü qeydlərinə qalmaqla, o məzlumların məişətlərini təmin etmək və bu yolda öhdəsinə düşən vəzifəni layiqi ilə ifa edərək hər dürlü fədakarlıqdan çəkinməməkdir.

Birinci dəfə verilən teatronun hasilatı ilə cəmiyyət öz fəaliyyətinə başladı. Böylə ki, Ağdaş bazarında dilənməkdə olan qaçqın bacılarımız daha ondan-bundan Allah pulu istəmədilər. Cəmiyyət bunların məişətini təmin etdi. Vətəninə getmək istəyənləri müavinəti-nəqdiyyə [nağd pul yardımı] ilə yola saldı. Qalanlarını da öz himayəsi təhtinə [altına] alaraq hər dürlü qeydlərinə qaldı.

Ümüdvaram ki, möhtərəm Ağdaş camaatı cəmiyyətin yaşaması üçün minbəd [bundan sonra da] hər dürlü müavinət təkliflərinə qarşı, borclu olduqları din və milliyyət vəzifələrini ifa edərək cəmiyyətin tərəqqisinə səy ilə fəaliyyətinin daha vase [geniş] surətdə olmasına çalışarlar.

Bu cür müqəddəs bir cəmiyyətin səbəb və banilərinə qarşı qəlbimdə yüksələn məhəbbət və təşəkküratımın izharı ilə bərabər, məqsədlərinə müvəffəqiyyətlərini Cənabi-haqdan istirham [xahiş] edirəm.

Yaşasın millətin namusunu çəkən, "mədəd, mədəd" - deyə səfil-sərgardan qalan millət düşgünlərinə müavinət yollarını arayaraq onların maddi və mənəvi müşkülatlarını həll etmək üçün cəmiyyətlər açan qəyur [qeyrətli] ziyalı cavanlarımız.

*Müəllim: Məhəmməd Hacıməhəmmədzadə Nuxulu*

**Ərzihal**

*(Cavad uyezdindən)*

Cənab müdir əfəndi! Biz aşağıda qol qoyan Cavad uyezdinin [qəzasının] Ərəb-balaoğlan kəndinin rişsəfidləri [ağsaqqalları] sizdən acizanə iltimas [xahiş] edirik ki, həmin yazılan bir neçə kəlmə sözlərə ruznamə [qəzet] sütunlarında yer verəsiniz.

"Azərbaycan" ruznaməsinin 20 rəcə-bülmürəccəb 1337 sənə tarixli və 162 nömrəli numrosunda [sayında] oxuduq ki, guya Ərəbbalaoğlan kəndinin vəkilləri həman kəndin kəndxudası Nadir Məşhədi Yusif oğlundan pis hərəkətlər baş verməkdən ötrü cənab Bakı qubernatoruna ərizə vermişlər. Ona görə cənab qubernator həman kəndxudanı qulluqdan qovulmaqdan ötrü cənab naçalnikə əmr yazıbdır. Binaənileyh [ona görə], biz rişsəfidlər kamali-cürət ilə deyirik ki, minlərcə heyif olsun ki, cənab qubernator işi həqiqət etməmiş bəzi ərazil [alçaq], nalayiq və böhtanpərəst adamların qərəzi və yalan ərizələrinə görə və heç bir vəchlə camaatdan vəkil olmayıb və vəkalətnaməsi də olmayan və camaatdan bixəbər və biizin [icazəsiz] öz şəxsi qərəzlərindən ötrü özlərini camaat vəkili adlandırıb böhtan ərizə verməklərindən bir belə doğru və dürüst kəndxudanı qulluqdan xaric edib camaatı bədbəxt edir. Camaatın bədbəxt olmağı aşağıda yazılan səbəblərdən ibarətdir:

1) Bizim kəndin kəndxudası Nadir Məşədi Yusif oğlu kəndxuda olan gündən bu hala qədəri camaatla yaxşı rəftar edib müqəssirlərə tənbeh və əlsiz-ayaqsızlara rəhm etməkdən başqa bir qeyri pis hərəkat ondan baş verməyibdir və bu haladək heç kəsdən bir qəpik də olsa pul və ya qeyri cinslərdən rüşvət almayıb və alası da deyil.

2) Hərgah məzkur [adı çəkilən] Nadir nam [adlı] yüzbaşı olmasaydı, yəqin ki, Ərəbbalaoğlan kəndləri bu hala qədər məhv və nabud [yox] olardı. Necə ki, cəmi adamlara məlumdur ki, hər il bahar zamanı İranın Şahsevən tayfası Cavad uyezdinə, xüsusən Ərəbbalaoğlan kəndlərinə nə qədər zərər və nə qədər can tələfatı verirlərdi. Amma bu il Nadir namın [adlı şəxsin] kəndxuda olmaq səbəbinə görə həman şahsevənlər Ərəb-balaoğlan kəndlərinə nə zərər və nə də can tələfatı verə bilməyiblər. Çünki kəndxuda Nadir öz qardaşları ilə şah-sevənlərin öhdəsindən gəlirlər.

3) Genə məlumdur ki, həmin il Kür nəhrinin suyu nə qədər ziyadə və nə qədər kəskindir. Doğrudan şükürlər olsun kəndxuda Nadir namın zəhmətinə ki, çox etibarlıca bəndlər bağladıb ta ki Ərəbbalaoğlan kəndlərinin evlərini, canlarını, heyvanlarını və cəmi ziraətlərin[i] [əkinlərini] sudan mühafizət edibdir.

4) Cümləyə məlumdur ki, axrıncı hərc-mərcdən sonra hər kəndin cavanları sərxudkaranə [özbaşına] iş görməkdən zaye olmuşlar [zay olmuşlar; puç və hədər olmuşlar]. Əzancümlə [o cümlədən] Ərəbbalaoğlan cavanları da zaye olmuşdular. Bir belə zaye olmuş cavanlar kəndxuda Nadir namın hədəsindən və qorxusundan bu halacan dinc və salamat qalıblar.

Bunlardan əlavə, hərçənd bizlər bu halacan bilməyirik ki, adlarını yalandan Ərəbbalaoğlan kəndinin vəkili qoyub bu təhərdə böhtan ərizə verən kimdir, ancaq bunu deyə bilərik ki, cənab naçalnik Kür nəhrinin kənarında bənd bağlamaqdan ötrü hökmü sadir olubdur [əmri verilibdir] ki, bir neçə nəfər Ərəb-balaoğlan camaatından bu işə mane olmaq səbəbinə tutulsun. Onların adları bu qərar ilədir: Tərlan bəy Əbdüləli bəy oğlu, Ruh Həmid oğlu, Hacı Atamalı Hacı Güləli oğlu, Vəliməhəmməd Hacı Mirzə-məhəmməd oğlu və Paşa bəy Osman bəy oğlu. Və bu adamlar cənab naçalnikin qorxusundan kənddən qaçıb Bakı şəhərinə gəliblər və çünki bu adamların xasiyyətləri yaman olmağı bizlərə yəqindir ki və özləri də kəndxuda Nadir nam ilə ədavət edirlər (bir neçə səbəblərə görə), ona görə deyə bilərik həman yuxarıda yazılan böhtan ərizəni bu adamlar kəndxuda Nadir Məşhədi Yusif oğlundan veriblərdir.

İmza: Ərəbbalaoğlan rişsəfidləri: Şahkərəm İsmayıl oğlu, Abbas Alış oğlu, Yusif Yusif oğlu, Şirəli Kərbəlayi Xələf oğlu, Zeynal Möhbulla oğlu, Paşababa Paşababa oğlu, Şahpələng Hacı Qəhrəman oğlu, Xanlar Hacı Əbdülxaliq oğlu, Şuri Cahangir oğlu, Balaxan Muradəli oğlu, Məşhədi Ağa Məşhədi Məhəmməd oğlu, Balaqardaş Hacı Əsgər oğlu.

Fövqdə [yuxarıda] yazılan bisavadların əvəzinə və öz əvəzimə qol qoydum mən Yusif Yusif oğlu.

## GÜRCÜSTANDA

**Gürcüstan ilə Könüllü ordu müharibəsi**

İdarəmizə yetişən xəbərlərə görə Gürcüstan Hökuməti tərəfindən Könüllü ordu müqabilinə müharibə hərəkatı başlamışdır. Aprelin 17-də Soçi nahiyəsində Gürcüstan əsgərləri hücuma keçib Qaqranı işğal etmişlərdir.

**Gürcü Xalq Qvardiyası ərkani-hərbindən [hərbi qərargahından]**

Aprelin 17-də səhər saat 4-də Denikin əleyhinə hücum başlanmışdır. Süvari firqəsi [dəstəsi] yenə təzədən gecə Bzıb çayını keçmişdir. Çayı keçəndə bir suvari və üç at qərq olmuşdur. Sağ cinah Otradnoye mülkünə yaxınlaşıb, sol cinah isə Veliki knyazın Kolxida adlı yaylağını işğal etməklə bərabər, 4 zabit və 2 saldatdan ibarət zabit qaraqolxanasını ələ almışdır. Düşmən topxanası süvari firqəsini atəşə tutmaqdadır. Bizim qitəatımız [hərbi hissələrimiz] irəli hərəkət etməkdədir.

Bu gün aprelin 17-də Suxum dəstəsi əsgərləri Qaqranı işğal və 6 verst irəli hərəkət etmişlərdir. Hər iki cinahdan mühasirəyə alınmış Denikin əsgərləri müqavimət edə bilməyib qaçmışlardır. Bizim əsgərlərdən 2-si ölüb, 3-ü yüngül yaralanmışdır. Könüllü ordu zabit və saldatlarından bir çoxları əsir edilib, külli miqdarda qənaimi-hərbiyyə [hərbi qənimətlər] alınmışdır. Xalq qvardiyası və Suxum dəstəsi əsgərlərinin tərzi-hərəkəti hər növ tərifin mafövqündədir [üstündədir].

**Gürcüstan və Könüllü ordu**

Gürcüstan Məclisi-Müəssisanının [Təsisçilər Məclisinin] 17 aprel tarixli iclasında Şurayi-Vükəla rəisi [Baş nazir] vəzifəsini ifa edən Məclisi-Müəssisana xəbər vermişdir ki, Gürcüstan hökuməti aprelin 16-da Soçi nahiyəsində olan əsgərlərə hücuma keçmək əmrini vermişdir. Səhər aprelin 17-də Gürcüstan əsgərləri hücuma keçib irəli hərəkət etməkdədirlər. Əsgərlər cümhuriyyətin sərhədinə yetişənə qədər hücum edəcəklərdir.

**Batumdan bizə yazırlar**

Osmanlı parası burada çox yüksəlməkdədir. Qafqaziya parası ilə 50 manat – 25 ilə 40 manat, Kerenskiyə birər lirə satış olmaqdadır. Tüccarlar mal ticarətini yalnız Osmanlı parasına satmaq istədiklərindən çox müşkülat çəkməkdədirlər. Dərsəadətdə [İstanbulda] 50 rublə Kerenski qədər bir Osmanlı banknotunun fiyatı tərəqqi etmişdir [yüksəlmişdir]. Nikolay parası ilə 100 və 500-lük ilə 19-20-yə qədər banknot alınır və hər gün dəxi hər bir tərəfdə Osmanlı parası tərəqqi etməkdədir.

Bu ayın 16-cı günündən Batum şəhərində ümum hökumət dəvair [dairələrini] və işlərini ingilislər kəndi əllərinə alaraq buradakı Şuranı ləğv etdilər.

O vaxtdan bəri Batumda fəna bir vüquat [hadisə] olmamışdır. Batumun halı bundan sonra daha eyi olacağı düşünülür. Şimdiki halda ingilislərin sayəsində əhali bir buçuq rubləyə bəyaz əkmək yeyirlər. Müxtəlif fırınlarda [çörəkxanalarda] isə 6 rublədir və Batumun az bir vaxtda bütün iaşə və ərzaqını təmin edəcəklərini ingilislər vəd edirlər.

Buradan Dərsəadətə neft götürməkdə olan tüccarlar mallarını geri göndərdilər. Şimdi isə İstanbuldan buraya neft gətirirlər. Dərsadətdə bir təngə neft ki, 1 putdur, 3 ½ lirəyədir.

Burada Osmanlı altun lirə Qafqaziya parası ilə 270-280-dir. Osmanlı banknotu ilə 1 altun 560 quruşdur.

Odessa və Qara dəniz qaçqınları Batumu doldurmuşlardır. Batumda yer yoxdur. Peydərpey [bir-birinin ardınca] gəlməkdədirlər. Bunların əksəri rumlardır [yunanlardır].

Qəndin girvənkəsi 40 rubləyə bulunmayır. Batumun vəziyyəti böylə müxtəlif bir surətdə qarışmış olduğundan, buraya ticarətə gəlmiş olan tüccarlar dəxi pək mütəəssir və mütəzərrir olmaqdadırlar [bundan təsirlənməkdə və ziyana düşməkdədirlər].

*Yahya Hacızadə*

## TEATRO VƏ MUSİQİ

Bakı Politexnik məktəbinin Türk Mütəəllimləri İttifaqı kəndi biçiz [yoxsul] arxadaşlarının nəfinə [xeyrinə] olaraq şənbə günü aprel ayının 26-da İctimai Cəmiyyətin yaya məxsus binasında tən-tənəli bir surətdə teatro və müsamirə [konsert] tərtib edəcəkdir. Dəvətnamə arzu edən əşxas [şəxslər] müsamirə günü İctimai Cəmiyyətə müraciət etməlidirlər.

Mütəəllim və mütəəllimələrin [oğlan və qız tələbələrin] dəvətnamələri məhdud olduğundan pişəzvəqt [qabaqcadan] Ələsgər Ələkbərzadədən ala bilərlər.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

"Azərbaycan" qəzetəsinin 165-ci nömrəsində, "Bakı xəbərləri" qismində "Yeni sui-niyyət" ünvanlı yazılmış əhvalatı oxuyub və bu yazılmış xəbərin böyük bir səhv olduğu haqqında bir neçə kəlmə yazmağı özümə lazım bildim.

Əvvəla, Kamenisti küçədə Əmiraslanov qardaşlarının evi 1916-cı ildə Ramazanov qardaşlarına satılmışdır və mən Nəcəf Əmiraslanov mart ayından sonra Qubernski küçədə 48 nömrəli mülkə köçüb və hal-hazırda da orada yaşayıram və bir də həman xəbərdə yazılmışdır ki, həbs edilənlər arasında Nəcəf Əmiraslanov da vardır. Burasını söyləməliyəm ki, mən Nəcəf Əmiraslanov həbs edilməmişəm. Həbs edilən Cəlal Əmiraslanovdur ki, o da mənim qardaşım oğludur. Onunla da mənim heç bir münasibat və əlaqəm yoxdur. Cəlal Əmiraslanov Kamenisti küçədə həman 168 nömrəli evdə yaşayırdı ki, oradan da həbsə alınmışdır. Mənim bu kimi xainanə işlərdə səhvən adım çıxdığından çox pərişanhal olduğumu məni tanıyanlara bildirməyi özümə vacib bildim.

*Kamali-ehtiramla:*
*Nəcəf Əmiraslanov*

**İdarədən:** Adların dəyişik düşməsi və dolayısı ilə zimədxal [dəxli, qarışacağı olmayan] və müqəssir olmayan zəvatın [şəxslərin] müttəhim göstərilməsi kimi xətaya təəssüflə, Nəcəf Əmiraslanov cənablarının təqsirsiz ikən adı qeyd olunması münasibəti ilə bəyani-etizar ediriz [üzr istəyirik].

## BƏYANİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm! Cənabınızdan rica edirəm, bu təşəkkürümü qəzetənizin bir guşəsində dərc buyurasınız.

Salyan uyezdinin [qəzasının] Xanqışlaq kəndinin füqəra əhalisinə Məhəmmədəli Əliməhəmmədzadə 2 min manat ianə etmişdir. Mən zeyldə [aşağıda] imza edən məzkur [deyilən] camaat tərəfindən vəkil olub, camaatın kamali-rizaməndliyini müşarünileyhə [adı çəkilən şəxsə] yetirməklə bərabər, Allahtaaladan əmsalının artmasını diləməm.

*Məşhədi Heybət Məşhadi Xanməhəmməd oğlu*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Ayaqqabı**

Arvad, kişi və uşaq ayaqqabısı külli qiymətdən satılır. Qara arvad ayaqqabılarına 10 faiz güzəşt edilir.

Ünvan: Aziatski və Varantsovski küçələrin küncündə, nömrə 79. Aşot Mixayloviç Levinin komisyon kantoru.

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Drama***

"Ənvər bəyin Ədirnə fəthi": Cəfər Cabbarlının "Ədirnə fəthi" pyesi nəzərdə tutulur.

***Royal və pianinolar***

"metronom": musiqi əsərinin tempini müəyyənləşdirmək üçün istifadə edilən alət, takt ölçən.

"etajerkalar": qəzetdə təhrif edilmişdir.

***Qismi-rəsmi***

"Hacı Ağahüseyn Kərim oğlunun": "Azərbaycan" qəzetinin 163-cü nömrəsində "Hacı Ağahüseyn Kərəm oğlu" kimi yazılmışdır.

"prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

***Sülh ətrafında***

"Lokal-Anzeyqer" [Der Berliner Lokal-Anzeiger]: 1883-1945-ci illərdə Berlində alman dilində nəşr olunan gündəlik qəzet.

***Qəzetələrdən***

"Ditşe çaytunq": Berlində 1896-1934-cü illərdə nəşr edilmiş "Deutsche Zeitung" qəzeti nəzərdə tutulur.

"Berndə olan Sosialist Konfransı…": İkinci İnternasionalın Berndə keçirilən konfransı nəzərdə tutulur.

"Almaniya imperatoru Vilhelm": II Vilhelm nəzərdə tutulur.

***Türkiyədə***

"Cəbəli-Lübnan": (Cəbəli-Lübnan sancağı; Dağlıq Livan sancağı) 1861-1918-ci illərdə Osmanlı dövlətinə tabe olan muxtar bölgə idi.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

***Milli lisanımızdan istifadə edəlim***

"Bundan başqa, müsəlmanlar üçün hər mahaldakı ana dilinin tədris lisanı olması iləri sürüldü.": qəzetdə "olması" yerinə səhvən "olmaması" getmişdir.

***Rus ticarətinin tarixi***

"Tavriya… quberniyalarında": qəzetdə "Tavriya" yerinə "Tavriç" ("Таврическая губерния" adından) yazılmışdır.

"1772-ci ildə məşhur fabrikçi Demidovun nəvəsi məxaricinə birinci dəfə olaraq Maskov şəhərində ticarət məktəbi açılmışdır.": əsası məşhur rus sənayeçisi Nikita Demidovun nəvəsi Prokofi Demidov tərəfindən qoyulan İmperatorluq Kommersiya məktəbi nəzərdə tutulur.

"Katerinanın oğlu Pavlus": II Yekaterinanın oğlu I Pavel nəzərdə tutulur.

"gömrüksüz iskələ": "porto franko" [porto franco] yəni sərbəst liman, azad ticarət zonası.

"kontinent üsulu": 1806-1814-cü illərdə Böyük Britaniyaya qarşı əsasən Fransa tərəfindən həyata keçirilən iqtisadi blokada; kontinental blokada.

"fritreder üsulu": dövlətin iqtisadiyyata və sahibkarlıq fəaliyyətinə müdaxilə etməməsi; azad ticarət.

"bəstə himayə üsulu": yerli istehsalatı dəstəkləmək məqsədi ilə hökumətin idxalatı tənzimləməsi şəklində özünü göstərən iqtisadi siyasətin (himayəçiliyin – proteksionizmin) bir növü; gizli proteksionizm. Gizli proteksionizmdə idxalat gömrük xarici metodlarla tənzimlənir.

"Peterburq ilə Pavlovski şəhərləri arasında": hal-hazırda Sankt-Peterburq şəhərinin Puşkin rayonunun tərkibində şəhərdaxili bələdiyyə qurumu olan Pavlovsk nəzərdə tutulur.

"İvanov kəndliləri": söhbət Rusiyanın İvanovo vilayətindən və bu vilayətin inzibati mərkəzi olan hal-hazırdakı İvanovo şəhərindən gedir.

***Daşnak qəzetəsinin arzusu***

"Vperyod": "Daşnaksutyun" partiyasının Bakı şöbəsinin orqanı olan, rus dilində nəşr edilən qəzet.

***Azərbaycanda***

"20 rəcəbülmürəccəb 1337 sənə": burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 21 aprel 1919-cu ilə uyğundur.

Unutsaq unudularıq

# İşığı sönməyən adam



**D**ostum, bu gün sənin ad günündür. Bu illər ərzində ilk dəfə bu günü sənsiz qeyd edəcəyik. Qeyd edəcəyik deyəndə sənə də, mənə də yaxın olan dostlarla oturub ötüb-keçənləri yada salacağıq. Hər şeydən danışacağıq.

Amma mən nədənsə həmişə bizim o uzaqda qalan uşaqlıq illərimizi, məktəbli günlərimizi daha çox yada salmaq istəyirəm. Anamız Firuzə xanımın bizi bir-birimizdən ayırmayaraq "Sən Hadının doğma qardaşısan. Səni də mən dünyaya gətirmişəm" sözlərini dilimə gətirmək istəyirəm. Bakıda Lənkəran Şəhər Komsomol Təşkilatına rəhbər təyin olunan günün səhəri özünü mənim toyuma çatdırıb ən əziz adamlardan biri kimi yanımda oturmağını, mənim o xoşbəxt günümü öz xoşbəxtliyin kimi yaşadığını heç vaxt unuda bilmədim və unutmaram da!

Vəfatından bir neçə gün əvvəl gülə-gülə "Şənbə günü yığışırıq, hamını çağıracam. Özü də bu dəfə hər şey mənlikdir ha" dedin.

Həmin şənbə dostlarla yığışdıq. Amma sənsiz. Amma həm də səninlə. Sənin söhbətlərin və o işıqlı, nurlu gözlərin həmişə aramızdadır axı...

Haqqında yazılan bir kitabı vərəqləyirəm, sənin həyat yolunda atdığın o ilk addımları yada salıb düşünürəm: hər bir kəsin yüksəlişi, xoşbəxtliyi, gələcəyi üçün təkcə bacarıqlı olması, təşəbbüskar olması, çalışdığı sahədə səy göstərməsi kifayət deyil. İnsanda Allah-təalanın hər kəsə bəxş etmədiyi qeyri-adi bir xüsusiyyət də olmalıdır - işıqla doğulmaq, işıqla yaşamaq, işıqlı olmaq və bütün məhrumiyyətlərə, çətinliklərə rəğmən içindəki işığı sönməyə qoymamaq. Bu gün belə bir etirafı özümə borc bilirəm: Sən işıqlı adam idin, dostum!

Yazdıqların məni bu gündən ayırıb yenə də o uzaq illərə çəkib aparır. Olduqca səmimi və olduqca ürəkdən gələn sözlərdir: *"Məni Veravul kəndindəki doğma, balaca evimizdən, kiçicik həyatimizdən - uşaqlıqda bütöv bir planet zənn etdiyim Lənkəran həyatına valideynlərim - atam, xüsusən anam çıxardı: tanınmış pedaqoq Firuzə Bəylərova!*

*...Məni Azərbaycandakı doğma, "balaca" Lənkəranımızdan, "kiçicik" bölgəmizdən - bu gün də bütöv bir planet saydığım Azərbaycan ölkəsinə və dünyaya Ümumumilli Liderimiz çıxardı: dahi Heydər Əliyev!*

*- Onlardan biri heç bir epitetə ehtiyacı olmayan ANA, o biri - müasir Azərbaycanın çox adlı-sanlılarının boynunda halal haqqı olan mənəvi ATA!"*

1947-ci ilin 25 oktyabrı. Dostum, bu, sənin - Hadı Rəcəblinin doğum tarixidir. Doğuldun, amma heç kim bilmədi ki, elə o gündən özünlə birgə içində gizli bir həsrət də doğuldu. Yaxşı bilirəm, illərboyu bu həsrət səni sakit buraxmadı, başqaları kimi rahat yaşamağa qoymadı. Əvvəlcə o doğma ev üçün, kənd üçün darıxdın, sonra böyüyb-başa çatdığın şəhər üçün. Bu həsrət səni az qala şair elədi, dostum, şeirlər yazdın, hətta sözlərinə mahnılar bəstələndi. Amma bu sevgi, bu həsrət sənin yüksəlişə, ucalığa aparan yolda əl-qolunu bağlamadı, ruhdan salmadı. Əksinə, güc verdi, inam verdi, səni daha iradəli, daha mübariz etdi.

*Arxan dağdı, sinən dəniz,*
*Bulaqların qaynaq-qaynaq.*
*Hər gözəlin - saf, gülbəniz,*
*Çatmaqaşlı, alma yanaq.*
*Şirin laylam - Lənkəranım.*
*Güzgüm, aynam - Lənkəranım.*
*Doğma anam - Lənkəranım.*

Problemlərin, çətinliklərin, qayğıların çox olsa da, bir məsələdə bəxtin yaman gətirdi: səni hər yerdə sevirdilər - birgə oxuduğumuz məktəbdə də, hələ uşaqkən gün-güzəran dalınca getdiyin, bir parça çörək üçün işlədiyin Çörək zavodunda da. Hamı kimi mən də bunun - bu istəyin, bu ünsiyyətin şahidiydim - bu sevgi səni gündən-günə həm yüksək pillələrə aparır, həm də sürətlə elin-obanın gözündə ucaldırdı.

Dostum, sən həm də gördüyün yaxşılığı, göstərilən diqqəti, sənə qarşı atılan addımı, uzanan əli unuda bilməyən tək-tək insanlardansan. Hər adam bu sınaqdan, təəssüf ki, çıxa bilmir. Bunu - bu böyük həqiqəti yaşadığımız bu illər ərzində sən də gördün, mən də. Bilirəm, özün də dəfələrlə etiraf edirdin ki, sənin həyat yolunda, bugünkü yüksəlişində Ümummilli Liderin xidmətləri misilsizdir, müqaiyisəyəgəlməzdir və bu faktı, şəxsinə olan bu xeyirxahlığı bütün söhbətlərində, çıxışlarında, yazılarında da dönə-dönə qeyd edirdin: "Ulu Öndər mənim üçün dühadır. O, ömür yolunda mənim müəllimim, mənəvi atamdır".

1972-ci il 4 iyul. Bu tarix bir dost olaraq mənim də yaddaşıma əbədi həkk olunub. Doğmaların, yaxınların, elə mən də səndən xoş bir xəbər gözləyirdik o gün. Həmin vaxt Mərkəzi Komitədə Heydər Əliyevin qəbulundaydın. Sənə o gün ilk dəfə çox yüksək etimad göstərildi: Lənkəran Şəhər Komsomol Təşkilatına rəhbərlik sənə həvalə olundu. Sonrakı illərdə Ulu Öndərlə dəfələrlə görüşsən də, onun ilk tövsiyələrini - "Bilirsən, sənə yüksək etimad göstərilir. Gərək düz olasan, təmiz olasan, halallıqla işləyəsən" - sözlərini həmişə yada salardın və verdiyin sözü də nəinki unutmadın, hətta həyat amalına çevirdin: - "Ölərəm, düz olaram! Ölsəm də, təmiz olacağam!"

Danışırdın ki, o tarixi görüşdən sonra hiss etdin ki, sanki birdən-birə dünya gözlərində böyüyüb, həm də ölçüyəgəlməz dərəcədə böyüyüb, genişlənib. "Mən artıq bu geniş dünyada gedəcəyim yolu da bilirdim, daşıyacağım missiyanı da".

Kitabını vərəqləyirəm, müxtəlif illəri əks etdirən şəkillərinə baxıram, ildən-ilə necə dəyişdiyinə fikir verirəm və bu yerdə yadıma məşhur qazax yazıçısı Abayın sözləri düşür: "Şöhrət uca bir zirvədir. İlan ora sürünə-sürünə, qartal isə bir dəfə qanad çalmaqla qalxır". Bu mənada sənin yüksəlişin sürətli olsa da, bunun arxasında gərgin əməyin, sonsuz axtarışların, yuxusuz gecələrin vardı. Kimsə bilməyə bilər, amma mən yaxşı bilirəm və bunun şahidiyəm də. Sənin bu həyatda keçib gəldiyin yol həm də sənin özünün yaratdığın yoldur, özünəməxsus axtarış yoludur, bir növ, yaradıcılıq yoludur.

Son vaxtlar dünyadan qəfil getməyini tez-tez yada salıram: Niyə vəfasızlıq elədi ürəyin, nəyə dözmədi? Və hər dəfə də ilk ağlıma gələn bu olur: Ömürboyu, harda çalışmağından asılı olmayaraq, hər bir işə ürəyini qoymağı sevirdin, bütün qəlbinlə yaratmağa çalışırdın, həmin sahədə hörmət qazanmağı, nüfuz sahibi olmağı həm xoşlayırdın, həm də bunu çox yaxşı bacara bilirdin. İndi eyni ürək ağrısı ilə öz-özümə deyirəm: "Ürək buna neyləsin, necə dözsün, dostum?"

Bu ürək söhbəti, bu incə ruh həm də sənin aldığın təhsillə, ixtisasla bağlıdır yəqin. Sən axı həm də jurnalist idin. Uzun illər "Bakı", "Vışka" qəzetləri ilə əməkdaşlığını, o dövrün Nəsir İmanquliyev kimi nəhəng qələm sahiblərindən eşitdiyin tövsiyələri, məsləhətləri həmişə sevə-sevə həmkarlarınla bölüşərdin. 1978-80-ci illərdə hətta "Bakinski raboçiy" qəzetinin Lənkəran-Cəlilabad bölgələri üzrə xüsusi müxbiri kimi fəaliyyətini də çox yaxşı xatırlayıram.

Səni çox yaxşı tanısam da, nəyə qadir olduğunu bilsəm də, arada keçdiyin ömür yolunu yadıma salıb heyrətlənməyə bilmirəm: 15 yaşındaykən ailəyə kömək üçün dərsdən sonra çörək zavodunda işə düzəlməyini, sonradan Lənkəran Şəhər Komsomol Təşkilatının 1-ci katibi, ardınca Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri olduğun o günləri yaxşı xatırlayıram. İndiki dillə desək, şəhərin meri və qayğıları başından aşıb-daşan bir insan.

Çox keçmədi Azərbaycan KP MK-da təlimatçı vəzifəsinə gətirildin, sonra Şəki kimi böyük bir rayona rəhbərliyə göndərildin. Respublikamızın başının üstünü qara buludlar alanda - Ermənistanın işğal planları işə düşəndə sən yenə bu çətinliklərə sinə gərənlərin ön sıralarındaydın: Nazirlər Kabinetində olduqca ağrılı, həssas bir məsələ ilə - qaçqın və məcburi köçkünlərin problemlərilə, müxtəlif beynəlxalq təşkilatlarda bu məsələlərin həlliylə məşğuldun. 1990-1995-ci illərdə Azərbaycan Ali Sovetinin deputatı olmaqla yanaşı, 1993-1995-ci illərdə həm də BMT-nin MDB üzrə eksperti qismində çıxışlar edirdin. Bir millət vəkili kimi uzun illər həmkar olduğumuzu da nəzərə alıb tam əminliklə deyə bilərəm - özü də bu, tək mənim yox, hamının fikridir: 1995-ci ildən 2020-ci ilə kimi Hadı Rəcəbli Azərbaycan Parlamentinin ən işgüzar, ən fəal millət vəkillərindən biri kimi yaddaşlarda qalıb. Bunu dövlətdən aldığın ən yüksək mükafatlar - "Şərəf", "Şöhrət", "Vətənə xidmətə görə" ordenləri də təsdiqləyir.

Dostum, bu illər ərzində yorulmadan yazdın, yaratdın, işlədin, imkanın daxilində millətinə, dövlətinə verə biləcəyini verməyə çalışdın. Ən vacibi, ən əsası odur ki, Vətənin, millətin taleyində ən gərgin vaxtlarda, ən həssas məqamlarda, ən həlledici anlarda vətəndaş mövqeyini, prinsipiallığını dilə gətirməkdən çəkinmədin, dövlətin, dövlətçiliyin, Prezidentin, Ali Baş Komandanın yanında olduğunu qətiyyətlə bəyan etdin.

Bütün bu dediklərimə, deyə bilmədiklərimə sənin Moskvada, Bakıda keçən təhsil illərini, ordu sıralarında xidmətini, müxtəlif ölkələrə səfərlərini də əlavə etsəm, bəlkə mənzərə daha dolğun olar. Bir faktı da vurğulamalıyam: bu illər ərzində sənin elmi-pedaqoji sahədə gördüyün işlər ictimai-siyasi xadim kimi fəaliyyətini nəinki tamamlayır, hətta ona xüsusi bir çalar da qatırdı. Sən həm də müxtəlif illərdə dərc olunan 9 kitabın, 220-dən artıq məqalənin müəllifi kimi tanınırsan. Yazdıqların bu gün də tədris vəsaiti kimi müəllimlərin, tələbələrin stolüstü kitablarıdır. Yeri gəlmişkən, respublikamızda ilk siyasi elmlər üzrə doktor idin və ömürboyu ən sevdiyin kəlamlardan da biri bu idi: "Günəş simamızı, elm isə ruhumuzu işıqlandırır".

Düşünürəm, bu qədər gərgin, mühüm vəzifələr, bu qədər ağır uşaqlıq və gənclik illəri, yaxınlarının, doğmalarının itkisindən doğan bu qədər kədər və övladlarının, etibarlı dostlarının varlığından yaranan bu qədər sevinc... Təbii, hər bir insanın sonacan dözəcəyi, daşıya biləcəyi yük deyil. Amma "Allah dağına baxıb qar verir" deyiblər. Son illər o bəyaz saçların mənə Lənkəranın, Lerikin qarlı dağlarını xatırladırdı, dağ vüqarlı dostum.

Bunları yaza-yaza düşünürəm: Yəqin Hadı Rəcəbli olmaq, onun kimi yaşamaq və adını, nüfuzunu bu dünyada da, o dünyada da qoruyub saxlamaq üçün bütün bu yollardan keçmək, bu mərhələlərdən adlamaq, bu ağrıya və sevincə hazır olmaq gərək idi. O, bütün bunlara hazır idi və taledən istədiyi yeganə bir şey vardı -o da vaxt idi, möhlət idi. Bəlkə ona görə vaxtilə anasının qulağına pıçıldadığı bir bayatını hər dəfə söyləməkdən və dinləməkdən doymadı:

*Dünyaya duyuq gəldin,*
*Yatmadın, oyaq gəldin.*
*Ömür deyir: yüz ildir.*
*Qəlb deyir: bayaq gəldin.*

Bu yerdə mütləq bir məqama da toxunmalıyam. Uzun illər yurdundan didərgin düşən insanların problemləriylə birbaşa məşğul olan Hadı Rəcəbliyə tale sonda belə bir xöşbəxtliyi də nəsib elədi - O, Prezident İlham Əliyevin komandanlığı ilə 44 gündə Azərbaycan əsgərinin qələbə əzmini gördü və uzun illər ağrı-acılarını bölüşdüyü qaçqınların, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışına da şahidlik edə bildi.

2024-cü il... Aprel... Və bu yaz günü illərdir işığına düşüb getdiyi o yolda qəflətən dayandı. Amma o dursa da, dayansa da, içindəki o işıq qırılmadı, sönmədi. Elə o işıqdan tutub ilk dəfə oturdu, nəfəsini dərdi. Kim bilir, 76 yaşlı ömründən nələri düşündü, nələri yada saldı. Və ürəyində qövr eləyən min bir sözlə, sualla işığı sönməyən adam - Hadı Rəcəbli uzandı yenə ucalığa aparan o yolun qolları üstdə.

Bu yerdə Musa Yaqubun illər öncə yazdığı misraları yadıma düşür:

*Günəş doğar meşədə -*
*Işıq alçaq budağa,*
*dalda yarpağa düşməz.*
*Amma hündür ağacın*
*budağı da qırılsa,*
*gəlib torpağa düşməz.*
*Ağaclar o budağı*
*saxlar çiyinlərində,*
*Saxlar budaqlarında,*
*Saxlar qucaqlarında.*
*Kök bir yerdə,*
*bir torpaqda -*
*Nədəndir bu haçalıq?!*
*Ah, ucalıq, ucalıq...*

O aprel günü, dostum, bizi tərk edib, tək qoyub getdin. Özündən sonra canın qədər sevdiyin yurdun, Vətənin və sədaqətli, etibarlı, təmiz adını qoruyan, o işıqlı yolunu davam etdirməyə çalışan, səni o ucalıqdan enməyə qoymayan övladların qaldı...

Bir də mənim kimi, onun kimi, bizim kimi səni bu dünyada da, o dünyada da heç vaxt tək qoymayacaq dostların...

***Hüseynbala MİRƏLƏMOV***

# Azərbaycanın işgüzar turizm imkanları BƏƏ-də təqdim olunub

**Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Beynəlxalq Konqres və Konvensiya Assosiasiyasının (ICCA) 63-cü konqresində Azərbaycanın işgüzar turizm potensialı tanıdılıb. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, konqresdə işgüzar turizm imkanlarını təbliğ etmək və bu məqsədlə ölkəmizə səfər edəcək sənaye nümayəndələrinin sayını artırmaq üçün ölkəmizi Azərbaycan Turizm Bürosu (ATB) təmsil edib.**

İşgüzar turizm sahəsi üzrə aparıcı mütəxəssislər və agentliklərlə keçirilən görüşlərdə Azərbaycanda işgüzar tədbirlərin təşkili üzrə mövcud infrastruktur və bütövlükdə ölkəmizin turizm potensialı haqqında məlumat verilib.

Qeyd edək ki, ICCA dünyanın turizm və görüşlər sahəsində fəaliyyət göstərən nüfuzlu təşkilatlarından biridir. Qurumun üzvləri sırasına dünyanın 90 ölkəsində fəaliyyət göstərən mindən çox beynəlxalq təmsilçi daxildir.

Assosiasiyanın məqsədi beynəlxalq konqres təşkilatçılarını və bu kimi tədbirləri öz ölkələrinə cəlb etmək istəyən qurumları bir araya gətirmək və dünyada mütəmadi baş verən beynəlxalq tədbirlərin məlumat bazasını yeniləməkdir.



# Balaca olsalar da, arzuları böyükdür...

## Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzindən reportaj

Həyatın yenidən canlandığı işğaldan azad olunan Füzuli şəhərində artıq təhsil və incəsənət də inkişaf etməkdədir. Şəhərdə şagirdlərin orta təhsili ilə bərabər, məktəbdənkənar asudə vaxtlarının səmərəli keçməsi üçün Yaradıcılıq Mərkəzi də fəaliyyət göstərir.

Qazaxıstan Prezidenti Kasım Jomart Tokayev tərəfindən Qazax xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi məktəblilərin incəsənət sahəsi üzrə inkişafında əhəmiyyətli rol oynayır. AZƏRTAC-ın bölgə müxbiri Yaradıcılıq Mərkəzinə baş çəkib, müəllim və şagird kollektivi ilə görüşüb.

*Haşiyə:* Füzuli şəhərində inşa edilən və Qazax xalqının hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu il martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə istifadəyə verilib. Mərkəzin tikintisi Azərbaycan Prezidenti və xalqı tərəfindən də yüksək qiymətləndirilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini bildirib.



Yaradıcılıq Mərkəzi 2024/2025-ci tədris ilindən qapılarını müəllim və şagirdlərin üzünə açıb. Bu mərkəz işğaldan azad edilən ərazilərdə incəsənət təhsilinin başladığı ilk tədris ocağı kimi xüsusi əhəmiyyət daşıyır.

Keçmiş məcburi köçkünlərin Füzuliyə qayıdışı ilə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alan şagirdlərin də sayı artır. Mərkəz mart ayında 25 şagird və 5 müəllimlə fəaliyyətə başlamışdısa, hazırda şagirdlərin sayı 150-yə, müəllimlərin sayı isə 10-a çatır. Burada uşaqların incəsənətin sirlərinə yiyələnməsi üçün lazımi şərait yaradılıb. Hazırda fortepiano, kanon, qarmon, tar, violin, rəqs, xalçaçılıq, muğam ifaçılığı və digər ixtisaslar üzrə tədris həyata keçirilir. Mərkəzin mədəni təşkilatlar üzrə əməkdaşı Türkan Axundova ilə söhbət edirik. Deyir ki, Füzulidə yaşamaq və burada uşaqların həyatının formalaşmasına dəstək olmaq çox qürurverici hissdir: "Füzulidən məcburi köçkün düşəndə yaşım az idi. Valideynlərimin Füzulidən ürək ağrısı ilə danışdıqlarına qulaq asır və kövrəlirdik. Amma inanırdıq ki, doğma yurdumuza qayıdacağıq və belə də oldu, həmin arzular reallaşdı. Bir vaxtlar uşaqlıq illərimizin, xoşbəxtliyimizin yarım qaldığı yerdə indi övladlarımız böyüyür, firavan həyat yaşayırıq. Sağ olsun dövlətimiz, burada bizim üçün hər bir şərait yaradıb".

Türkan xanım yaradılan şəraitdən həvəslə danışır, hərdən də yanından ötüb keçən uşaqların başlarına sığal çəkir. "Şagirdlərimiz dərsdən sonra Yaradıcılıq Mərkəzində incəsənətin sirlərini öyrənirlər. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazaxıstan ilə Azərbaycanın, xalqlarımızın dostluq, qardaşlıq rəmzi sayılır. Bu mərkəz Füzuli şəhərində yaşayan uşaq və yeniyetmələrin incəsənət sahəsi üzrə inkişafında mühüm əhəmiyyətə malikdir. Bir ilə yaxındır ki, fəaliyyət göstərən mərkəzimizdə hər bir şərait var. Burada heykəltaraşlıq, rəssamlıq, rəqs, musiqi, xalçaçılıq dərsləri də keçirilir", - deyə o əlavə edir. Yaradıcılıq Mərkəzində idman zalı, mühazirə otağı, robototexnika və 3D modelləşdirmə, həmçinin digər kabinetlər də var. Dərnəklərin sayı artdıqca, şagirdlərin də sayı artır. Burada çalışan müəllimlər arasında Füzuli şəhər sakinləri ilə bərabər, ətraf kəndlərdən də gələnlər var. "Bir sözlə, Füzulidə həyat yenidən başlayıb. Bu gözəl günləri bizə yaşadan Müzəffər Ali Baş Komandanımıza, qüdrətli ordumuza minnətdarıq. Şəhidlərimizə rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram" deyən Türkan xanım mərkəzin pəncərəsindən ətrafa boylanır. Tənəffüs fasiləsi olduğundan həyətdə uşaqlar bir-biri ilə deyib-gülür, əylənirdilər. Türkan xanımın sevinci gözlərindən oxunurdu...

Nailə Tahirova da Füzuliyə qayıdan sakinlərdəndir və mərkəzdə çalışır. Deyir ki, burada təhsil alan şagirdlərin əl işləri Füzulidə keçirilən tədbirlərdə sərgilənir. Həmçinin mərkəzin "Fidanlar" adlı rəqs qrupu da var və tez-tez tədbirlərə dəvət alır.

Söhbət rəqsdən düşmüşkən, Adil Musayev burada uşaqlara əsasən milli rəqsləri öyrədir və bu işi qürurla, həvəslə görür. "1968-ci ildə Füzuli şəhərində anadan olmuşam. Erməni işğalı nəticəsində doğma torpaqlarımızdan məcburi köçkün düşdük, çətin illər yaşadıq. Nəhayət, yurdumuz azad olundu, elimizə-obamıza qayıtdıq. Burada istedadlı uşaqlardan rəqs qrupu da yaratmışıq. Əvvəl qrupumuzda 20 şagird var idisə, indi onların sayı çoxalıb. Üç qrup var və hər birində 30-dan çox şagird. Onu da deyim ki, qısa müddət olmasına baxmayaraq, bacarıqlı şagirdlər yetişdirmişik", - deyə Adil müəllim şagirdlərindən həvəslə danışır.

Uşaqlara yaxınlaşıram. Onların çöhrəsindəki sevinc bu torpaqlarda firavan həyatın başlanmasının əlamətidir. Sona Bağırlı, Əli Həzizadə, Zülfiyyə Orucova, Nazlı Süleymanzadə, Mədinə Ağayarlı və digərləri təhsillərini Füzuli şəhərində, ata-baba yurdlarında davam etdirirlər. Bu uşaqlar ayrı-ayrı vaxtlarda, ayrı-ayrı bölgələrdən köçüb gəlsələr də, indi bir-biriləri ilə yaxın dostluq əlaqələri qurublar. Şəhərdəki gözəl binalarda yaşayan bu balacalar bildirirlər ki, asudə vaxtları olan kimi parkda gəzintiyə çıxır və dostları ilə əylənirlər.

"Bizim üçün bu torpaqlar ata-baba yurdu olmaqla yanaşı, həm də çox müqəddəsdir, çünki şəhərə baxdıqda, burada necə ağır döyüşlərin getdiyini hiss etmək olur, hər bir qarışında şəhidlərimizin qanı var. Ona görə də Vətənimizə, xalqımıza, dövlətimizə layiqli övlad olaraq böyüməyə çalışırıq" deyir Füzuli şəhərinin bu balaca sakinləri. Onların bu sözləri məni qürurlandırır. Bəli, 30 il düşmən tapdağı altında qalan və xarabalığa çevrilən Füzuli şəhərində indi vətənpərvər və istedadlı uşaqlar yetişir. O uşaqlar ki özləri balaca olsalar da, arzuları böyükdür... Elə bu arzularla da Yaradıcılıq Mərkəzindən xoş duyğularla ayrılıram.

# "Səssiz qatil"lə mübarizə

## Dünyada 2 milyarda yaxın insan hepatitdən əziyyət çəkir

**H**epatit virusları bəşəriyyətin sağlamlığı üçün əsas risk amillərindən biri hesab edilir. Onun bəzi növləri heç bir ciddi problem olmadan keçir, digərləri isə uzunmüddətli olur, hətta qaraciyərin funksiyasının itirilməsi ilə nəticələnir.




Hələ qədim zamanlardan elmə məlum olan bu xəstəlik Hippokrat tərəfindən "yoluxucu sarılıq xəstəliyi" adı ilə təbabətə gətirilib. Təbii ki, o zamanlar xəstəliyi törədən səbəblər bilinmirdi, lakin onların yoluxucu olduğu və insandan-insana keçdiyi məlum idi.

1883-cü ildə rus alimi Botkin xəstəliyin infeksion təbiətə malik olmasını qəti surətdə təsdiq edib. İnfeksion hepatitin virus etiologiyasına malik olmasını ilk dəfə 1937-ci ildə ABŞ-də Findi və F.Mak-Kollum qeyd etsələr də, onu törədən amillərin araşdırılması prosesi 1963-cü ildə Blumberg tərəfindən Avstraliya antigeninin tapılması ilə yeni dövrə qədəm qoydu. Bundan sonra 1973-cü ildə hepatit A, 1977-ci ildə hepatit D, 1989-cu ildə hepatit C, 1992-ci ildə hepatit E xəstəliklərinin törədiciləri aşkar olundu. Hepatit virusları içərisində ən təhlükəlisi hepatit C olduğu üçün hər il oktyabrın 25-i hepatit virusunun kəşfi günü kimi qeyd edilir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünya əhalisinin hər üç nəfərindən biri, yəni 2 milyarda yaxını hepatitdən əziyyət çəkir. Dünyada 325 milyon nəfər hepatit B və ya C virusu ilə yaşayır. Hər il 900 min nəfər B virusundan dünyasını dəyişir.

Hepatit B və C hər il 1,4 milyon insanın həyatını itirməsinə səbəb olur. ÜST bütün ölkələri milyonlarla insanın həyatını xilas etmək üçün xəstəliyin diaqnostikası və müalicəsinin keyfiyyətini yüksəltməyə çağırır. BMT-yə üzv dövlətlər tərəfindən imzalanmış Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq, hepatitə yoluxanların sayının 2030-cu ilədək 90 faiz azaldılması əsas hədəf seçilib.

### Hepatit viruslarının təhlükələri və müalicə üsulları

Hepatit xəstəliyinin müayinə və müalicəsi sahəsində ölkəmizdə də mühüm tədbirlər görülür. Həmin tədbirlərə hepatit viruslarına yoluxanların diaqnozlarının qoyulması, qeydiyyatlarının aparılması, onların dərman preparatları ilə təmin edilməsi və müalicələrinin təşkili daxildir. 2014-cü ildən etibarən Səhiyyə Nazirliyində hepatitlərin profilaktika, diaqnostika və müalicəsinin təşkili üzrə xüsusi komissiya yaradılıb.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə komissiyanın üzvü, həkim-infeksionist Aişə Kərimovanın sözlərinə görə, hepatit qaraciyərin iltihablanması ilə xarakterizə olunan ciddi sağlamlıq problemidir. A, B, C, D və E növləri olan xəstəliyin hər birinin fərqli yoluxma yolları, klinik təzahürləri və nəticələri var. Hepatitin əsas əlamətləri yorğunluq, qarın ağrısı, iştahsızlıq, ürəkbulanma, qusma, sarılıq, qızdırma və oynaqlarda ağrılardır.

"Fekal-oral yolla ötürülən hepatit A-nın simptomları, adətən yoluxmadan 2-6 həftə sonra ortaya çıxır. Xəstəlikdən sonra tam sağalma baş verir və daimi immunitet yaranır. Hepatit B-nin inkubasiya dövrü 1-6 ay arasında dəyişir. Yoluxma qanköçürmə, tibb alətləri və steril olmayan iynələrdən istifadə nəticəsində baş verir. O, kəskin və ya xronik forma alaraq ortaya çıxır. Xroniki forması qaraciyər serrozuna və xərçənginə səbəb ola bilər. Bəzi insanlarda xroniki hepatit simptomsuz inkişaf edir və yalnız irəliləmiş mərhələdə aşkar olunur. Kəskin Hepatit B öz-özünə sağalsa da, xroniki növü tam müalicə olunmur. Virusun fəaliyyəti antiviral dərmanlarla nəzarətdə saxlanılır", - deyə həkim-infeksionist qeyd edib.

Virusun növləri içərisində ən təhlükəlisi hepatit C hesab edilir. Mütəxəssis bildirib ki, onun inkubasiya dövrü 2 həftədən 6 aya qədər ola bilər. Simptomlar çox vaxt yüngül olur və ya uzun müddət heç bir əlamət vermir: "Hepatit C çox vaxt xroniki forma alır və bu, qaraciyər çatışmazlığı, serroz və qaraciyər xərçənginə gətirib çıxarsa da, tamamilə müalicə edilə bilər. Müasir antiviral dərmanlar, xüsusən də direkt fəaliyyət göstərən antiviral (DAA) preparatlar, HCV-ni effektiv şəkildə müalicə edə bilir. Hepatit A və E-dən hepatit C üçün peyvənd olmasa da, ancaq müalicə variantları çox uğurludur. Hepatit D yalnız hepatit B ilə birlikdə mövcud olsa da, xəstəlik daha ağır keçir və onun tam müalicəsi yoxdur. Hepatit E-nin simptomları 2-8 həftə sonra ortaya çıxır. Xəstəlik, adətən, öz-özünə keçir və xronikləşmir, müalicə tələb etmədən sağalır. Xüsusi antiviral dərman tələb olunmur. Xəstəlik keçdikdən sonra tam sağalma baş verir".

### Xəstəlik haqqında məlumatlılıq artırılarsa, yoluxma səviyyəsi aşağı düşər

Ümumi profilaktik tədbirlər sırasında qaraciyər sağlamlığını qorumaq üçün balanslı qidalanma, kifayət qədər su qəbul etmək və immuniteti güclü saxlamaq vacibdir. Hepatit viruslarının yayılma yolları haqqında maarifləndirmə tədbirləri aparmaq, cəmiyyəti risklər və profilaktika yolları ilə bağlı məlumatlandırmaq böyük əhəmiyyət daşıyır. Profilaktika tədbirlərinə riayət etməklə, bu ciddi xəstəliklərin qarşısını almaq mümkündür. Aişə Kərimova vurğulayıb ki, əsas profilaktik tədbirlər gigiyena qaydalarına riayət etməklə bağlıdır. Təmiz, etibarlı mənbədən gələn və ya filtrdən keçmiş suyun içilməsi, meyvə və tərəvəzlərin yaxşıca yuyulması, yeməklərin tam bişirilməsi, əllərin mütəmadi olaraq sabunla yuyulması və şəxsi gigiyenaya riayət edilməsi vacibdir.

"Azərbaycanda hepatit viruslarının yayılmasının qarşısını almaq və maarifləndirmə səviyyəsini artırmaq üçün müxtəlif tədbirlər görülməlidir. Hepatit viruslarının ötürülməsi yolları və qorunma tədbirləri haqqında ictimaiyyətin məlumatlılığı artırılarsa, yoluxma hallarını azaltmaq mümkün olar. Televiziya, radio və sosial media vasitəsilə genişmiqyaslı maarifləndirmə kampaniyaları təşkil olunmalıdır. Hepatit viruslarının necə yayılması, simptomları və profilaktik tədbirlər barədə məlumatlar sadə və anlaşılan formada təqdim edilməlidir. Məktəblər və universitetlərdə hepatit virusları və onların qarşısının alınması yolları barədə sessiyalar təşkil edilməlidir. Hepatit B-yə qarşı peyvənd uşaqlara doğumdan sonra tətbiq olunmalıdır. Risk qruplarına daxil olan insanlar (tibb işçiləri, narkotik istifadəçiləri və s.) müntəzəm olaraq vaksinasiya olunmalıdırlar", - deyə mütəxəssis bildirib.

Həkim-infeksionistin sözlərinə görə, xəstəxanalar və digər tibbi müəssisələrdə sterilizasiyaya ciddi nəzarət olunmalı və tibb işçiləri infeksiyalardan qorunma tədbirləri ilə bağlı təlimatlandırılmalıdır: "Tibbi alətlərin sterilizasiyası və birdəfəlik iynələrin istifadəsi təmin edilməlidir. Qan donoru olmaq istəyən şəxslər hepatit virusları ilə bağlı yoxlanılmalı və bu prosesə ciddi nəzarət olunmalıdır. Virusa yoluxmuş şəxslərdən qan alınmasının qarşısını almaq üçün mütəmadi testlər aparılmalıdır. Su ilə yayılan hepatit virusları, xüsusilə hepatit A və E-nin qarşısını almaq üçün təmiz su təminatını yaxşılaşdırmaq lazımdır. Kənd yerlərində sanitariya vəziyyətinin təkmilləşdirilməsi, çirkli su mənbələrinə nəzarətin artırılması vacibdir. Eyni zamanda restoran və qida satışı yerlərində gigiyena normalarına ciddi riayət olunması nəzarət altında saxlanılmalıdır. Hamilə qadınlar hepatit B, C və E-yə qarşı mütəmadi olaraq test olunmalı və yoluxma hallarında onlara müvafiq tibbi yardımlar göstərilməlidir. Hepatit infeksiyalarının yayılmasının qarşısını almaq üçün qanunvericilikdə müvafiq qaydalar təkmilləşdirilməlidir. Xüsusilə sterilizasiyanın lazımi qaydalara uyğun aparılmadığı yerlərdə ciddi cəzalar tətbiq edilməlidir. Bu addımların həyata keçirilməsi Azərbaycanda hepatitlə bağlı yoluxma hallarını azalda və insanların sağlamlığını qorumağa kömək edə bilər. Profilaktik tədbirlər və maarifləndirmə hepatitin yayılmasının qarşısını almaq üçün ən effektiv üsullardır".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
BRICS 2024 RUSSIA
Azərbaycan beynəlxalq mövqeyini möhkəmləndirir
Azərbaycan Macarıstan ilə strateji tərəfdaşlığın daha da dərinləşməsinə xüsusi önəm verir
Prezident İlham Əliyev terror aktı ilə bağlı Türkiyə Prezidentinə başsağlığı verib
Azərbaycan erməni təəssübkeşlərinə gözdağı verir
Qarabağ və Şərqi Zəngəzur kreativ sənaye zonasına çevrilir
Paşinyan Ermənistanı cəhənnəmə çevirir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Avropa İttifaqı mühüm təhsil layihələrinin maliyyəsini kəsir

"Erasmus+" tələbə mübadiləsi layihəsi və "Horizon" Avropa tədqiqat və innovasiya proqramı 2025-ci il üçün büdcələrinin kəsilməsi ilə üzləşə bilərlər.




Belə ki, milli hökumətləri təmsil edən Aİ Şurası, "Erasmus+"un xərclərini 295 milyon avro, "Horizon" tədqiqat və innovasiya proqramına Avropa Komissiyasının əvvəlcə planlaşdırdığı vəsaiti isə 400 milyon avro azaltmağı təklif edib.

Brüsseldə "Erasmus+" səfiri olan Mayeva Kampos Peres vaxtilə aylıq 800 avroluq qrant sayəsində Kolumbiyada bir semestr təhsil alıb. Onun sözlərinə görə, maliyyənin azaldılması mübadilə təhsili almağı planlaşdıran bir çox tələbələrin yolunu bağlayacaq və seçim prosesini daha rəqabətli edəcək: "Bu, utancvericidir, çünki mənim üçün "Erasmus+" müxtəlif millətlərdən olan insanlar arasında əməkdaşlığın, mədəni əlaqələrin və əsl qarşılıqlı yardımın simvoludur".

1987-ci ildə əsası qoyulan "Erasmus+" proqramı 16 milyona yaxın gəncin xaricdə təhsil almasına imkan yaradıb. Onun 2021-2027-ci illər üçün büdcəsi 26,2 milyard avro təşkil edir ki, bu da əvvəlki 2014-2021-ci illər üçün nəzərdə tutulmuş 14,7 milyard avroluq proqram büdcəsindən 80 faiz çoxdur.

Avropa Parlamentinin üzvləri ehtiyatlanırlar ki, kəsilmiş büdcə "Erasmus+" kimi proqramların maliyyələşdirilməsinə imkan verməyəcək.

Aİ Şurası "Horizon" tədqiqat və innovasiya proqramına Avropa Komissiyasının əvvəlcə planlaşdırdığından 400 milyon avro az vəsait ayırmağı təklif edir. Tədqiqat fəaliyyəti ilə maraqlanan tərəflər maliyyələşmənin azalmasının Avropa İttifaqının innovativ inkişafına və rəqabət qabiliyyətinə mənfi təsir göstərəcəyindən ehtiyat edirlər.

2021-ci ildən 2027-ci ilə qədər 95,5 milyard avro büdcəsi ilə "Horizon Europe" AB tədqiqatlarını maliyyələşdirməyi, yaşıl və rəqəmsal keçidi dəstəkləməyi, rəqabət qabiliyyətini və inkişafı stimullaşdırmağı hədəfləmişdir.

Aİ Şurası Ukraynaya dəstəyi prioritetləşdirmək və COVID-19 pandemiyasının vurduğu iqtisadi bərpa planı üçün ayrılan vəsaitləri geri qaytarmaq üçün xərcləri azaltmaq niyyətindədir. Avropa Parlamenti öz növbəsində, tədris və tədqiqat proqramlarının maliyyələşdirilməsini saxlamaq üçün mübarizə aparmaqdadır.

Susana Qarayeva Aİ ilə institusional əlaqələrə cavabdeh olan şəxs kimi deyir: "Bu, tipik bir şeydir. Avropa Parlamenti həmişə büdcəni artırmağa çalışır, Avropa İttifaqı Şurası isə onu həmişə kəsir. Biz bunu səhv hesab edirik. Əgər Avropa real dünyada öz layiqli yerini tutmaq istəyirsə, biz rəqabət qabiliyyəti baxımından çox tələbkar olmalıyıq və rəqabət qabiliyyəti olmayan innovasiyalar reallığa çevrilə bilməz ".

Son anda Şuranın Avropa Komissiyasının planı ilə müqayisədə xərcləri 1,52 milyard avro azaltmaq təklifi olunub. Çərşənbə günü Avropa Parlamentinin deputatları Şuranın "Erasmus+" tələbə mübadiləsi layihəsi və "Horizon Europe" tədqiqat və innovasiya proqramı kimi əsas Aİ proqramları üçün təklif etdiyi ixtisarı rədd edib və onu daha çox maliyyələşdirməyə çağırıblar.

"Büdcəni azaltmaqla biz vətəndaşların ehtiyaclarını ödəyə bilməyəcəyik" deyən rumıniyalı sosial-demokrat Viktor Neqresku Strasburqda jurnalistlərə bildirib ki, Aİ büdcəsi də gələcək illərdə gözlənilməz hadisələri maliyyələşdirmək üçün müəyyən çevikliyə ehtiyac duyur.

Şura və komissiya nümayəndələrinin iştirakı ilə ilk iclasın noyabrın 5-də keçirilməsi nəzərdə tutulub.

Siyasi müzakirələrin gərgin keçəcəyi gözlənilir.

27 hökuməti təmsil edən Avropa Şurası fiskal intizamı müdafiə etdiyini bildirir və qanunvericilərə xəbərdarlıq edir ki, əlavə xərclər üzv dövlətlərin deyil, Avropa vergi ödəyicilərinin üzərinə düşəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hava şəraiti dəyişəcək - xəbərdarlıq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib.

Xidmətdən AZƏRTAC-a verilən məlumata görə, oktyabrın 26-sı axşamdan 27-si səhərədək Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Axşam və gecə yarımadanın bəzi yerlərində leysan olacağı, şimşək çaxacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə aşağı enəcək.



Oktyabrın 25-də əsasən Azərbaycanın şərq rayonlarında, 26-da isə şimal və qərb rayonlarından başlayaraq 27-si axşamadək hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Qazax-Gəncə, Naxçıvan MR, Qarabağ və Şərqi Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) yağıntıların leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, o cümlədən Lənkəran-Astara bölgəsinin bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi müəyyən olunmuş şəxslərin iştirakı ilə inklüziv incəsənət nümunələrinin hazırlanması" (təkrar) adlı *müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 5 noyabr 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 6 noyabr 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4207
Sifariş 2424

Qiyməti 60 qəpik